# 28 May Müstəqillik Günüdür!

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 110 (30804) 28 may 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Laçın Qayıdışın yüksəliş poliqonudur

### Prezident İlham Əliyevin Laçın rayonuna səfəri

### “LATIFA” tikiş fabriki istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də “LATIFA” Laçın tikiş fabrikinin açılışında iştirak edib.**

“Bakı Abadlıq Xidməti” MMC-nin baş direktoru Bünyad Qasımov dövlətimizin başçısı İlham Əliyevə fabrik barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2023-cü il avqustun 26-da açılışı olmuş “Laçın Aqro-Sənaye Parkı” fəaliyyətini genişləndirir. Rayonun Zerti kəndində yerləşən Parkda artıq 12 müəssisə fəaliyyət göstərir.

Bildirildi ki, sənaye parkında daha iki müəssisənin işə başlaması nəzərdə tutulur. Bunlardan biri “LATIFA” Laçın tikiş fabrikidir. Ümumi dəyəri 1,2 milyon manat olan müəssisədə 30 yeni iş yeri yaradılacaq. Fabrikdə gündə 2 min ədəd tekstil məhsulu istehsal olunacaq. Buraya ev tekstili, idman dəstləri, eksklüziv geyimlər və digər məhsullar daxildir.

**(ardı 2-ci səhifədə)**

## Cənub Qaz Dəhlizi: Xəzərdən Avropaya mötəbər enerji körpüsü

Səhifə ⇨ 14

## Bakıdan dünyaya mesaj



Səhifə ⇨ 13



Səhifə ⇨ 16

## Qlobal geosiyasət və Türk Dövlətləri Təşkilatı

## Milli mətbuatın yubileyinə həsr olunmuş kitab sərgisi

Səhifə ⇨ 18

## Prezident İlham Əliyev Müstəqillik Günü münasibətilə paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 28 May – Müstəqillik Günü münasibətilə paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımdakı fotonun üzərində bu sözlər yer alıb: “28 May - Müstəqillik Günü”.




## Xəyalları gerçəyə çevirən körpü



**33 il bundan əvvəl İğdırla Dilucu arasında salınan Ümid körpüsü bu gün qardaş xalqların birlik rəmzinə çevrilib**

Bəri başdan əminliklə deyə bilərik ki, əslində, iki qardaş xalqı bir-birinə qovuşduran Ümid körpüsü, eyni zamanda, Türk dünyasının birliyinə aparan yola işıq salmaqla, təkcə yurddan-yurda deyil, həm də könüldən-könülə bağları bərpa etmək kimi böyük missiyanı yerinə yetirmiş oldu. Amma burada zaman və şəxsiyyət amillərinin oynadığı rolu qeyd etməyə bilmərik. Xəyallarımızı gerçəyə çevirən körpünün təşəbbüskarları – Naxçıvan MR Ali Sovetinin o vaxtkı Sədri Heydər Əliyev və Türkiyə Cümhuriyyətinin sabiq prezidenti, onun yaxın dostu Süleyman Dəmirəl idi. Onların lentini birgə kəsdikləri körpü bir millətin iki dövlətinin sarsılmaz birliyinə çevrilməsinin əyani təzahürü oldu. Otuz üç əvvəl həmin qürurverici mənzərəni bütün dünya izlədi.

Naxçıvanın Sədərək və Türkiyənin Dilucu yaşayış məntəqələrini birləşdirən körpü Azərbaycan–Türkiyə münasibətlərinin daha da yaxınlaşması və genişlənməsi ilə məhdudlaşmadı. Sonra bu münasibətlər türkdilli dövlətlərin bir araya gəlməsi ilə gücləndi və monolitləşdi. Bu gün eyni soy, tarix və dil doğmalığı ilə xarakterizə olunan münasibətlərin coğrafiyası özündə 7 ölkəni birləşdirən Türk Dövlətləri Təşkilatının sərhədləri kimi geniş və çoxşaxəlidir.

**(ardı 10-cu səhifədə)**

## Şərəf və ləyaqət tariximiz



**Azərbaycan dövlətinin müstəqilliyinin elan edilməsinin 107-ci ildönümü respublikamızda qürur hissi ilə qeyd olunur. 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası ölkənin dövlət müstəqilliyi haqqında İstiqlal Bəyannaməsini qəbul etdi. Bu hüquqi və siyasi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı göstərilmiş, onun hakimiyyətinin şamil olduğu ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin suverenliyin əsas prinsipləri öz əksini tapmışdır.**

İstiqlal Bəyannaməsində demokratik dövlətə məxsus atributların – hakimiyyətin xalqa məxsusluğu, vətəndaşların mülki və siyasi hüquqlarının təminatı, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi və cinsi mənsubiyyətindən asılı olmayaraq, azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyətin bölünməsi prinsiplərinin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğu elan edildi. Mayın 30-da Azərbaycanın öz müstəqilliyini elan etməsi barədə dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqrafla məlumat verildi. Tarixdə Azərbaycan adında ilk müstəqil dövlət – Azərbaycan Xalq Cümhuriyyəti (AXC) yaradıldı.

**(ardı 10-cu səhifədə)**

# Laçın Qayıdışın yüksəliş poliqonudur

## Laçında "LATIFA" tikiş fabriki istifadəyə verilib





(əvvəli 1-ci səhifədə)

Uzun illər Ermənistan tərəfindən işğala məruz qalmış Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı layihələr regionun iqtisadi potensialının reallaşdırılması ilə paralel şəkildə davam etdirilir. Yeni istehsal və xidmət müəssisələrinin istifadəyə verilməsi əhalinin dayanıqlı məskunlaşmasına və məşğulluğun təmininə geniş şərait yaradır. Eyni zamanda, Laçın Sənaye Parkında istehsal müəssisələrinin qurulması innovativ texnologiyaların tətbiqi və ixracyönümlü məhsul hazırlanması baxımından böyük əhəmiyyət daşıyır. Bütün bu addımlar Qarabağı və Şərqi Zəngəzuru ölkənin iqtisadi inkişafının mühüm komponentlərindən birinə çevirir, bölgənin ümumilikdə ölkə iqtisadiyyatına inteqrasiyasını sürətləndirir.

Müəssisə ilə tanışlıqdan sonra dövlətimizin başçısı sakinlərlə görüşdü.

**Prezident İlham Əliyev:** Necə yaşayırsınız doğma torpaqda?

**Sakinlər:** Yaxşı, Sizin sayənizdə yaxşı.

**Prezident İlham Əliyev:** İş yeri də açılıb.

**Sakinlər:** Hər şey gözəldir.

**Prezident İlham Əliyev:** Evlərlə də təmin olunmusunuz.

**Sakinlər:** Bəli, çox yüksək səviyyədə. Allah canınızı sağ eləsin. Sizin kimi gözəl Prezidentimiz var.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Biz həmişə Sizə dünya Lideri deyirik. Siyasi cəhətdən, mənəvi cəhətdən, maddi cəhətdən xalqımıza çox böyük dəstək olursunuz. Sizə çox-çox minnətdarıq.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Sakin:** İnşallah, gələn il bu vaxt gələndə şəxsən bizim evə qonaq gələrsiniz.

**Prezident İlham Əliyev:** Gələrəm.

**Sakin:** Başımız üstə yeriniz var, 495 nömrəli evdə Sizi gözləyirik.

**Prezident İlham Əliyev:** Şəhərdə qalırsınız?

**Sakin:** Bəli. Bayraq meydanı ilə üzbəüz. Gözümüz üstə. Siz çox sadə adamsınız. Xalqınızı çox sevənsiniz. Hər bir şeyə dəyər verənsiniz. Bizim üstümüzdə Sizin haqqınız çox-çox yüksəkdir.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Biz də fəxr edirik ki, Sizin kimi gözəl Prezidentimiz var.

**Prezident İlham Əliyev:** Mən də sizinlə fəxr edirəm. Uzun illər ərzində işğal həyatını yaşamısınız, ancaq ümidlərinizi itirməmisiniz. Bilirdiniz, inanırdınız ki, qayıdacaqsınız və qayıtmısınız. İndi həm evlərlə təmin olunmusunuz, həm də iş yeri ilə, gözəl sənaye zonası yaradılıb. Düzdür, Laçın cənnətin bir parçasıdır, burada yaşamaq da xoşdur, çalışmaq da, işləmək də. Əsas odur öz torpağında, öz doğma torpağındasan.

**Sakin:** Vətənimizdəyik, ata-baba yurdumuzdayıq. Çox-çox minnətdarıq.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun, var olasınız.

**Prezident İlham Əliyev:** Sabah Müstəqillik Günüdür.

**Sakin:** Gələn ayaqlarınız var olsun, Allah kölgənizi daimi etsin.

**Prezident İlham Əliyev:** Sağ olun, sizinlə bayram ərəfəsində görüşürük.

**Sakin:** Ən böyük şansdır bizim üçün.

**Prezident İlham Əliyev:** Xoşbəxt yaşayın.

**Sakinlər:** Çox sağ olun, təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

## Laçın şəhərində kanat yolu çəkiləcək




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçın şəhərində kanat yolunun təməlini qoyub.**

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Laçının füsunkar təbiəti, turizm imkanları nəzərə alınaraq rayonda turizm infrastrukturunun qurulmasına da xüsusi diqqət yetirilir. Bu məqsədlə yaradılan Laçın kanat yolu şəhərin Bulvar ərazisində yerləşəcək və iki hissədən ibarət olacaq. Kanat yolunun hündürlüyü 300 metr, xəttinin uzunluğu isə 1720 metr olacaq, hərəkət müddəti 6 dəqiqə təşkil edəcək. Ümumilikdə 17 kabinədən ibarət kanat yolu saatda 800 sərnişinə xidmət edə biləcək. Kanat yolunun yerləşdiyi, uzunluğu 2 kilometrə yaxın olan Bulvar ərazisi bu gün həm yerli sakinlərin, həm də turistlərin sevimli məkanlarından biridir.

İşğaldan azad olunduqdan sonra qısa zamanda bərpa edilən Laçında çox mühüm sosial-infrastruktur layihələri həyata keçirilməkdədir. Bu xüsusda Laçında turizm infrastrukturuna xüsusi diqqət yetirilir.

## Prezident İlham Əliyev ayaqqabı fabriki filialının açılışında





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də "PIRSHAGHI" ayaqqabı fabrikinin Laçın filialının açılışında iştirak edib.**

"Laçın Aqro-Sənaye Parkı"nda işə başlayan müəssisələrdən biri də "PIRSHAGHI" ayaqqabı fabrikinin Laçın filialıdır. Ümumi dəyəri 367,9 min manat olan müəssisədə əsasən Laçın sakinləri olmaqla 15 nəfər işlə təmin ediləcək. Müəssisə kişi, qadın və uşaqlar üçün ayda 1500 cüt ayaqqabı istehsal etmək gücündədir. Müasir avadanlıqlarla təchiz olunmuş fabrikdə idman və klassik üslubda ayaqqabılar istehsal ediləcək.

Müəssisə daxili bazarda satış həyata keçirməklə yanaşı, istehsal etdiyi məhsulları Avropa ölkələrinə ixrac etməyi də planlaşdırır.

"Laçın Aqro-Sənaye Parkı"nda ümumilikdə 46 müəssisənin fəaliyyət göstərməsi nəzərdə tutulub. Burada mebel fabrikləri, balıq təsərrüfatı, yeyinti sənayesi, yüngül sənaye, ekoloji cəhətdən təmiz emal müəssisələri, kiçikbuynuzlu heyvanlar üzrə elmi-təcrübə mərkəzi və digər müəssisələr yaradılacaq.

Regionda yeni iş yerlərinin yaradılması, infrastrukturun bərpası və sahibkarlıq fəaliyyətinə dəstək iqtisadi fəallığın canlanmasına səbəb olur. "Laçın Aqro-Sənaye Parkı" bu xüsusda olduqca mühüm rol oynayır.

## Elektrik Şəbəkəsi Rəqəmsal İdarəetmə Mərkəzi işə salınıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçın Elektrik Şəbəkəsi Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.**

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın Elektrik Şəbəkəsi Rəqəmsal İdarəetmə Mərkəzindən şəhərin ərazisində yerləşən istehlakçıların - yeni salınan yaşayış komplekslərinin, tikintisi aparılan sənaye və sosial təyinatlı infrastrukturun, kənd təsərrüfatı və turizm obyektlərinin, xüsusən əhalinin elektrik enerji təchizatının fasiləsizliyinin və dayanıqlılığının təmin olunması nəzərdə tutulur. Mərkəz elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Burada hər birinin gücü 1600 kVA olan iki ədəd güc transformatoru, müasir avadanlıqlarla təchiz olunmuş 35 kV-luq və 0,4 kV-luq qapalı paylayıcı qurğular quraşdırılıb. Mərkəzin elektrik təchizatı üçün "Laçın" yarımstansiyasından 4,8 km uzunluğunda ikidövrəli elektrik verilişi xətləri çəkilib. Burada quraşdırılan müasir avadanlıq bütün texnoloji ölçmələrin yüksək dəqiqliyini və vahidliyini təmin edir ki, bu isə öz növbəsində şəbəkənin etibarlı istismarını dəstəkləməklə yanaşı, elektrik enerjisinin ötürülməsi zamanı itkilərin və ümumi istismar xərclərinin azaldılmasına şərait yaradır.



Mərkəzdə, həmçinin istehlakçıların elektrik enerjisi verilişində planlı fasilələrin yaranması barədə onlayn qaydada əvvəlcədən məlumatlandırılma imkanı yaradılıb. Bərpaolunan enerji mənbələrinin şəbəkələrə inteqrasiya edilməsi prosesi Rəqəmsal İdarəetmə Mərkəzində avtomatik idarə olunduğundan elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulmasını, həmçinin cihaz və avadanlıqların qarşılıqlı koordinasiyasını tam təmin edən mərkəz vasitəsilə əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılması həyata keçirilir. Bununla yanaşı, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyəti, yaşıl enerji mənbələrinin şəbəkəyə inteqrasiyası da icra olunur. Mərkəzdə yerləşən yarımstansiya qapalı tiplidir və idarəetmə əməliyyatları məsafədən həyata keçirildiyindən daimi işçi heyətinə ehtiyac olmur.

# Laçın Qayıdışın yüksəliş poliqonudur

## Prezident İlham Əliyev Laçın rayonu Bəylik kəndinin açılışında





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçın rayonunun Bəylik kəndinin açılışında iştirak edib.**

Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov dövlətimizin başçısına burada yaradılan şərait barədə məlumat verib.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Laçın rayonunda, o cümlədən Bəylik kəndində genişmiqyaslı quruculuq işləri aparılır.

*

Prezident İlham Əliyev Laçın rayonunun Bəylik kəndində klub-icma mərkəzində yaradılan şəraitlə də tanış olub.

Buradakı otaqlarda rəqs və digər dərnəklər fəaliyyət göstərəcək. Binadakı zalda əlamətdar günlərlə bağlı müxtəlif tədbirlərin, eyni zamanda, gənclərin toplantı və görüşlərinin keçirilməsi üçün hərtərəfli şərait var. Bəylik kəndində evlərin, sosial obyektlərin, küçələrin işıqlandırılmasında yaşıl enerjidən istifadə edilir. Bu məqsədlə digər obyektlər kimi klub-icma mərkəzinin binasının damında da günəş panelləri quraşdırılıb.

*

Sonra Prezident İlham Əliyev Bəylik kəndində yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olub.

Qeyd edək ki, tamamilə yenidən tikilən kəndə ümumilikdə 90 ailə – 360 nəfərin köçürülməsi nəzərdə tutulur. Ərazisi 29,6 hektar olan kənddə 91 fərdi ev inşa olunub. Evlərdən 13-ü iki, 50-si üç, 15-i dörd, 13-ü isə beşotaqlıdır.

Bəylik kəndində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr tikilib, kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

# Bəylik kəndinə köçən sakinlərlə görüş





**Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunun Bəylik kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib. Prezident İlham Əliyev sakinləri salamladı.**

**Sakinlər:** Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz doğma Vətəninizə.

**Sakinlər:** Allah Sizi qorusun! Fəxr edirik Sizinlə, Prezidentimizlə. Sizi Bəylikdə görmək böyük xoşbəxtlikdir. Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun. Sizi kəndin bərpa olunması münasibətilə təbrik edirəm. Eyni zamanda, bildiyiniz kimi, sabah Müstəqillik Günüdür. Sizi Müstəqillik Günü münasibətilə təbrik edirəm. Siz gözəl bayram ərəfəsində doğma torpağınıza qayıdırsınız. Bu, gözəl hadisədir və əminəm ki, burada, doğma torpaqda həyatınız xoş keçəcək.

**Sakinlər:** İnşallah.

**Prezident İlham Əliyev:** Dövlət əlindən gələni edib ki, sizin üçün çox gözəl şərait yaratsın.

**Sakinlər:** Var olsun dövlətimiz, çox sağ olun.

**Prezident İlham Əliyev:** Gözəl evlər, yollar, elektrik enerjisi, təbii qaz, su, həyətyanı sahə, yəni, yaşamaq üçün, çalışmaq üçün bütün imkanlar var. Belə gözəl, təbii şəraitdə yaşamaq, özü də öz torpağında yaşamaq, əlbəttə, əminəm ki, sizin üçün çox xoşdur. Bu, böyük xoşbəxtlikdir. Biz 30 illik erməni işğalına son qoyandan sonra dərhal bütün rayonlarda bərpa-quruculuq işlərinə start verildi, erməni vandallığına məruz qalmış kəndlər yenidən quruldu. Bəylik kəndi də ermənilər tərəfindən yerlə-yeksan edilmişdi. İndi gözəl yaşayış məntəqəsi yaradılmışdır. Buna yaxın, sizin qonşu kəndiniz vaxtilə bir kənd olub, Sus kəndi, o tərəfdə Zabux, Laçın şəhəri. İndi Laçın rayonunda artıq dörd yaşayış məntəqəsi bərpa edilib. Amma, ümumiyyətlə, bərpa edilmiş şəhər və kəndlərimizin sayı 15-ə çatıb. Bütün bunları qısa müddət ərzində etmişik və işlər davam etdirilir. Azad edilmiş bütün ərazilərdə genişmiqyaslı işlər gedir ki, tezliklə bizim vətəndaşlarımız öz torpaqlarına qayıtsınlar.

**Sakinlər:** İnşallah.

**Prezident İlham Əliyev:** Azad edilmiş ərazilərdə bu günə qədər 40-43 min adam yaşayır, çalışır, ali məktəbdə oxuyur.

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Allah şəhidlərimizə rəhmət eləsin!

**Sakinlər:** Amin.

**Prezident İlham Əliyev:** Bildiyiniz kimi, o vaxt Laçın rayonunun kiçik bir hissəsi döyüş meydanında azad edilmişdi, cənub hissəsi. Ancaq əsas hissə Ermənistanın təslim olunmasından sonra azad edildi, bir güllə atılmadan. Həm Laçının əksər hissəsi, Kəlbəcər, Ağdamın böyük hissəsi Ermənistan tərəfindən məcburən bizə qaytarılmışdır və ondan bu yana Azərbaycan xalqı öz doğma torpaqlarına qayıtmağa başlamışdır.

May ayı sizin üçün ikiqat bayram ayı olacaq - həm müstəqillik bayramı, həm də Bəyliyə qayıtdığınız gün. Amma may ayı laçınlılar üçün faciəvi ay olmuşdur. Məhz may ayında Laçın işğala məruz qaldı, Şuşa işğalından 10 gün sonra. Bu, böyük bir faciə idi, böyük bir bəla idi həm sizin üçün, həm də bütün ölkəmiz üçün. Çünki məhz Laçının işğal altına düşməsi müharibədə ondan sonrakı uğursuzluqlarımızın təməlini qoydu. Çünki ovaxtkı Dağlıq Qarabağ bölgəsi coğrafi nöqteyi-nəzərdən Ermənistanla birləşdi. Mənfur Laçın dəhlizi açıldı, hansı ki, indi yoxdur. Artıq uzun illərin Laçın-Xankəndi yolu var. Laçın dəhlizi tarixdə qaldı.

Bilirsiniz, o vaxt o dövrü yaşayan insanlar yaxşı bilir ki, Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. O vaxt hakimiyyətə can atan AXC-Müsavat cütlüyü xəyanət, satqınlıq etmişdir və torpaqlarımızın işğal altına düşməsində onların böyük mənfur payı var. Məhz Laçın işğala məruz qalandan bir ay sonra onlar öz istəklərinə nail olub hakimiyyətə gəldilər, o da ölkəmiz üçün böyük bəlaya gətirib çıxarmışdır. Hakimiyyətə gəlmək üçün torpaqları satmaq, düşmənə təhvil vermək böyük cinayətdir, böyük xəyanətdir, satqınlıqdır, qorxaqlıqdır. Amma o, artıq tarixdə qaldı. O tariximizin qara səhifəsi çoxdan bağlandı. Azərbaycan bu gün bütün ərazisində öz suverenliyini bərpa edib. May ayı bundan sonra ancaq sizin üçün, bizim hamımız üçün bayram ayı kimi olacaqdır. Sağ olun.

**Sakinlər:** Allah canınızı sağ eləsin, Sizin sayənizdə, "Dəmir yumruq" sayəsində. Allah "Dəmir yumruğ"unuzu var eləsin, əziz Prezidentimiz.

**Prezident İlham Əliyev:** Sağ olun. İndi bizim gözəl tarixlərimiz var, gözəl bayramlarımız var. 18 may - Laçının işğal günü, 8 may - Şuşanın işğal günü, onlar artıq tarixdə qaldı. Siz yaxşı bilirsiniz ki, işğal dövründə laçınlılar, şuşalılar, digər rayonlardan olan insanlar hər il işğal gününü matəm kimi qeyd edirdilər. Bu, hər il onların dərdinə dərd əlavə edirdi, amma artıq o günlər yoxdur. Bizim indi 8 Noyabr günümüz var - Zəfər Günü, bizim 26 Avqust günümüz var - Laçının azad olunması günü və Laçının Günü kimi qeyd olunur. 23 Aprel var - o vaxt ki, Laçın istiqamətində biz öz sərhədimizə sahib çıxdıq və bizim sərhədimizdə yerləşənləri kənarlaşdıraraq artıq mənfur Laçın dəhlizini də nəzarətə götürdük. Təbii ki, 20 Sentyabr - bu da bizim böyük Zəfər günümüzdür. Birgünlük antiterror əməliyyatı nəticəsində separatizmin kökü kəsildi, Ermənistan ordusu tam təslim oldu. Artıq yeni dövr başlamışdır və bütün dünya bununla hesablaşmağa məcbur oldu. Baxmayaraq ki, hələ həm İkinci Qarabağ müharibəsi zamanı və müharibədən sonra, 2023-cü ilin sentyabr ayına qədər müxtəlif xarici dairələrdən müxtəlif məkrli təşəbbüslər irəli sürülürdü. Heç birinin əhəmiyyəti olmadı. Çünki dediyiniz kimi, "Dəmir yumruq" yerindədir. Sizi təbrik edirəm, xoşbəxt yaşayın.

**Sakin:** Cənab Prezident, mən ailəm adından, Bəylik kəndi adından Sizə böyük minnətdarlığımı, təşəkkürümü bildirirəm. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Amin. Cani-könüldən deyirəm, Allah Sizi Azərbaycan xalqının üstündən əskik etməsin. Amin. Mehriban xanımla qoşa yarıyın, qoşa qarıyın. Var olun. Hamınız var olun.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm.

*

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

*

**Prezident İlham Əliyev:** İndi də gözəl bir mərasimə başlayaq, bayram ərəfəsində.

**Qadın sakin:** Bizim üçün ikiqat bayramdır.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Mayıl Həsənov**: Allah canınızı sağ eləsin. Sizin siyasətiniz sayəsində biz 32 ildən sonra öz vətənimizə gəlib yetişmişik.

**Prezident İlham Əliyev:** Allaha şükür.

**Mayıl Həsənov**: Sizin siyasətiniz sayəsində bu torpaqlar azad olunub. Bu torpaqlar uğrunda şəhid olanlara Allah rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Amin.

**Mayıl Həsənov**: Onların valideynlərinin qarşısında baş əyirik.

**Qadın sakin**: Hamımız baş əyirik.

**Mayıl Həsənov**: Qazilərimizə cansağlığı arzulayırıq. Sizin də siyasətiniz bax, belə davam etsin. Ömrünüzün axırınadək bax, belə davam etsin.

**Sakinlər:** Amin, inşallah.

**Prezident İlham Əliyev:** İnşallah. Təbrik edirəm.

**İntizar Həsənova:** Qalib xalqın qalib Prezidenti, Sizinlə fəxr edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**İntizar Həsənova**: Sizi Bəylik kəndində görmək bizim üçün şərəfdir, qürurdur. Allah Sizi qorusun. Allah Sizi Azərbaycanın üstündən əskik etməsin. Qadınlar adından çox xahiş edirik ki, bizim minnətdarlığımızı Mehriban xanıma çatdırasınız.

**Prezident İlham Əliyev:** Çatdıraram mütləq, çox sağ olun. Təbrik edirəm.

**Xədicə Həsənova:** Çox sağ olun, əziz Prezident. Mən də Sizi təbrik edirəm bizə belə xoş, rəvan, gözəl şərait yaratdığınıza görə. Həmişə başın uca, alnın açıq, ürəyin təmiz olsun, xalqın arxasında durasan.

**Sakinlər:** Amin.

**Xədicə Həsənova:** Xalq da sənin arxanda duracaq.

**Prezident İlham Əliyev:** Sağ ol. Çox sağ olun.

**Mətləb Tağıyev:** Cənab Prezident, mən Allahdan arzu edirəm ki, bundan sonra Siz 100 il sağlam ömür yaşayasınız.

**Sakinlər:** Amin. Amin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Mətləb Tağıyev:** Siz böyük iş görmüsünüz, hələ çox görəcək işlərimiz var. Allah nailiyyətlərinizi, qələbələrinizi bol etsin.

**Sakinlər:** Amin. Amin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Mətləb Tağıyev**: Çox sağ olun.

**Nüsrət Balakişiyev**: Cənab Prezident, çox sağ olasınız.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Nüsrət Balakişiyev**: Allah Sizə ömür versin, qalan laçınlılarımıza da belə gözəl evlər tikib gətirib qovuşdurasınız.

**Prezident İlham Əliyev:** Hamısı qayıdacaq.

**Nüsrət Balakişiyev:** Çox sağ olun, təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Hələ Laçında görüləsi işlər çoxdur.

**Ülviyyə Həsənova:** Çox sağ olun, təşəkkür edirəm. Olar yoldaşım da gəlsin, ikimiz də?-

**Prezident İlham Əliyev:** Əlbəttə, bəli.

**Ülviyyə Həsənova**: Gəl, ikimiz də şəkil çəkdirək.

**Həyat yoldaşı:** Çox sağ olun.

**Ülviyyə Həsənova:** 50 illik yubileyimdə mənim üçün ev hədiyyəsi. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm sizi, ad günü münasibətilə.

**Ülviyyə Həsənova:** Bu gün 30 illik evlilik həyatımızın ən gözəl hədiyyəsidir, ən gözəl.

**Həyat yoldaşı:** Olar bir-iki kəlmə söz deyim?

**Prezident İlham Əliyev:** Əlbəttə.

**Həyat yoldaşı:** Cənab Prezident, 2012-ci il dekabrın 24-də laçınlı keçmiş məcburi köçkünlər üçün Ağcabədi rayonunda salınmış Taxtakörpü qəsəbəsinin açılışına gələndə Siz demişdiniz ki, - mən də onda xidmət edirdim, - inşallah, torpaqlarımız azad olunacaq, bundan da yaxşı evlər tikib sizə açarları təqdim edəndə deyəcəksiniz ki, cənab Prezident, bizim şəhərimizə, bizim kəndimizə xoş gəlmisiniz.

**Sakinlər:** Xoş gəlmisiniz, xoş gəlmisiniz. Sağ olun, minnətdarıq.

*(ardı 4-cü səhifədə)*

# Laçın Qayıdışın yüksəliş poliqonudur

## Bəylik kəndinə köçən sakinlərlə görüş



**(əvvəli 3-cü səhifədə)**

**Prezident İlham Əliyev:** O vaxt 50 illiyimi laçınlılarla birlikdə qeyd etdim. 60 illiyimi isə Şuşada qeyd etdim, Cıdır düzündə.

**Sakin:** Sizin 44 günlük müharibə dövründə söylədiyiniz bir fraqmenti xatırlatmaq istəyirəm. Almaniyalı jurnalist cənab Prezidentdən müsahibə götürəndə dedi ki, Qarabağ torpağı Sizin üçün niyə əzizdir? Cənab Prezident dərhal cavab verərək dedi ki, Avropanın nəhəng dövləti olan sizin Almaniya üçün Bavariya nə qədər əzizdirsə, Qarabağ torpağı da bizim üçün o qədər əzizdir. Sağ olun.

**Prezident İlham Əliyev:** Yadınızdadırsa, bir məsələni də demişdim. Deyirdilər ki, qondarma "Dağlıq Qarabağ"a, "Artsax"a müstəqillik verilməlidir, özü də bunu Fransadan deyirdilər. Dedim, mən razıyam, bir şərtlə ki, onlara Marseldə müstəqillik versinlər, mən də oranı tanıyım.

Dövlətimizin başçısı sakin Xatirə İsayevaya açarları təqdim edərək dedi: Təbrik edirəm.

**Xatirə İsayeva:** Çox-çox təşəkkür edirəm, cənab Prezident. Allah Sizə cansağlığı versin. Bu gözəl şəraiti yaratdığınıza görə təşəkkür edirəm. Çox-çox təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

Sakin Ədalət İsmayılova açarları təqdim edən dövlətimizin başçısı dedi: Təbrik edirəm.

**Ədalət İsmayılov:** Xoş gəlmisiniz, cənab Prezident. Allah Sizi bizim xalqımızın üstündən əskik etməsin. Allah rəşadətli Ordumuzu var etsin. Dövlətimizin Bayrağını daim uca etsin. Şəhidlərimizin məqamlarını uca etsin, ailələrinə səbir, dözüm nəsib etsin!

**Prezident İlham Əliyev:** Sağ olun.

Dövlətimizin başçısı sakin Vahid Cəmilova təbriklərini çatdıraraq ona açarları təqdim etdi.

**Vahid Cəmilov:** Xoş gəlmisiniz vətənimizə və vətəninizə.

**Qadın sakin:** Mən Prezidentimi hər dəfə görəndə ona cansağlığı arzulamışam. Var olun, Prezidentim, Mehriban xanımla birlikdə, balalarınla birlikdə. Öpürəm Sizi, sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Digər qadın sakin:** Gözəl Prezidentimiz, Sizinlə çox fəxr edirəm. Qoy, bizim Sizinlə ailəvi şəklimiz olsun. Sizi çox sevirik.

**Prezident İlham Əliyev:** Gəlin, çox sağ olun.

**Kişi sakin:** Təşəkkür edirəm, cənab Prezident.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Digər kişi sakin:** Böyük fəxrdir bizim üçün, böyük fəxrdir. Şükür Allahın bugünkü gününə.



## "Aşağı Malıbəyli" və "Mirik" SES-lər istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçında "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) "Aşağı Malıbəyli" və "Mirik" su elektrik stansiyalarının (SES) açılışında iştirak edib.**



"AzərEnerji" ASC-nin sədri Baba Rzayev dövlətimizin başçısına əvvəlcə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında hidro yaşıl enerji layihələri barədə məlumat verdi.

Bildirildi ki, bu günədək istismara verilən 32 və artıq istismara hazır olan 6 stansiyanın işə salınması nəticəsində su elektrik stansiyalarının sayı 38-ə, onların gücü isə 307 MVt-a çatdırılır. Yaradılmış su elektrik stansiyalarında istehsal olunan yaşıl enerji hesabına illik 200 milyon kubmetrədək təbii qaza qənaət edilir və 400 min tonadək karbon qazı emissiyasının atmosferə atılmasının qarşısı alınır.

Dövlətimizin başçısına "Aşağı Malıbəyli" və "Mirik" su elektrik stansiyaları haqqında məlumat verildi. Hər iki stansiya Həkəri çayının sağ qolu olan Zabux çayının Laçın rayonunun Malıbəyli və Mirik kəndlərinin ərazisindən keçən hissəsində inşa edilib. 3,1 MVt gücündə "Aşağı Malıbəyli" və 3,5 MVt gücündə "Mirik" su elektrik stansiyalarında ən müasir avadanlıq quraşdırılıb, optik kabel xətləri çəkilib. Bununla da stansiyalar ölkənin enerji sisteminin mərkəzləşmiş SCADA sisteminə inteqrasiya olunub. "Aşağı Malıbəyli" və "Mirik" SES-lərdə il ərzində 20 milyon kilovat-saat yaşıl enerjinin istehsalı nəzərdə tutulub ki, bu da öz növbəsində 4,3 milyon kubmetr təbii qaza qənaət etməyə şərait yaradacaq, il ərzində 8 min ton karbon qazının atmosferə atılmasının qarşısını alacaq. Yeni istismara verilən stansiyalarda Laçın rayonunun sakinləri çalışacaqlar.

Prezident İlham Əliyev "Aşağı Malıbəyli" və "Mirik" su elektrik stansiyalarını işə saldı.



## Prezident İlham Əliyevin Laçın şəhərinin sakinləri ilə görüşü





**Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın şəhərində sakinlərlə görüşüb və onlarla söhbət edib.**

Dövlətimizin başçısını salamlayan sakinlər dedilər: Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Cənab Prezident, üçüncü dəfədir Sizinlə görüşürük.

**Prezident İlham Əliyev:** Salam, necəsiniz?

**Sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Birinci gələnlərdənsiniz, elədirmi?

**Sakin**: Bəli, birinci gələnlərdənik.

**Sakin:** Olar, bəlkə bizim evdə bir şəkil çəkdirək?

**Prezident İlham Əliyev**: Olar, çəkdirək.



**Sakin:** Cənab Prezident, bu da xüsusi təyinatlıdır.

**Prezident İlham Əliyev:** Ay maşallah, ay maşallah. Neçə yaşı var?

**Sakin:** Beş.

**Prezident İlham Əliyev:** Maşallah. Rütbəsi də var.

**Sakin**: Bəli, bəli.

**Prezident İlham Əliyev:** Rütbəni kim verib sənə, özün? Sən mütləq general olacaqsan. Necə yaşayırsınız?

**Sakinlər:** Çox şükür, yaxşı. Hər şey yaxşıdır. Gözəl havası, gözəl suyu.

**Sakin:** Biz elə birinci köçənlərdənik, o vaxtdan da burada yaşayırıq.

**Prezident İlham Əliyev**: Bəli, birinci köçənlərdən.

**Sakin**: Biz də Əməkdar müəllimlərik. Sizinlə şəkil çəkdirmək istəyirik, şagirdlərimizlə, zəhmət olmasa.

**Prezident İlham Əliyev**: Gəlin, belə duraq. Burada harada dursan yenə də cənnət görünür. Balacanı da mən götürüm qucağıma. Balaca, gəl buraya.

**Sakinlər**: Çox sağ olun. Allah Sizə ömür versin, cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sağ olun, sizə də cansağlığı. Məktəbdə işlər yaxşıdır?

**Sakin**: Bəli, əladır, çox gözəldir.

**Prezident İlham Əliyev:** Həyətyanı sahə var?

**Sakin**: Bəli, var. Çox sağ olun, təşəkkür edirəm, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sabah bayram günüdür. Bayram münasibətilə sizi təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun, var olun, cənab Prezident. Allah Sizə ömür versin.

# Laçın Qayıdışın yüksəliş poliqonudur

## Prezident İlham Əliyev "Laçın" İstirahət Kompleksinin açılışında










**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçın rayonunun Zerti kəndində "Laçın" İstirahət Kompleksinin açılışında iştirak edib.**

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına kompleksdə yaradılan şərait barədə məlumat verdi.

Qarabağın əsrarəngiz təbiətində, Laçın rayonunun dağ zirvəsində yerləşən bu məkan bölgənin turizm potensialını əks etdirən müasir istirahət mərkəzi olmaqla işğaldan azad edilmiş ərazilərin bərpası və regionda turizmin inkişafına xidmət göstərən mühüm layihələrdən biridir.

Bildirildi ki, ərazisi 11,2 hektar və ümumi sahəsi 42 min kvadratmetr olan "Laçın" İstirahət Kompleksi müxtəlif kateqoriyalı 120 otaqlı hotel binasından, 8 kottecdən ibarət olmaqla, ümumilikdə 324 nəfər qonaq qəbul edə biləcək.

İstirahət kompleksində işgüzar görüşlərin, konfransların və digər tədbirlərin keçirilməsi üçün müasir avadanlıqlarla təchiz edilmiş 500 nəfərlik tədbir və 340 nəfərlik ziyafət zalları, 100 nəfərlik konfrans zalı və toplantı otağı yaradılıb.

Kompleksdə fəaliyyət göstərəcək restoran və kafelər həm milli mətbəxin, həm də dünya mətbəxinin təamlarını qonaqlara təqdim edəcək.

Burada qonaqların istirahətini mənalı və əyləncəli keçirmələri üçün boulinq, VR oyun zonaları, karaoke, bilyard, uşaq əyləncə mərkəzi fəaliyyət göstərəcək. Kompleksin ərazisindəki futbol və basketbol meydançaları, velosiped və yürüş zolaqları qonaqlara dağ mənzərələri fonunda aktiv istirahət təqdim edəcək.

Bu istirahət məkanında 174 nəfər işlə təmin olunub ki, onlardan da 122-si Laçın, Kəlbəcər və işğaldan azad olunmuş digər ərazilərin sakinləridir.

***AZƏRTAC***





## Laçın Beynəlxalq Hava Limanında qarşılanma



**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif mayın 27-də Azərbaycan Respublikasına səfərə gəlib.**

Laçın Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Pakistanın Baş nazirini Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və digər rəsmi şəxslər qarşıladılar.

## Baş nazir Əli Əsədov Misir Senatının sədri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 27-də ölkəmizdə səfərdə olan Misir Ərəb Respublikası Senatının sədri Abdel Vahab Abdel Razeq ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycanla Misir arasında əlaqələrin müxtəlif sahələrdə yüksələn xətt üzrə inkişafından məmnunluq ifadə edilib. Dövlət başçılarının müntəzəm görüşlərinin və müzakirələrinin ikitərəfli münasibətlərin daha da dərinləşməsi və möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin qarşılıqlı səfərlərinin dövlətlərarası münasibətlərin tarixində yeni mərhələnin əsasını qoyduğu xüsusi vurğulanıb.

Həmçinin parlamentlərarası münasibətlərə toxunulub, ikitərəfli əlaqələrin inkişafında qanunverici orqanların vacib rolu qeyd edilib.

Görüşdə Azərbaycan-Misir qarşılıqlı faydalı əməkdaşlığının müxtəlif istiqamətlərdə genişləndirilməsi perspektivləri müzakirə olunub.

***XQ***

# Laçın Qayıdışın yüksəliş poliqonudur

## Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana səfəri

### Liderlərin Laçında məhdud tərkibdə dialoqu





**Mayın 27-də Laçında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifiə məhdud tərkibdə görüşü keçirilib.**

Qarabağa və Şərqi Zəngəzura səfərindən məmnunluğunu bildirən Məhəmməd Şahbaz Şərif bu səfərin Pakistanın "Qarabağ Azərbaycandır!" mövqeyinin növbəti təsdiqinin ifadəsi olduğunu vurğuladı.

Qonaq Azərbaycanın qarşıdan gələn Müstəqillik Günü münasibətilə dövlətimizin başçısını təbrik etdi. Eyni zamanda, Pakistanın Baş naziri Prezident İlham Əliyevin rəhbərliyi ilə Laçında və ətraf ərazilərdə qısa müddət ərzində həyata keçirilən bərpa və quruculuq işlərinin böyük təəssürat doğurduğunu deyərək, bu münasibətlə də dövlətimizin başçısına və Azərbaycan xalqına səmimi-qəlbdən təbriklərini çatdırdı. Baş nazir bu ərazilərin təbiətinin gözəlliyinə toxunaraq, buranın gələcəkdə möhtəşəm, cəlbedici turizm məkanlarından birinə çevriləcəyini qeyd etdi.

Dövlətimizin başçısı bu ərazilərin 30 il ərzində işğal altında olduğunu xatırladaraq, Laçının 1992-ci ildə Azərbaycanın ilk işğal edilən rayonlarından biri olduğunu dedi. Prezident İlham Əliyev işğal zamanı Laçının ermənilər tərəfindən darmadağın edildiyini, işğal olunmuş digər ərazilərin dinc sakinləri kimi, Laçın sakinlərinin də etnik təmizləməyə məruz qaldıqlarını vurğuladı. Dövlətimizin başçısı indi Laçında bərpa və quruculuq işlərinin aparıldığını diqqətə çatdırdı.

Məhəmməd Şahbaz Şərif Cənubi Asiya regionunda Hindistan ilə Pakistan arasında atəşkəsin əldə edildiyini bildirdi, Pakistanın regionda sülhün və sabitliyin bərqərar olmasında maraqlı olduğunu dedi.

Dövlətimizin başçısı da regionda sülhün və atəşkəsin əldə olunmasından məmnunluğunu bildirərək, bütün məsələlərin dialoq yolu ilə həllinin Azərbaycan tərəfindən dəstəkləndiyini vurğuladı.

Görüşdə Azərbaycanla Pakistan arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, həmçinin elm, təhsil və yüksək texnologiyalar, tələbə mübadiləsi sahələrində əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparıldı.

Söhbət əsnasında məmnunluqla qeyd olundu ki, Azərbaycanla Pakistan arasında bu ikitərəfli görüşdən sonra mayın 28-də Laçında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli formatında da görüş keçiriləcək. Bildirildi ki, bu görüş ölkələrimiz arasında qardaşlığın və dostluğun növbəti bariz təzahürü olacaq.

## Azərbaycan Prezidentinin Pakistanın Baş naziri ilə nahar əsnasında geniş tərkibdə görüşü





**Mayın 27-də Laçında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə nahar əsnasında geniş tərkibdə görüşü olub.**

*AZƏRTAC*

## Türkiyədə Azərbaycan təntənəsi

**Ölkəmizdə olduğu kimi qardaş Türkiyədə də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 107-ci ildönümü ortaq dəyərlərimizə sevgi və sayğı ilə qeyd edilir. Türkiyə Prezident Administrasiyasının "Beştəpə" Konqres və Mədəniyyət Mərkəzində 28 May Müstəqillik Günü münasibətilə keçirilən təntənəli mərasim dostluq və qardaşlıq bayramı şənliyinə çevrilib.**

Bu barədə XQ-yə məlumat verən Bilkənt Universitetinin professoru, Əməkdar elm xadimi Əmirulla Məmmədov bildirib ki, ölkəmizin Ankaradakı səfirliyi və Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən mərasimdə Türkiyənin dövlət və hökumət təmsilçiləri, qardaş ölkədə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, Azərbaycan şirkətlərinin rəhbərləri və əməkdaşları, elm və mədəniyyət xadimləri, hərbi məktəblərin kursantları iştirak ediblər. Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, azərbaycanəsilli türkiyəli millət vəkili Şamil Ayrım, Dünya Azərbaycanlıları Konqresinin sədr müavini Başar Kömür mərasim iştirakçıları sırasında olublar.






Mərasim Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan xalqına təbrik mesajı ilə başlayıb. Ölkəmizin Türkiyədəki səfiri Rəşad Məmmədov Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, xalqımızın dövlətçilik tarixindəki mühüm rolu barədə ətraflı məlumat verib. "1918-ci il mayın 28-də elan olunan Azərbaycan Xalq Cümhuriyyəti türk və islam dünyasında hüquqi və dünyəvi dövlət nümunəsi idi", – deyən diplomat bildirib ki, cümhuriyyət 23 ay fəaliyyət göstərsə də, xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq müasir dövrəxas dövlət strukturlarının yaranmasına nail olub.

Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ərsoy çıxışında Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edib. O, ölkələrimizin dostluq və əməkdaşlıq münasibətlərinin əhəmiyyətindən danışıb.

Azərbaycanla bağlı videoçarxın nümayişi ilə davam edən mərasimdə çıxış edən Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz Ankara ilə Bakı arasındakı sarsılmaz birliyin davam edəcəyinə əmin olduğunu deyib və vurğulayıb ki, Türkiyənin can Azərbaycanla birlikdə regionda təhlükəsizlik və sabitlik istiqamətində atdığı addımlar çox vacibdir. Bizim birliyimiz Türk dünyası üçün də əhəmiyyətlidir. Türkiyə və Azərbaycan ümumi ideallar ətrafında birləşərək gələcəklərini birlikdə qurur.

Mərasim konsert proqramı ilə davam edib.

***N.QƏDİMOĞLU***
***XQ***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ölkəniz sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, beynəlxalq arenada artan nüfuza malikdir.

Rusiya-Azərbaycan münasibətləri dostluq, müttəfiqlik xarakteri daşıyır. Əminəm ki, konstruktiv ikitərəfli əməkdaşlığın, beynəlxalq məsələlərdə tərəfdaşlıq üzrə qarşılıqlı fəaliyyətin bundan sonra da birgə səylərlə gücləndirilməsini təmin edə biləcəyik. Bu, xalqlarımızın maraqlarına tamamilə uyğundur - Cənubi Qafqazda və Xəzər regionunda təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi məcrasında davam edir.

Hörmətli İlham Heydər oğlu, Sizə cansağlığı və uğurlar, Azərbaycan Respublikasının bütün vətəndaşlarına isə sülh və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

*

**Cənab Prezident!**

28 May - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Ölkənizin müstəqilliyə nə qədər yüksək dəyər verməsi Azərbaycana son səfərimizdə mən və həyat yoldaşım Şəhidlər xiyabanını ziyarət edərkən xatirəmizdə daha aydın canlanaraq dərin iz saldı. İcazə verin, fürsətdən istifadə edərək Bakıda səmimi qəbula görə bir daha şəxsən Sizə və xanımınıza təşəkkürümü bildirim. Almaniya dövlətinin başçısının Azərbaycana bu ilk səfəri ölkələrimiz arasındakı sıx münasibətlərin əlamətidir.

Mən ikitərəfli əlaqələrimizin genişləndirilməsində çox maraqlıyam. Avropa, Asiya və Yaxın Şərqin kəsişməsində yerləşən ölkəniz mühüm geostrateji mövqeyə malikdir. Çoxsaylı silahlı münaqişələr və yeni gərginliklər qarşısında biz birlikdə ciddi çağırışlarla üzləşirik. Buna görə də mən Sizin regionda sülhün bərqərar olunması üçün göstərdiyiniz səyləri xüsusilə yüksək qiymətləndirir və Sizə tezliklə ən yaxşı və davamlı nailiyyət əldə etməyi arzulayıram.

Sizə və həmvətənlərinizə sülh, əmin-amanlıq və möhkəm cansağlığı diləyirəm.

**Hörmətlə,**

***Frank-Valter ŞTAYNMAYER,***
***Almaniya Federativ Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə təbriklərimi, dost Azərbaycan xalqına firavan gələcəklə bağlı ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Xalqlarımız arasında mövcud olan ənənəvi dostluq münasibətləri əməkdaşlığımızın möhkəm təməlini təşkil edir. Son illərdə əlaqələrin getdikcə intensivləşməsi, xüsusilə də ötən ilin sentyabr ayında Sizin Romaya etdiyiniz dəyərli səfər münasibətlərimizin gələcəyinə inamla baxmağa imkan verir. Bu isə ortaq maraq doğuran bir çox sahələrdə strateji tərəfdaşlığın daha da inkişafı üçün ideal zəmin yaradır.

Daimi dialoq və qarşılıqlı anlayış həm ikitərəfli səviyyədə, həm də Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlər kontekstində İtaliya tərəfindən ardıcıl olaraq təşviq olunan vasitələrdir. Məqsədimiz bugünkü mürəkkəb beynəlxalq şəraitdə yaxşı qonşuluq əlaqələrini, regional sabitliyi və ümumi inkişafı dəstəkləməkdir.

Cənab Prezident, bu əlamətdar gün münasibətilə İtaliya Respublikası adından və şəxsən öz adımdan Sizə və bütün Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

**Hörmətlə,**

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Polşa Respublikası və Polşa xalqı adından, həmçinin öz adımdan Sizə, ölkənizə və onun bütün vətəndaşlarına təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Şadam ki, Polşa Respublikası ilə Azərbaycan Respublikası arasında çox yaxşı və mehriban ikitərəfli münasibətlər son illərdə geniş vüsət alıb.

Keçən il COP29 iqlim konfransında Bakıda olmağımı və Sizinlə şəxsi görüşümüzü məmnunluqla xatırlayıram. Belə böyük bir tədbirin uğurla keçirilməsi Azərbaycanın dinamik şəkildə artan imkanlarının və əhəmiyyətinin ən gözəl nümunəsidir.

Polşa Azərbaycanı Cənubi Qafqaz regionunda mühüm tərəfdaş kimi qəbul edir və biz Azərbaycan ilə bir çox sahələrdə əməkdaşlığı dərinləşdirmək istəyirik. Mən qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişaf etdirilməsində və onun ölkələrimizin daim artan iqtisadi potensialına uyğun səviyyəyə yüksəldilməsində xüsusilə maraqlıyam. Bundan əlavə, Polşanın istər ikitərəfli formatda, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Avropa İttifaqı və Şərq Tərəfdaşlığı formatında ölkələrimiz üçün faydalı əməkdaşlığın bütün sahələrinin daha da inkişafına daim hazır olduğuna Sizi əmin etmək istəyirəm.

Sizə cansağlığı, ölkənizin hərtərəfli inkişafında bol-bol uğurlar, Azərbaycan Respublikasının bütün sakinlərinə firavanlıq və əmin-amanlıq arzulayıram.

**Dərin hörmətlə,**

***Andjey DUDA,***
***Polşa Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi təbrik edirəm.

Mən şadam ki, son illər ölkələrimiz qarşılıqlı hörmət və səmimiyyətə əsaslanan geniş əməkdaşlığı inkişaf etdiriblər. Macarıstan üçün Azərbaycanla dostluq münasibətlərinin dərinləşməsi mühüm əhəmiyyət kəsb edir və bunun üçün genişlənmiş strateji tərəfdaşlığımız möhkəm təməl yaradır.

Sizi əmin edə bilərəm ki, Macarıstan siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığımızı daha da inkişaf etdirməyə sadiqdir.

Xahiş edirəm, dərin ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Tamaş ŞUYOK,***
***Macarıstanın Prezidenti***

*

**Zati-aliləri!**

28 May - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına gürcü xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram. Bu əlamətdar gün Azərbaycan xalqının milli qürurunun, mətanətinin və əzmkarlığının qüdrətli rəmzidir.

Azərbaycan öz tarixi boyu güclü, müstəqil dövlət kimi beynəlxalq aləmdə nüfuzlu rola malik ölkə olmaq üçün xeyli çətinliklərin öhdəsindən gəlib.

Gürcüstanda biz xalqlarımızı birləşdirən nümunəvi dostluğu və güclü strateji tərəfdaşlığı yüksək qiymətləndiririk. Ölkələrimiz qarşılıqlı hörməti və gələcəyə ümumi baxışı rəhbər tutaraq ardıcıl şəkildə həmrəydirlər.

Gürcüstan Azərbaycanın davamlı inkişafına verdiyi dəstəyə sadiq qalır. Əminəm ki, sıx əməkdaşlığımız sayəsində biz Cənubi Qafqazda davamlı sülhə və sabitliyə mühüm töhfə verə bilərik.

Mən Sizi yaxın gələcəkdə Tbilisidə salamlamaq fürsətini səbirsizliklə gözləyirəm.

Bu mühüm bayram münasibətilə Sizə və Azərbaycan xalqına bir daha ən səmimi təbriklərimi çatdırır, sülh, firavanlıq və davamlı uğurlar arzulayıram.

**Hörmətlə,**

***Mixeil KAVELAŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

*

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və bütün qardaş Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Bu bayram xalqınızın ümummilli birliyini və yaradıcı ruhunu təcəssüm etdirir, dövlətçiliyin gələcəkdə də möhkəmləndirilməsi və ölkənin davamlı inkişafı baxımından böyük əhəmiyyətə malikdir.

İnanıram ki, Azərbaycan Sizin rəhbərliyinizlə mütərəqqi dövlətin gücünün artırılmasına, həmçinin beynəlxalq arenada nüfuzunun möhkəmləndirilməsinə yönəlmiş strategiyanın uğurla həyata keçirilməsini davam etdirəcəkdir.

Sevindirici haldır ki, Qazaxıstan-Azərbaycan münasibətləri çoxəsrlik dostluq əsasında həqiqi strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda dinamik inkişaf edir.

Əminəm ki, biz çoxtərəfli dövlətlərarası əməkdaşlığın yeni zirvələrə yüksəlməsini təmin edərək birgə səylərlə nailiyyətlərimizi artıracağıq.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə qardaş Azərbaycanın rifahı və tərəqqisi naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

*

**Möhtərəm İlham Heydər oğlu, əziz Qardaşım!**

Sizi və Sizin simanızda qardaş Azərbaycan xalqını ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Özbəkistan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Sizin uzaqgörən rəhbərliyinizlə həyata keçirilən müdrik daxili və xarici siyasət nəticəsində Azərbaycan bütün sahələrdə əhəmiyyətli nailiyyətlərə imza atır, onun beynəlxalq arenadakı nüfuzu və mövqeyi durmadan yüksəlir.

Əhalinin yaşayış səviyyəsini ardıcıl surətdə yüksəltməyə xidmət edən genişmiqyaslı islahatlarınız, ölkə miqyasında aparılan böyük quruculuq işləri, xüsusilə də yeni, gözəl şəhərlərin salınması və müasir infrastruktur obyektlərinin inşası bizi əsl qardaş kimi sonsuz dərəcədə sevindirir.

Son illər ərzində birgə həyata keçirdiyimiz sistemli fəaliyyətlər nəticəsində ortaq tarix, ənənəvi dostluq və çoxşaxəli əməkdaşlığa əsaslanan əlaqələrimiz dövlətlərarası münasibətlərin yüksək zirvəsi - ittifaq səviyyəsinə yüksəldi.

Əminəm ki, yaxın gələcəkdə bənzəri olmayan Azərbaycan diyarına reallaşacaq səfərimiz və açıq, səmərəli dialoqlarımız qarşılıqlı faydalı və uzunmüddətli münasibətlərimizi keyfiyyət və məzmun baxımından yeni mərhələyə çatdıracaqdır.

Hörmətli İlham Heydər oğlu, Sizinlə keçirdiyimiz danışıqlar zamanı əldə olunan əhəmiyyətli razılaşmalar və böyük layihələr, qəbul edilmiş "yol xəritələri"nin tam şəkildə reallaşması strateji tərəfdaşlığımıza yeni təkan, xalqlarımızın ümumi rifahına böyük töhfə verəcəkdir.

Xüsusilə, razılaşdığımız kimi, əməkdaşlığımızı kimya, neft-qaz, dağ-mədən, energetika, elektrotexnika, zərgərlik, maşınqayırma, farmasevtika, tikinti materialları və bank-maliyyə sahələrində genişləndirərək on yeni istiqamət üzrə sürətlə inkişaf etdirməyə yönəlmiş böyük planlarımızın tam həyata keçəcəyinə inanıram.

Fürsətdən istifadə edərək, ölkənizin həyatındakı bu əlamətdar tarix münasibətilə bir daha təbriklərimi çatdırır, Zati-alinizə möhkəm cansağlığı, ailə səadəti və Vətənin inkişafı yolundakı şərəfli fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq və davamlı tərəqqi arzu edirəm.

**Səmimi ehtiramla,**

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

*

**Hörmətli İlham Heydər oğlu!**

Sizə və dost Azərbaycan Respublikasının bütün xalqına ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Bu gün Azərbaycan Sizin uzaqgörən rəhbərliyinizlə inkişaf yolunda ardıcıl şəkildə və qətiyyətlə irəliləyir, ölkənizin beynəlxalq aləmdəki nüfuzu möhkəmlənir.

Tacikistan və Azərbaycanı dostluq və qarşılıqlı hörmətə əsaslanan tarixi ənənələr birləşdirir.

Tacikistan-Azərbaycan strateji tərəfdaşlıq münasibətlərinin hərtərəfli və ardıcıl inkişafı ölkəmizin xarici siyasət prioritetləri sırasında mühüm yer tutur.

Əminliyimi bildirirəm ki, birgə səylərimiz sayəsində ölkələrimizin malik olduğu böyük potensialdan istifadə etməklə dövlətlərarası münasibətlərimizi bundan sonra da möhkəmləndirəcəyik.

Əziz İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni-yeni uğurlar, dost və qardaş Azərbaycan xalqına isə davamlı sülh, firavanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Albaniya xalqı adından və şəxsən öz adımdan Sizə, xalqınıza səmimi təbriklərimi, əmin-amanlıq və firavanlıq arzularımı çatdırıram.

Albaniya Azərbaycan ilə dostluq münasibətlərini yüksək qiymətləndirir və ölkələrimiz arasında tərəfdaşlığın inkişafından məmnundur. Qarşılıqlı hörmət və ümumi maraqlar üzərində qurulan münasibətlərimiz davamlı şəkildə inkişaf edir. Tərəfdaşlığımızın dərinləşməsində Sizin mühüm rolunuzu yüksək dəyərləndirir və buna görə minnətdarlığımı bildirirəm.

Əminəm ki, Sizin rəhbərliyiniz altında Albaniya ilə Azərbaycan arasında dostluq daha da möhkəmlənəcək, enerji, turizm və infrastruktur kimi qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yaranacaqdır.

Cənab Prezident, milli bayramınız münasibətilə Sizə bir daha təbriklərimi və ən xoş arzularımı yetirirəm.

Sizə ən yüksək ehtiramımı ifadə edirəm.

**Hörmətlə,**

***Bayram BEQAY,***
***Albaniya Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm. Sizə, ölkənizə və onun xalqına davamlı uğurlar, rifah və harmoniya arzulayıram.

Bu il Litva ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünü qeyd edərkən biz ölkələrimizi birləşdirən dostluq əlaqələri ilə qürur duyuruq. Ümid edirəm ki, dialoqumuzu xüsusən də iqtisadiyyat, innovasiya və ətraf mühitin mühafizəsi sahələrində əməkdaşlıq, eləcə də qarşılıqlı anlaşmaya əsaslanan konstruktiv təmaslar vasitəsilə dərinləşdirməkdə davam edəcəyik.

Litva Azərbaycanın müstəqilliyini və suverenliyini ardıcıl surətdə dəstəkləyir. Biz Azərbaycanın Ermənistanla sülhə nail olmaq səylərini dəstəkləyirik və sülh müqaviləsinin mətninin razılaşdırılmasını alqışlayırıq. İnanırıq ki, bu müqavilə tezliklə imzalanacaq və regionda davamlı sülhə zəmin yaradacaq.

Ölkələrimizi hələ də ədalət axtarışında olanlara, azadlığı və müstəqilliyi uğrunda mübarizə aparmaq məcburiyyətində qalanlara dəstək olmaq üçün ilham və güc mənbəyinə çevrilmiş kədərli tarixi keçmiş birləşdirir. İnanıram ki, Rusiyanın Ukraynada apardığı şiddətli müharibə şəraitində biz qaydalara əsaslanan dünya nizamını müdafiə etməkdə vahid və qətiyyətli olacağıq.

Cənab Prezident, Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı bir daha təbrik edirəm.

**Xahiş edirəm, ən xoş arzularımı və dərin hörmətimi qəbul edin.**

***Gitanas NAUSEDA,***
***Litva Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf hissi duyuram. İsrail xalqı ölkələrimiz arasındakı dostluq münasibətlərini qeyd etməkdə mənə qoşulur.

Həm İsrail, həm də regionumuz üçün sabitlik mayakı olan Azərbaycanla strateji tərəfdaşlığımız Yerusəlimdə yüksək qiymətləndirilir. Siz regional sülhün əldə olunmasında səylər göstərməyi prioritet müəyyən etmisiniz, bu da Azərbaycanın dialoq və diplomatiya üçün mühüm platformaya çevrilməsinə səbəb olub.

Sizin rəhbərliyinizlə Azərbaycan iqtisadi tərəqqinin və rifahın parlaq nümunəsinə çevrilib. Ölkəniz dini tolerantlığın və anlaşmanın gözəl modeli hesab olunur və burada cəmiyyətin bütün təbəqələri harmoniya içərisində yaşayırlar. Həqiqətən də antisemitizmin bütün dünyada yayıldığı bir dövrdə Azərbaycan harmoniya içərisində birgəyaşayışın parlaq nümunəsidir.

Xanım Mixalın və mənim gözəl ölkənizə səfərimiz zamanı keçirdiyimiz görüşləri həmişə xatırlayacağam və mən prezidentlik dövrümdə ikitərəfli əlaqələrimizi daha da genişləndirmək üçün möhkəm dostluq təməlimizi inkişaf etdirməkdə çalışmağa sadiqəm. Təhlükəsizlik, innovasiya, enerji və ticarət kimi çox əhəmiyyətli sahələr də daxil olmaqla, ortaq məqsədlərimizə nail olmaq üçün imkanlar çoxdur.

"Konstitusiya və Suverenlik İli"ni qeyd etdiyiniz bir vaxtda, bilin ki, İsrail Dövləti uğurlarınıza və nailiyyətlərinizə sevinir.

Bir daha bu əlamətdar gündə səmimi təbriklərimi, Azərbaycan Respublikasına və onun xalqına davamlı əmin-amanlıq, firavanlıq arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

**Əziz dostuma hörmətlə və ən xoş arzularla,**

***İsxak HERSOQ,***
***İsrail Dövlətinin Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə, ailənizə və Azərbaycan xalqına səmimi təbriklərimi, əmin-amanlıq, firavanlıq və rifah arzularımı çatdırıram.

Bolqarıstan Respublikası Azərbaycan Respublikası ilə dostluq və strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirir. Ölkələrimiz arasında qurulan sıx və səmərəli əməkdaşlıq, xalqlarımız arasındakı qarşılıqlı hörmət ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi üçün sabit təməldir.

Əminəm ki, ötən ilin mayında Bakıya rəsmi səfərim və noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası zamanı keçirdiyimiz görüşlər və danışıqlarımız son illərdə ikitərəfli münasibətləri xarakterizə edən intensiv siyasi dialoqun davam etdirilməsinə töhfə verdi.

İnanıram ki, biz ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin mühüm rəmzi kimi yaxın gələcəkdə Veliko Tırnovo şəhərində "Şuşa parkı" layihəsini həyata keçirəcəyik.

Sizə möhkəm cansağlığı və ali dövləti vəzifənizdə uğurlar arzulayıram.

**Hörmətli cənab Prezident, Sizə ən yüksək ehtiramımı bildirirəm.**

***Rumen RADEV,***
***Bolqarıstan Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi, xalqınıza firavanlıq arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Xorvatiya ilə Azərbaycanı çoxillik əməkdaşlıq və dostluq əlaqələri bağlayır. İnanıram ki, biz qarşıdakı dövrdə ümumi əlaqələrimizin inkişafı istiqamətində fəaliyyətimizi davam etdirəcəyik.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

*

**Cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə İspaniya hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Cənab Prezident, Sizə cansağlığı, sevimli Azərbaycan xalqına sülh, rifah və tərəqqi arzu edirəm.

**Dərin hörmət və ehtiramla,**

***VI FELİPE,***
***İspaniyanın Kralı***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə İsveçrə Federal Şurası və İsveçrə xalqı adından Sizə və həmvətənlərinizə təbriklərimi çatdırıram. Ölkənizə və onun vətəndaşlarına xoşbəxt və uğurlu gələcəklə bağlı ən xoş arzularımı ifadə edirəm.

Mən şadam ki, ölkələrimiz arasında çoxşaxəli əlaqələr davam edir. Əminəm ki, biz bu əlaqələri gələcək illərdə də inkişaf etdirəcəyik.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Karin Keller-SUTTER,***
***İsveçrə Konfederasiyasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə və xalqınıza Portuqaliya xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbriklərimi, tərəqqi və firavanlıq arzularımı yetirirəm.

Bu əlamətdar gündə nəinki möhkəm dostluq münasibətlərinə, həm də bir çox regional və qlobal məsələlərdə ortaq baxışa malik olan ölkələrimiz arasında əməkdaşlığın inkişafı və dərinləşdirilməsi istiqamətində səylərin davam etdirilməsinə sadiqliyimi bir daha bildirirəm.

Getdikcə mürəkkəb və qeyri-sabit olan qlobal mühitlə, beynəlxalq nizama ardıcıl təhdidlərlə üzləşdiyimiz bir vaxtda Portuqaliya və Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində təsbit edildiyi kimi, sülh, demokratiya, çoxtərəflilik, dialoq və insan hüquqlarına hörmət kimi ümumi dəyərlərimizin qətiyyətlə müdafiəsi və təşviqinə verdikləri önəmi vurğulayıram.

Cənab Prezident, Sizə bir daha təbriklərimi çatdırır, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Marselo Rebelo de SOUZA,***
***Portuqaliya Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

İcazə verin, milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizi və dost Azərbaycan xalqını ölkəmizin vətəndaşları adından və şəxsən öz adımdan səmimiyyətlə təbrik edim, firavanlıq və tərəqqi arzularımı çatdırım.

Bu mühüm tarix Azərbaycan Respublikasının beynəlxalq arenada təkcə siyasi sahədə deyil, həm də texnologiya, innovasiya və elm sahələrində qəti addımlarla öz rolunu gücləndirməkdə davam edən əzmkarlığı, suverenliyi və inkişafı ilə əlamətdardır. Tarixlə müasirliyi mükəmməl şəkildə birləşdirən, uzun müddət yaddaşımda qalacaq bir ölkə olan Azərbaycana bu yaxınlarda rəsmi səfərim zamanı buna həqiqətən də əmin oldum.

Bu xoş fürsətdən istifadə edərək, qonaqpərvərliyinizə və ikitərəfli münasibətlərə yeni ruh və məzmun gətirəcəyinə əmin olduğum konstruktiv danışıqlara görə Sizə səmimi-qəlbdən minnətdarlığımı bildirirəm.

Sizin strateji tərəfdaşlığa hazır olmağınızdan ruhlanaraq mən də böyük inamla və nikbinliklə qarşılıqlı maraq doğuran bütün sahələrdə, ilk növbədə enerji, ticarət, təhsil, mədəniyyət və elm sahələrində əməkdaşlığın dərinləşdirilməsi üçün səylər göstərəcəyəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə uğurlar arzulayıram.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı ifadə edirəm.

**Hörmətlə,**

***Qordana Silyanovska-DAVKOVA,***
***Şimali Makedoniya Respublikasının Prezidenti***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri, əziz Qardaşım!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan, möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə Zati-alinizin müdrik rəhbərliyi altında davamlı tərəqqi və rifah arzulamaqdan məmnunluq duyuram.

Ölkənizin tarixində bu əlamətdar hadisənin qeyd olunması son illərdə ikitərəfli əməkdaşlığımızın inkişafında müşahidə olunan müsbət dinamikadan məmnunluğumu ifadə etmək üçün gözəl fürsət yaradır. Əməkdaşlığın bütün sahələrdə xalqlarımızın ortaq maraqlarına xidmət məqsədilə daha da dərinləşdirilməsi naminə Sizinlə birgə fəaliyyətimizi davam etdirməyə tam hazır olduğumu bir daha bəyan edirəm.

Zati-aliləri, əziz Qardaşım, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Abdelmacid TEBBUN,*
*Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti*

*

**Zati-aliləri, əziz dost!**

Azərbaycan Respublikasının milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Sizə Bosniya və Herseqovinanın Rəyasət Heyəti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Çoxəsrlik dövlətçilik ənənəsini davam etdirən və 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasını qeyd edən bu əlamətdar tarix Azərbaycan xalqının müstəqilliyini, suverenliyini, sabit və firavan gələcək qurmaq əzmini simvolizə edir. Əminəm ki, Sizin rəhbərliyinizlə ölkəniz bundan sonra da inkişaf edəcək, həmçinin regionda və onun hüdudlarından kənarda sülhə və əməkdaşlığa töhfə verəcəkdir.

İnanıram ki, xalqlarımız arasında dostluq münasibətləri ümumi maraq doğuran bütün sahələrdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verməklə ortaq mənafelərimizin inkişafına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına sülh, firavanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

*Jelka TSVİYANOVİÇ,*
*Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri*

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Ötən illər ərzində ölkələrimiz arasında güclü əməkdaşlıq və tərəfdaşlıq münasibətləri qurulmuşdur. Bu münasibətlərin daha da inkişaf edəcəyinə və xalqlarımız arasında dostluq əlaqələrinin daha da möhkəmlənəcəyinə ümid edirəm.

Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasına davamlı rifah arzu edirəm.

**Hörmətlə,**

*Li Cu HO,*
*Koreya Respublikası Prezidentinin səlahiyyətlərini icra edən, Baş nazirin müavini və təhsil naziri*

*

**Zati-aliləri!**

Milli bayramınız - Müstəqillik Günü münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından Zati-alinizə və böyük Azərbaycan xalqına səmimi təbriklərimizi çatdırıram.

Fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq diləyirəm.

**Hörmətlə,**

*II Abdullah ibn Al HÜSEYN,*
*İordaniyanın Kralı*

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi, möhkəm cansağlığı, xoşbəxtlik arzularımı çatdırır, ölkənizə, xalqınıza rifah və firavanlıq diləyirəm.

Diplomatik münasibətlərin qurulduğu otuz ildən artıq müddətdə Tailand və Azərbaycan arasında dostluq əlaqələri, xüsusilə də ticarət, investisiya və turizm sahələrində ikitərəfli əməkdaşlıq inkişaf etmişdir.

Əminəm ki, Zati-alinizin güclü dəstəyi ilə ölkələrimizin və xalqlarımızın rifahı naminə əməkdaşlığımızın genişlənməsi istiqamətində daha çox uğur əldə edəcəyik.

**Hörmətlə,**

*Maha VAÇİRALONQKORN,*
*Tailandın Kralı*

*

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə Sudan xalqı adından və öz adımdan ən səmimi təbriklərimi, dost xalqınıza davamlı tərəqqi, firavanlıq və rifah arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram. Həmçinin Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik diləyirəm.

Bu əlamətdar hadisə Sudan Respublikası ilə Azərbaycan Respublikasını birləşdirən qardaşlıq əlaqələrinin dərinliyini və möhkəmliyini bir daha təsdiq etmək imkanı verir.

Fürsətdən istifadə edərək, ikitərəfli əməkdaşlığımızı xalqlarımızın qarşılıqlı maraqlarına xidmət edən vasitələrlə daha da genişləndirməyə və möhkəmləndirməyə sadiqliyimi ifadə edirəm.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

*Abdel Fattah Al-Burhan Abdelrahman Al-BURHAN,*
*Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri*

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Gününün 107-ci ildönümü münasibətilə Filippin Respublikasının Hökuməti adından Sizi və xalqınızı təbrik edirəm.

Filippin və Azərbaycan sülhpərvər, mütərəqqi və firavan ölkələr kimi ortaq dəyərləri bölüşürlər.

Xalqlarımızın rifahı naminə səy göstərdikcə, qoy, ölkələrimiz arasında tərəfdaşlıq dərinləşməkdə davam etsin!

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

*Ferdinand Romualdez MARKOS,*
*Filippin Respublikasının Prezidenti*

*

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə, hökumətinizə və xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Allah-taaladan Zati-alinizə cansağlığı, xoşbəxtlik və davamlı uğurlar, qardaş Azərbaycan xalqına tərəqqi və firavanlıq diləyir, eləcə də fəxr duyduğumuz ikitərəfli əlaqələrimizin daha da inkişaf etməsini arzulayıram.

Xahiş edirəm, səmimi qardaşlıq salamlarımı qəbul edəsiniz.

**Hörmətlə,**

*Mahmud ABBAS,*
*Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri*

*

**Zatı-aliləri!**

Sizi Azərbaycan Respublikasının Müstəqilliyi Günü münasibətilə Gürcüstan Hökuməti və gürcü xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

28 May tarixi əhəmiyyət daşıyan bir gündür və Azərbaycan xalqının azadlıq arzusunun və müstəqilliyinin rəmzidir.

Dostumuz və strateji tərəfdaşımız Azərbaycanın uğurları və inkişafı bizi səmimi-qəlbdən sevindirir. Əminəm ki, Gürcüstan və Azərbaycan Respublikası arasında ümumi maraqlara, regionun inkişafına və sabitliyinə yönələn möhkəm tarixi dostluq və əməkdaşlıq gələcəkdə daha da möhkəmlənəcəkdir.

Müstəqilliyin bu əlamətdar günündə Sizə daim firavanlıq, tərəqqi və dövlət quruculuğu yolunda daha da böyük uğurlar arzulayıram.

Cənab Prezident, Sizə dərin ehtiramımı ifadə edir və ən xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

*İrakli KOBAXİDZE,*
*Gürcüstanın Baş naziri*

*

**Zati-aliləri cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və böyük xalqınıza ən səmimi təbriklərimizi yetiririk. Bu tarixi gün zəngin mədəni irs, müstəqillik arzusu, ləyaqət əsasında suveren, müasir dövlət qurmuş Azərbaycan xalqının mətanətinin, uzaqgörənliyinin və dəyanətinin qürurverici sübutudur.

Sizin rəhbərliyinizlə Azərbaycan öz milli birliyini daha da möhkəmləndirməkdə, regional sabitliyə mühüm töhfə verməkdə, dinamik inkişaf yolu ilə beynəlxalq əlaqələrini genişləndirməkdə davam edir. Qoy bu bayram keçmiş fədakarlıqlara və zəfərlərə hörmətlə yanaşı, ölkənin gələcəyinə istiqamət verən dəyərlərin yenilənmiş təsdiqi olsun!

Əlamətdar bayram münasibətilə Azərbaycanın bütün vətəndaşlarına davamlı sülh, firavanlıq və rifah arzulayırıq.

Cənab Prezident, ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

**Hörmətlə,**

**Vayra Vike-FREYBERQA,**
**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti**

**İsmail SERAGELDİN,**
**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti**

*

**Hörmətli İlham Heydər oğlu!**

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizi və Azərbaycanın bütün sakinlərini səmimi-qəlbdən təbrik edirəm.

Tarixi irsə və zəngin mədəni ənənələrə malik olan Azərbaycan bu gün dinamik inkişaf edən dövlətlər sırasında haqlı olaraq layiqli yer tutur.

Sizin müdrik rəhbərliyinizlə ölkə iqtisadiyyatdan tutmuş beynəlxalq mədəni əməkdaşlığa qədər bütün sahələrdə mühüm uğurlar əldə edib.

Azərbaycanın əsas qürur mənbəyi onun istedadlı, zəhmətkeş və qonaqpərvər xalqıdır. Məhz bu keyfiyyətlərin sayəsində respublika gələcəyə inamla addımlayarkən, eyni zamanda, özünəməxsus kimliyini qoruyub saxlayır.

Biz Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının tərkib hissəsi olan Qaraçay-Çərkəz Respublikası arasında inkişaf etmiş dostluq münasibətlərini və səmərəli əməkdaşlığı yüksək qiymətləndiririk.

Əminəm ki, respublikaların sakinlərinin rifahı naminə əlaqələrimiz bundan sonra da möhkəmlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, uzun ömür, uğurlar, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

*Rəşid TEMREZOV,*
*Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı*

*

**Möhtərəm İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan milli suverenlik illərində dünya birliyinin tamhüquqlu üzvünə çevrilib, geniş beynəlxalq nüfuz qazanıb.

Respublika bu gün Sizin rəhbərliyinizlə ölkədə siyasi və sosial-iqtisadi sabitliyin möhkəmləndirilməsi istiqamətində kompleks dövlət islahatları yolunda inamla irəliləyir.

Əminəm ki, Sizin çoxşaxəli fəaliyyətiniz bundan sonra da Azərbaycan Respublikasının tərəqqisinə və əhalinin rifahının yüksəldilməsinə xidmət edəcək, bizim Müstəqil Dövlətlər Birliyi çərçivəsində məhsuldar əməkdaşlığımız isə möhkəmlənəcək və inkişaf edəcəkdir.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, rifah, Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

*Sergey LEBEDEV,*
*Müstəqil Dövlətlər Birliyinin Baş katibi*

*

**Zati-aliləri!**

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizə səmimi-qəlbdən təbriklərimi, Azərbaycan Respublikasına və onun xalqına davamlı tərəqqi və firavanlıq arzularımı çatdırıram.

Fürsətdən istifadə edərək, İqtisadi Əməkdaşlıq Təşkilatının Azərbaycana əsas üzv dövlət kimi verdiyi əhəmiyyəti bir daha təsdiqləyir, ölkənizin təşkilatın iqtisadi gündəliyinin təşviqinə əvəzsiz töhfələrini yüksək dəyərləndirirəm.

Bu kontekstdə, Sizin rəhbərliyinizlə Azərbaycanın ev sahibliyi edəcəyi İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü xüsusi əhəmiyyət kəsb edir. Əminəm ki, Sizin dəstəyinizlə Zirvə görüşü daha geniş regional inteqrasiya baxımından irəliyə doğru böyük bir addım olacaqdır.

Ortaq məqsədlərimizə nail olmaq üçün davamlı dəstəyinizə ümid edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Əsəd Məcid XAN,*
*İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi*

*

**Möhtərəm cənab Prezident!**

Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktorluğunun və beynəlxalq kollektivinin adından Sizi Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Sözsüz ki, dövlətin inkişafında ən mühüm amillərdən biri elm və texnikanın tərəqqisidir. Hazırda, əsasən, ölkə rəhbərliyinin yorulmaz fəaliyyəti sayəsində Azərbaycanda elmi-texniki potensialın artırılması üçün geniş imkanlar və perspektivlər yaradılır.

Azərbaycan Respublikasının Birləşmiş Nüvə Tədqiqatları İnstitutuna üzv olduğu illər ərzində fundamental və tətbiqi elmlər sahəsində birgə tədqiqatlar üzrə zəngin təcrübə toplanıb, dostluq, etimad və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan səmərəli əməkdaşlığımızın inkişafı və daha da möhkəmləndirilməsi üçün etibarlı zəmin yaradılıb.

Əminəm ki, Azərbaycanın elmi-tədris mərkəzləri ilə Birləşmiş Nüvə Tədqiqatları İnstitutu arasında zamanın sınağından çıxmış əlaqələr elmi əməkdaşlığımızın davamlı şəkildə genişlənməsinə, o cümlədən ölkəniz və institutumuzun bütün üzv dövlətləri üçün qarşılıqlı maraq doğuran praktiki məqsədlərin həyata keçirilməsinə töhfə verəcək.

Möhtərəm cənab Prezident, Sizə möhkəm cansağlığı və yeni-yeni uğurlar, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Dərin və səmimi ehtiramla Sizin,**

*Qriqori TRUBNİKOV,*
*Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru, Rusiya Elmlər Akademiyasının akademiki*

*

**Zati-aliləri!**

28 May - Müstəqillik Günü münasibətilə Sizə və sevimli Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan şərəf və məmnunluq duyuram.

Azərbaycanı regional liderə və mühüm qlobal rolunun getdikcə artdığı bir dövlətə çevirən uzaqgörən liderliyinizi, müdrikliyinizi və güclü prinsiplərinizi alqışlayıram. Azərbaycanın sülh şəraitində birgəyaşayış modeli dünyada uğur qazanıb. Ölkənizin əsrlər boyu dinlərarası və mədəni harmoniya baxımından əldə etdiyi nailiyyətlər müasir dünyamız üçün ruhlandırıcıdır.

Bu əlamətdar günü qeyd edərkən əmin olun ki, mən bir dost kimi müsəlman-yəhudi münasibətlərinin möhkəmləndirilməsi üçün uzun illər davam edən tərəfdaşlığımıza çox böyük önəm verirəm.

Ölkənizə etdiyim çoxsaylı səfərlər məndə Azərbaycan xalqının qonaqpərvərliyi və səxavəti ilə bağlı olduqca xoş xatirələr yaradıb.

Bu bayram münasibətilə Sizə və bütün dünya azərbaycanlılarına xoşbəxtlik, firavanlıq, əmin-amanlıq arzulayıram.

**Cənab Prezident, Sizə ən yüksək ehtiramımı bildirirəm.**

*Ravvin Mark ŞNAYER,*
*ABŞ-nin Etnik Anlaşma Fondunun prezidenti*

*

**Hörmətli İlham Heydər oğlu!**

Milli bayramınız – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bu əlamətdar gün Azərbaycan xalqının müstəqilliyini və milli kimliyini müdafiə etmək uğrunda göstərdiyi qəhrəmanlığın, birliyin və sarsılmaz qətiyyətin təcəssümüdür.

Bu gün Azərbaycan güclü təsisatlara və sabit iqtisadiyyata malik müasir, dinamik dövlət kimi inamla inkişaf edir.

Sənaye, energetika, infrastruktur, təhsil və mədəniyyət sahələrində böyük nailiyyətlər uzaqgörən dövlət siyasəti və ölkənin beynəlxalq aləmdə fəal rolu sayəsində mümkün olub.

Sizin liderliyiniz, müdrik rəhbərliyiniz və davamlı inkişafın, sosial sabitliyin və müstəqilliyin möhkəmləndirilməsinin təmin edilməsi istiqamətində ardıcıl səyləriniz ən yüksək qiymətə layiqdir.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, daim ruh yüksəkliyi və ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər, bütün Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

*Mixail QUTSERİYEV,*
*Rusiyanın "SAFMAR Qrupu" Səhmdar Cəmiyyətinin prezidenti*

*

**Hörmətli cənab Prezident!**

Sizi və bütün Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə BP şirkəti adından səmimi-qəlbdən təbrik edirəm.

Otuz ildən artıqdır ki, davam edən uğurlu və məhsuldar əməkdaşlığımızı yüksək dəyərləndirir və ölkənizin dünya səviyyəli layihələrini təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirməkdən qürur duyuruq. Bu illər ərzində birgə əldə etdiyimiz nailiyyətlər və qarşılıqlı etimad bizim üçün çox böyük əhəmiyyət kəsb edir.

BP şirkəti olaraq, bu səmərəli tərəfdaşlığın uzun illər davam edəcəyinə və Azərbaycan xalqının rifahının daha da yüksəlməsinə xidmət edəcəyinə inanırıq.

Zati-aliləri, Sizi bu əlamətdar gün münasibətilə bir daha təbrik edir, Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə daimi tərəqqi və inkişaf arzu edirəm.

**Hörmətlə,**

*Qəri COUNZ,*
*BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti*

# Dövlət büdcəsinin icrası müzakirə olunub

**Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası olub. Komitə sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin (birinci oxunuş) və 2024-cü ilin büdcəsinin icrası barədə hesabatın müzakirə olunacağını söyləyib. O, bu sənədlərin ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim edildiyini deyib.**

Azər Əmiraslanov məsələ ilə əlaqədar fikirlərini açıqlayaraq "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin və müvafiq hesabatın büdcə qanunvericiliyinin tələblərinə uyğun tərtib edildiyini, layihə ilə bağlı Hesablama Palatasının geniş rəyinin təqdim olunduğunu deyib. Komitə sədri büdcə parametrlərinin, o cümlədən büdcə gəlirləri, xərcləri və kəsirinin, habelə büdcə qaydasının əhəmiyyətindən danışıb. Ölkə Prezidenti tərəfindən büdcə siyasətinin prinsip və hədəflərinin müəyyən edildiyini vurğulayıb.

Komitə sədri dövlətimizin başçısının büdcənin maksimum dərəcədə icra edilməsi, maliyyə intizamının daha da yüksək səviyyədə olması, şəffaflığın tam şəkildə təmin edilməsi, büdcə xərclərinin strukturuna yenidən baxılması və büdcə vəsaitinin qənaətlə xərclənməsi, bütün cari xərclərimizin qeyri-neft gəlirləri hesabına maliyyələşdirilməsi kimi tövsiyələrini nəzərə çatdırıb.

Maliyyə naziri Sahil Babayev Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında hesabatı təqdim edib. O, bildirib ki, qlobal və regional müstəvidə cərəyan edən hadisələr fonunda 2024-cü il Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində ölkəmiz üçün sabitlik, təhlükəsizlik, sosial-iqtisadi inkişaf göstəriciləri və nailiyyətlərlə yadda qalıb. Dövlət büdcəsində nəzərdə tutulmuş gəlir və xərclər müsbət dinamika ilə icra olunub.

2024-cü ildə Azərbaycanda ümumi daxili məhsul real ifadədə 4,1 faiz artaraq, 121,3 milyard manat proqnoza qarşı 126,3 milyard manat təşkil edib. Ötən ildə adambaşına düşən ÜDM 3,6 faiz artaraq 12,4 min manat olub. Qeyri-neft-qaz sektorunda 6,2 faizlik real artım qeydə alınıb.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsinə və Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrasına dair illik hesabata palatanın rəyini təqdim edib.

Məsələ ilə bağlı müzakirələrdə çıxış edən deputatlar 2024-cü ilin dövlət büdcəsinin icrası ilə bağlı hesabatın yüksək səviyyədə hazırlandığını, iqtisadi hədəflərə uyğun olduğunu, habelə Hesablama Palatasının rəyinin obyektiv və dolğun şəkildə tərtib edildiyini bildiriblər, bəzi qeyd və təkliflərini də səsləndiriblər. Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***XQ***

# “İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusunda beynəlxalq konfrans

**Bakıda “İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusunda beynəlxalq konfrans ikinci günündə işini panel və plenar iclaslarla davam etdirib.**

Maore Komitəsinin baş katibi Səid Məhəmməd Səid Əhmədin moderatorluğu ilə keçirilən panel iclasda “Gənclərin inklüzivliyə doğru çağırışı: Qərəzə və yanılmaya qarşı mübarizə” mövzusu müzakirə olunub.

Əl-Həkimə Sülh Araşdırmaları Mərkəzinin direktoru, Müsəlman Ağsaqqalları Şurasının İcraiyyə Ofisinin üzvü **Samir Boudinar** müasir dövrdə, xüsusilə süni intellekt və texnologiyanın inkişafı ilə birlikdə islamofobiyanın daha təhlükəli bir hal aldığını deyib. O qeyd edib ki, alqoritmlər vasitəsilə yayılan yanlış məlumatlar, sosial şəbəkələrdə sürətlə yayılan stereotiplər, müsəlmanlara qarşı mənfi imicin geniş yayılmasına səbəb olur. Bu isə yalnız bir dini icmaya deyil, ümumilikdə cəmiyyətin həmrəyliyinə zərbə vurur. Bəzi siyasi qüvvələr islamofob ritorikanı alətə çevirərək, ictimai narazılıqları və sosial problemləri müsəlmanların üzərinə yükləyir. Bu manipulyativ yanaşma, həm ictimai ədaləti, həm də vətəndaş harmoniyasını sarsıdır.

Beynəlxalq Din və Diplomatiya Mərkəzinin prezidenti və baş icraçı direktoru **Martine Miller** vurğulayıb ki, islamofobiya təkcə dini kimliyə qarşı yönəlmiş qərəzli münasibət deyil, o, həm də gənc nəslin psixologiyasına, cəmiyyətə inteqrasiyasına və gələcəyinə birbaşa təsir göstərən ciddi sosial problemdir. Gənclər bu nifrət atmosferində böyüyür, bəzən öz kimliklərindən utanmaq, gizlətmək, ya da cəmiyyətin qəbul etdiyi “uyğun” forma almaq məcburiyyətində qalırlar.

Amerika Müsəlman Təşkilatları Şurasının Baş katibi **Oussama Jammal** islamofobiyanın ən çox cəhalətin mövcud olduğu yerlərdə kök saldığını deyib. O qeyd edib ki, bəzi dairələr bu cəhaləti qəsdən qidalandırır, yanlış məlumatlarla kütlələri çaşdırır və gəncləri təhlükəli ritorikalarla həssas hala gətirirlər.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində aparıcı məsləhətçi **Lalə Xəlilzadə** islamofobiya ilə mübarizədə öz şəxsi təcrübəsini bölüşərək, qeyd edib ki, islamofobiya ilə mübarizə gənclərin əlindədir. Bu nifrətə qarşı çıxmaq təkcə müsəlman gənclərin yox, bütün ədalətli insanların borcudur.

Savadlılıq və Təhsil İnstitutunun rəhbəri, Müsəlman Gənclər Forumunun icraçı direktoru **Mohamad Antoni** qeyd edib ki, gənclər bir araya gələrək stereotipləri dağıda, birgə təşəbbüslər, maarifləndirici kampaniyalar, layihələr və platformalar vasitəsilə sülh, qarşılıqlı hörmət və birgəyaşayış mesajını gücləndirə bilərlər.

Emerson Kollecinin Marketinq və Kommunikasiya fakültəsinin magistr proqramı direktoru **Carol Ann Ferrara** isə hazırkı Fransa hökumətinin qəbul etdiyi bəzi qərarların, cəmiyyətin mühüm hissəsi olan fransız müsəlmanlarının həyatını çətinləşdirdiyinə diqqət çəkib. O bildirib ki, “Respublika prinsipləri” adı altında tətbiq olunan bu siyasət nəticəsində müsəlman məktəblərinə dövlət dəstəyi dayandırılıb, müsəlman təhsil müəssisələri zəiflədilib və bu da bərabərhüquqlu cəmiyyət anlayışı üçün təhlükə yaradıb.

İclas müzakirələrlə davam edib.

*

**İordaniya Universitetinin Strateji Tədqiqatlar Mərkəzinin direktoru Həsən Əl Momaninin moderatorluğu ilə keçirilən panel iclasda “Dəyişən dünyada İslam mədəni irsinin qorunması” mövzusu müzakirə edilib.**

İclasda çıxış edən Rusiya Müsəlmanlarının Ruhani İdarəsinin sədr müavini, Moskva İslam İnstitutunun rektoru **Damir Muhetdinovun** sözlərinə görə, Qarabağın azad edilməsi və bərpası tarixi göstərir ki, hər bir cəmiyyətdə yaddaşın qorunmasında dini memarlıq abidələri mühüm rol oynayır. “VII əsrə aid olan Dərbənd Cümə məscidi, Dağıstandakı məscidlər və s. İslam ümmətinin müasir Rusiya torpağında təşəkkül tapdığı dövrlərin mühüm tarixi yadigarıdır. Bu və digər abidələr yalnız Rusiyadakı müsəlman xalqların tarixi yaddaşının qorunması baxımından deyil, eyni zamanda, Rusiyanın çoxdinli və çoxmillətli mədəniyyətinin simvolu olaraq da əhəmiyyətlidir”, - deyə D.Muhetdinov qeyd edib.

Dünya Müsəlman İcması Şurasının baş katibi (BƏƏ) **Məhəmməd Beçəri** Beynəlxalq və Avropa qanunvericiliyində dini, dil və mədəni azlıqların hüquqlarını qoruyan maddələrin olduğunu bildirərək deyib: “Lakin biz bu keçici layihədən çıxaraq, bu cəmiyyətlərin yaşadığı çoxmədəniyyətli reallığın ədalətli və yetkin bir layihəsinə keçməliyik. Qərb dövlətlərinin hamısına bu vəziyyəti aid etmək olmaz, çünki vəziyyət ölkədən ölkəyə dəyişir”.

Milli Məclisin deputatı **Qaya Məmmədov** təxminən bir əsr əvvəl Qərbi Azərbaycanda – indiki Ermənistan ərazisində azərbaycanlıların etnik çoxluq təşkil etdiyini deyib. O qeyd edib ki, bu insanların hamısı Ermənistandan deportasiya olunub. Onların torpaqlarında yeni bir dövlət yaradılıb və həmin dövlət BMT-yə üzv qəbul edilib.






İslam işləri üzrə Ali şuranın Baş katibi **Məhəmməd Əbdül Rəhim Əl-Bayumi** isə çıxışında bildirib ki, hər kəs öz dini irsini qorumağa çalışır və bu irs yalnız maddi deyil, eyni zamanda, məlumat və dəyərlər toplusudur.

“Biz reallıqda bəzi təhriflərlə üz-üzəyik – bunlar praktikada müşahidə olunan yanlış davranışlar və fikir axınlarıdır. Təəssüf ki, bu təhriflərin kökü çox zaman məsələyə şüursuz, səthi və metodsuz yanaşmalardan qaynaqlanır,” - deyə o diqqətə çatdırıb.

Beynəlxalq Əlaqələr üzrə Summer Fondunun direktoru **Məhəmməd Şumməri** bildirib ki, beynəlxalq sistem hazırda öz təməl prinsipləri olan qloballaşma, çoxtərəflilik və açıq bazar dəyərləri baxımından ciddi bir aşınma dövrü yaşayır.

Onun sözlərinə görə, bu prinsiplərin yerini getdikcə millilik və xalqçı axınlar tutur. Bu isə “mədəni kimliyin saflığı” kimi anlayışların yenidən gündəmə gəlməsinə səbəb olur. Nəticədə “biz və digərləri” mübahisəsi güclənir və dini-sivilizasiya simvollarının, irsi dəyərlərin yenidən ortaya atılması baş verir - amma bu dəfə tolerantlığın deyil, fərqləndirmənin bir aləti kimi. İslamofobiyaya ağıllı və şüurlu yanaşma, İslam mədəni irsini bu çağırışlara cavab verən strateji bir vasitəyə çevirməklə mümkündür.

İclas müzakirələrlə davam edib.

*

**Kordoba Sülh İnstitutunun məsləhətçisi Alistair Davisonun moderatorluğu ilə keçirilən plenar iclasda “Avropa antimüsəlman qanunvericiliyinin institutlaşması: Radikallaşma fonunda yayılan islamofobik ritorika” mövzusu müzakirə olunub.**

Strasburq Böyük Məscidinin Prezidenti **Said Aalla** qeyd edib ki, yaxın keçmişə qədər islamofobiya müsəlmanlara qarşı açıq-aşkar düşmənçilik edən sağçı radikal partiyalara məxsus xüsusiyyət idi. Bu gün isə bu, dərin bir dəyişikliyə məruz qalaraq əvvəllər nifrət dolu ritorikanın təsirinə düşməyən sahələrə də sirayət edib.

Beynəlxalq Müsəlman Alimləri İttifaqının vitse-prezidenti **Abdelmacid Najar** bütün cəhdlərə, beynəlxalq çağırışlara və maarifləndirmə işlərinə baxmayaraq, islamofobiyanın daha da dərinləşdiyinə diqqət çəkib. O qeyd edib ki, bunun nəticələri təkcə müsəlman cəmiyyətləri üçün deyil, ümumilikdə dünya üçün olduqca təhlükəlidir. Əsas problem İslama qarşı qərəzli şəkildə yayılan məlumatsızlıqdır. İslam dininə dair düzgün və obyektiv bilgilərin olmaması, onu tanımayan insanlar arasında qorxu və nifrət yaradır. Bu boşluqdan isə bəzi dairələr məqsədli şəkildə istifadə edərək cəmiyyətdə İslama qarşı mənfi obraz formalaşdırmağa çalışırlar.

COREIS-in vitse-prezidenti, EULEMA-nın sədri **Yahya Pallaviçini** islamofobiya fenomeninin, sadəcə, dini inanca qarşı yönələn ayrı-seçkilik deyil, daha dərin və sistematik problem olduğunu deyib. İslamofobiyanın cəmiyyətdə qütbləşməni dərinləşdirdiyinə diqqət çəkən Yahya Pallaviçini bildirib ki, bu, mədəni plüralizmə, inanc müxtəlifliyinə qarşı maneə rolunu oynayır. Bu gün Qərb cəmiyyətlərində artan islamofobiya təkcə şəxsi nifrət və ya ayrı-ayrı hadisələrlə məhdudlaşmır. Əksinə, burada bir ideoloji mühərrikin, bir strukturun işlədiyi görünür. Yəni, islamofobiya müəyyən dairələr üçün vasitədir, siyasi maraqlara, kimlik siyasətinə və mədəni üstünlük anlayışına xidmət edən alətdir.

Almaniya Mərkəzi Müsəlmanlar Şurasının sədri **Abdasaamad El Yazidi** qeyd edib ki, islamofobiya bəziləri tərəfindən yalnız müsəlmanlara qarşı yönəlmiş bir məsələ kimi qəbul edilə bilər. Bəziləri isə bu problemin yalnız qeyri-İslam cəmiyyətlərində yaşayan müsəlmanlara aid olduğunu düşünə bilər. Amma bu hadisə bundan daha geniş və çox dərin xarakter daşıyır. “İslamofobiya Qərb ölkələrinin uzun illər təbliğ etdiyi bir sıra dəyərlərə – dözümlülük, dinlərə hörmət, vətəndaşlıq hüquqları kimi dəyərlərə qarşı yönəlmiş bir hücuma çevrilməkdədir. Bu, cəmiyyətləri bir-birinə qarşı duran, parçalanmış qruplara bölmək və bir-biri ilə toqquşduran hala gətirmək təhlükəsi daşıyır”, - deyə Almaniya Mərkəzi Müsəlmanlar Şurasının sədri vurğulayıb.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru **Aqil Şirinov** isə “İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması” adlı beynəlxalq konfransın Azərbaycan tərəfindən keçirilməsini olduqca vacib addım olaraq qiymətləndirərək deyib: “Azərbaycan tarix boyu müxtəlif dinlərin, mədəniyyətlərin, dillərin və etnik qrupların sülh içində birgə yaşadığı ölkə olub”.

İclas müzakirələrlə davam edib.





*

**Konfransın sonuncu sessiyası “EULEMA-nın xüsusi fokus mövzusu: Avropada İslamofobiya” mövzusuna həsr olunub.**

COREIS-in vitse-prezidenti, EULEMA sədri Yahya Pallavicinin moderatorluğu ilə keçirilən sessiyada çıxış edən Avstriya Müsəlman Təşəbbüsünün sədri **Tarafa Bağaçatı** təəssüflə bildirib ki, bəzi siyasi partiyalar və qurumlar İslamı Avropa dəyərlərinə zidd göstərərək onu bu qitədən uzaqlaşdırmağa çalışırlar. Bu, yalnız İslamı deyil, bu dinə inanan milyonlarla avropalını da hədəfə alır. Halbuki İslamı və müsəlmanları Avropanın sosial və mədəni toxumasının bir hissəsi kimi görmək daha düzgün və ədalətlidir.

Sarayevo İstiqlal Məscidinin imamı **Edin Hamzakadiçin** sözlərinə görə, Bosniya və Herseqovinada islamofobiya haqqında danışarkən, təcrübə göstərir ki, bu anlayış iki əsas sahəyə bölünür. Birincisi, zehni yanaşma, yəni insanlar arasında mövcud olan stereotiplər, ikincisi isə İslama münasibəti əks etdirən təqdimat və təbliğatdır. Ölkəmdə islamofobiya ilə bağlı əsas problem məhz bu anlayışın özü, onun təqdim olunma və anlaşılma formasıdır.

“İslamofobiyanın ilk və ən mühüm aspekti bosniyalılıqla əlaqələndirilir. Bu təqdimat vasitəsilə biz islamofobiya və digər ayrı-seçkilik formaları ilə qarşılaşmışıq”, - deyə E.Hamzakadiç qeyd edib.

Lissabon Mərkəzi Məscidinin imamı **David Munir** əvvəllər, xüsusən 1990-cı illərə qədər, Lissabonda islamofobiyanın demək olar ki, olmadığına diqqət çəkib. Onun sözlərinə görə, müsəlmanlar bu cəmiyyətin sakit, hörmətli və əməksevər üzvləri kimi tanınırdılar. Məscidlərə gələnlər az idi, ancaq insanlar arasında qarşılıqlı hörmət və anlayış daha güclü hiss olunurdu.

Rumıniya Müsəlman icması müftisinin müşaviri **Geicun Mustafa** vurğulayıb ki, dinlərarası dialoqun əsas məqsədi başa düşmək, dəyişmək, reallığı daha yaxşı dərk etmək və bu anlayışa uyğun şəkildə hərəkət etməkdir. Belə dialoqlar yalnız qarşılıqlı etimada əsaslanaraq həyata keçirilə bilər və bu, müxtəlif qanun layihələri çərçivəsində müsəlmanların ortodoks və katolik xristianlar, yəhudi icmaları ilə birgə yaşaması modelində özünü göstərir.

Sonda Birgə Kommünike qəbul edilib.

***XQ***

## Beynəlxalq konfransın yekunu barədə mətbuata açıqlama



**“İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması” adlı beynəlxalq konfransın yekununa həsr olunan mətbuat konfransı keçirilib.**

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bu konfransların ardıcıl şəkildə Azərbaycanda keçirilməsinin xarici təşkilatçılar tərəfindən yüksək qiymətləndirildiyinə diqqət çəkib. Onun sözlərinə görə, fərqli ölkələrdən gələn nümayəndə heyətləri, ekspertlər, ictimai, humanitar təşkilatların nümayəndələri konfransın əhatə dairəsini genişləndiriblər.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev qeyd edib ki, yaxın illərdə bu istiqamətdə yeni qurumların formalaşması gözlənilir. İslamofobiya ilə mübarizədə yeni mexanizmlər müəyyən olunmalı və fəaliyyətə başlamalıdır.

“Biz artıq nəzəri müzakirələrdən praktik addımlara keçmişik. Bu, tədqiqat layihələri, konfranslar və digər tədbirlərlə müşayiət olunur. İslamofobiya ilə bağlı məsələlər bəzi təhsil və hüquq sahələrində gündəmə gətirilir. Artıq biz konkret nəticələr əldə etmişik”, - deyə F.Şəfiyev vurğulayıb.

İƏT-in Baş katibinin xüsusi elçisi Mehmet Paçacı konfransın dünyada artmaqda olan islamofobiya ilə mübarizəyə yönəlmiş mühüm addım olduğunu qeyd edib. O bildirib ki, burada islamofobiya ilə necə mübarizə aparılacağı məsələsi geniş şəkildə ələ alınıb.

Doha Beynəlxalq Dinlərarası Dialoq Mərkəzinin sədri İbrahim Saleh Əl Naimi konfransın olduqca yüksək səviyyədə təşkil olunduğunu bildirib. Onun sözlərinə görə, haqsızlıqla mübarizə aparan insanlar konfrans çərçivəsində öz səslərini ucalda biliblər.

ICESCO-nun Sivilizasiyalararası Dialoq Mərkəzinin direktoru Xalid Fəthəlrəhman Prezident İlham Əliyevin islamofobiya ilə mübarizə istiqamətindəki fikirlərini yüksək dəyərləndirib. O, konfransın təşkilatçılığına və Azərbaycanın bu istiqamətdə gördüyü işlərə görə təşəkkür edib.

G20 Dinlərarası Forumunun baş hüquqşünası, “Covington vs Burling LLP” şirkətinin müşaviri Timoti P.Stratford müsəlmanların hər zaman birgə əməkdaşlıq etməli olduğunu vurğulayıb. O, Azərbaycanın bu sahədəki təşəbbüslərini təqdirəlayiq hesab edib.

Almaniya Müsəlmanları Mərkəzi Şurasının (ZMD) sədri Abbassəməd Əl-Yəzidi müsəlmanlara qarşı nifrətə bu kimi dialoqlar yolu ilə cavab verməyin müsbət tendensiya olduğunu deyib. Onun sözlərinə görə, Azərbaycanın bu təşəbbüsləri bütün dünya üçün nümunəvi olmalıdır.

COREIS-in vitse-prezidenti, EULEMA sədri Yahya Pallavici konfransın dinlərarası dialoqa böyük töhfə verəcəyinə ümidvar olduğunu deyib. Onun sözlərinə görə, konfrans Prezident İlham Əliyevin multikultural strateji baxışının təzahürüdür.

# Şərəf və ləyaqət tariximiz

(əvvəli 1-ci səhifədə)



Milli Şura Azərbaycan hökumətinin təşkilini bitərəf Fətəli xan Xoyskiyə tapşırdı. İlk hökuməti "Müsavat", Müsəlman Sosialist Bloku, "Hümmət", "İttihad" və bitəriflərdən ibarət 9 nazir təmsil edirdi. Bu dövrdə Azərbaycan Milli Şurasının və hökumətin Gəncəyə köçməsi ilə əlaqədar iyunun 17-də Gəncədə Fətəli xanın rəhbərlik etdiyi II hökumət təşkil olundu. İyunun 19-da isə Azərbaycanda yaranmış gərgin vəziyyət nəzərə alınaraq, bütün ölkə ərazisində hərbi vəziyyət elan edildi. İyunun 26-da Azərbaycan Milli Ordusunun yaradılması haqqında fərman verildi. Daha sonra isə Osmanlı dövlətinin 5-ci piyada diviziyası və general Ə.Şıxlinskinin başçılıq etdiyi müsəlman milli korpusu əsasında Qafqaz-İslam Ordusu yaradıldı. Nuru paşanın rəhbərlik etdiyi bu orduya osmanlı və azərbaycanlılardan ibarət 18 min əsgər və zabit daxil idi. Nəhayət, sentyabrın 15-də Qafqaz-İslam Ordusu Bakını azad etdi və Azərbaycan hökuməti öz hakimiyyətini bütün ölkəyə yaya bildi,

Cümhuriyyət gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında ən parlaq dövrlərdən biri kimi qalacaqdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır.

AXC tərəfindən dövlətin iqtisadi müstəqilliyinin təmin edilməsi üçün gömrük xidmətinin mühüm əhəmiyyəti nəzərə alınaraq bu sahədə də bir sıra qanunlar işlənib hazırlanmışdır. AXC məhsuldar işlədiyi dövrdə müstəqil respublikanın ədliyyə, məhkəmə, polis və prokurorluq orqanlarının yaradılmasına da xüsusi diqqət yetirmişdir. Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur. Nazirlər Şurasının qərarı ilə 1918-ci il oktyabrın 1-də Bakı Dairə Məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti formalaşmışdır. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 14 noyabr 1918-ci il tarixli qərarı ilə "Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə" təsdiq edilmişdir. Burada Azərbaycan Məhkəmə Palatası yanında prokuror və onun müavinləri vəzifələri təsis edilmişdir.

Mürəkkəb beynəlxalq şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, xalqımızın milli oyanışını əbədi etməyə çalışan Cümhuriyyət hökuməti və parlamenti elmin, təhsilin və xalq maarifinin, eləcə də səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Ölkənin hər yerində müxtəlif məktəblər, gimnaziyalar, qız məktəbləri, kitabxanalar və xəstəxanaların... açılması o dövrdə sosial-iqtisadi yönümlü islahatların həyata keçirilməsi istiqamətində atılan mühüm addımlar idi. Bu baxımdan Azərbaycan Parlamentinin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanun Cümhuriyyət xadimlərinin xalq qarşısında çox mühüm tarixi xidməti idi. Ölkədə elm və təhsilin inkişafına xüsusi diqqət yetirən AXC hökuməti və parlamenti bu sahədə milli kadrlar hazırlanmasının sürətləndirilməsinə xüsusi səy göstərirdi. Bu zaman hökumətin təklifinə əsasən Azərbaycan Parlamentinin 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qanun qəbul etməsi, heç şübhəsiz, elm və təhsilə göstərilən böyük diqqət idi.

Ümumiyyətlə, Cümhuriyyət dövründə Azərbaycanda parlamentçilik ənənələri getdikcə möhkəmlənir və inkişaf edir, ən müasir parlament mədəniyyəti formalaşırdı. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə, ümumilikdə, 155 parlament iclası keçirilmişdir ki, bunun da 10-u Azərbaycan Milli Şurasının (27 may -19 noyabr 1918-ci il), 145-i isə Azərbaycan Parlamentinin fəaliyyət göstərdiyi dövrdə (7 dekabr 1918-ci il - 27 aprel 1920-ci il) olmuşdur. Azərbaycan Parlamentinin və Cümhuriyyət hökumətinin fəaliyyətinin çox mühüm hissəsini daim özünə cəlb edən məsələlərdən biri də yaxın qonşularla münasibətlər və sərhəd məsələləri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Fövqəladə Təhqiqat Komissiyası yaradılmış və ermənilərin törətdikləri cinayətlər araşdırılmağa başlanmışdır. Hökumətin qərarı ilə hər il (1919 və 1920-ci il martın 31-i iki dəfə Ümummilli Matəm Günü kimi qeyd edilmişdir) mart ayının 31-nin hüzn günü kimi qeyd edilməsi qərara alınmışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işi başa çatdırmağa imkan vermədi.

Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən regionda mövcud olan geosiyasi vəziyyət 1918-ci il mayın 29-da İrəvan şəhərinin ermənilərə siyasi mərkəz kimi verilməsinə səbəb oldu. Beləliklə, 1918-ci ildə Azərbaycan torpaqlarında – keçmiş İrəvan xanlığının ərazisində Ermənistan Respublikası yaradıldı. 1918-ci ildə Azərbaycan və Ermənistan respublikaları yaranan kimi Qarabağın dağlıq hissəsinə XIX əsrdə köçürülmüş ermənilər Azərbaycan Respublikasının hakimiyyətini tanımaqdan imtina etdilər. Qarabağ ermənilərinin 1918-ci ilin iyulunda keçirilən birinci qurultayı Dağlıq Qarabağı müstəqil elan etdi. Ermənistan (Ararat) Respublikasının tərkibinə daxil olmaq məsələsi hələ qaldırılmamışdı. Lakin ermənilərin ən böyük iddiası Qarabağı və Zəngəzuru ələ keçirmək idi. Ermənistan hökuməti işğal planlarını həyata keçirmək məqsədilə oraya silahlı qüvvələr göndərdi. Nəticədə Qarabağ torpaqlarını ələ keçirməyə can atan erməni silahlı qüvvələri yüzlərlə yaşayış məntəqəsini dağıtmış, minlərlə dinc azərbaycanlı əhalini qəddarcasına məhv etmişdilər. 1919-cu ilin yanvarında daşnak Ermənistan hökuməti Qarabağla əlaqədar Azərbaycana qarşı ərazi iddiası irəli sürdü. Bununla da, Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi üçün ilk rəsmi cəhd edildi. Problemi dinc vasitələrlə həll etmək üçün Azərbaycan hökuməti dəfələrlə təkliflərlə çıxış etsə də, daşnakların tutduğu mövqe bu təkliflərin həyata keçməsinə mane oldu. Ərazi bütövlüyünü qoruyub saxlamağı və öz vətəndaşlarının təhlükəsizliyin təminatını özünün başlıca vəzifəsi hesab edən Azərbaycan Xalq Cümhuriyyəti Ermənistan Respublikasının ərazi iddialarını qəti şəkildə rədd etdi. Azərbaycan Parlamenti Qarabağ məsələsini müzakirə edərək separatçılıq hərəkatının qarşısını almaq üçün əməli tədbirlər həyata keçirməyə başladı. Bu məqsədlə Azərbaycan hökuməti 1919-cu il yanvarın 15-də Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur qəzalarını Gəncə quberniyasından ayırıb, mərkəzi Şuşa şəhəri olmaqla həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğunu yaratdı və Xosrov bəy Sultanov general-qubernator təyin edildi. Azərbaycan hökuməti ona tapşırdı ki, orada qayda-qanun yaratsın və yerli hakimiyyət təşkil etsin.

AXC 23 aylıq fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi tarixində, xüsusən də parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoymuşdur. Siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın demokratik respublikalarından daha irəli getmişdi.

Tarix təkcə yarandığı günlərdə yox, sonrakı fəaliyyəti dövründə də Cümhuriyyəti ağır beynəlxalq sınaqlarla üz-üzə qoydu. Yenə qurucu babaların diplomatik fəhmi köməyə çatdı. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin təbii və demək olar ki, yeganə müttəfiqi olan Osmanlı dövləti 1918-ci ilin sonlarında başa çatan I Dünya müharibəsində, təəssüf ki, məğlub tərəfdə yer aldı. Bununla da imzalanan Mudros müqaviləsinə əsasən bütün digər bölgələrdən olduğu kimi, Osmanlı dövləti Cənubi Qafqazdan da çıxdı. Yerinə qalib dövlətlərdən gələnlər isə Xalq Cümhuriyyətini tanımaq istəmədilər. Bu mərhələdə Fətəli xan Xoyski başda olmaqla, Cümhuriyyət qurucularının müstəsna səyləri və diplomatik xidmətləri nəticəsində konsensus əldə edildi və dövlətin mövcudluğunu qorumaq mümkün oldu. Mövcud olduğu 23 ay ərzində Cümhuriyyət məhz güclü və uğurlu diplomatiyası sayəsində ayaqda qala bildi. Zamanla bir çox dövlətlə münasibətlər quran Azərbaycan həm xaricdə səfirliklər açdı, həm də xarici ölkələr Bakıda diplomatik nümayəndəliklər təsis etdilər.

Paris Sülh Konfransında – dünyanın taleyinin həll olunduğu mühüm tarixi tədbirdə təmsil olunmaq haqqı qazanan Azərbaycanın çətinliklərlə də olsa, nümayəndə heyətinin Fransaya gedib çatması, orada böyük siyasi və diplomatik fəaliyyəti də Xalq Cümhuriyyətinin xarici siyasətinin aktivinə yazılmalıdır. Təsadüfi deyil ki, məhz bu siyasətin nəticəsində 1920-ci ilin yanvar ayının 11-də Paris Sülh Konfransında müttəfiq dövlətlər birliyi tərəfindən Azərbaycanın müstəqilliyi tanındı. Fransada, İranda, Dağıstanda, Gürcüstanda və başqa ölkələrdə respublikanın siyasi nümayəndəliyi artıq fəaliyyət göstərirdi. Azərbaycan həqiqətləri ingilis, fransız, rus, alman və sair dillərə çevrilərək çap olunub yayılırdı.

Xalq Cümhuriyyətinin sülhsevər xarici siyasətinə baxmayaraq, onu münaqişələrə çəkmək istəyənlər də vardı. Məhz Rusiya Xarici İşlər komissarı Çiçerinin 1920-ci il yanvarın əvvəllərində Fətəli xana göndərdiyi teleqramda belə bir məqsəd güdülürdü. O, Azərbaycanı – ağqvardiyaçı general Denikinlə müharibəyə çağırırdı. Azərbaycan hökuməti isə sülh danışıqlarının aparılması üçün səy göstərirdi. Buna baxmayaraq, Rusiya işğalçı XI ordunu göndərərək 28 aprel 1920-ci ildə Azərbaycanı işğal etdi. Milli dövlətin yaradıcıları ölkəni tərk etmək məcburiyyətində qaldılar.

Azərbaycan 70 il imperiya əsarətində qaldı. Lakin Azərbaycan xalqının milli ruhu qırılmadı. Siyasi münbit şərait yaranan kimi 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyi bərpa olundu. Əsrin əvvəllərində olduğu kimi, sonunda da müstəqil Azərbaycanın başı üstünü yenidən qara buludlar aldı. Vilsonun, Tomsonun həyata keçirə bilmədiyi və gözündə qalmış arzularını onların nəvə və nəticələri həyata keçirməyə cəhd etdilər. Məqsəd Azərbaycanda vətəndaş müharibəsi törədib bu ölkəni parçalamaq idi. Bu gərgin tarixi məqamda xalqın istəyi və tələbi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev xalqın xilaskarlıq missiyasını öz üzərinə götürdü.

Ulu öndərin söylədiyi kimi, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən çətindir. Heydər Əliyevin güclü siyasi iradəsi, əzmi sayəsində, eyni zamanda, dövlət müstəqilliyinin möhkəmləndirilməsi və dönməzliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi ardıcıl siyasi kurs nəticəsində xalqımız müstəqilliyini bir dəfəlik möhkəmləndirə bildi.

İndi Cənubi Qafqazın lider dövləti olan Azərbaycan beynəlxalq aləmin vacib aktorlarından biridir. Lakin həyat ulu öndərə vəfasızlıq etdi: o, dünyasını bir nisgillə başa vurdu – Qarabağ problemi həll olunmadı. Amma onun "Mənim yarımçıq qalmış işlərimi İlham Əliyev tamamlayacaq" inamı xalq etimadı ilə özünü doğrultdu. Belə ki, 30 il ərzində düşmənin işğal altında saxladığı Qarabağ əsarətdən müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xilas edildi. 34 ilə yaxındır ki, respublikamız yaşayır, yaradır və dünyanın ən nüfuzlu təşkilatlarının üzvüdür. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur."Artıq beş ildir ki, Müstəqillik Gününü qalib ölkənin vətəndaşları kimi qeyd edirik. Bundan böyük səadət, xoşbəxtlik ola bilməz.

Ali Baş Komandanımızın uzaqgörən və cəsarətli siyasəti, şəhidlərimizin qanı hesabına suverenliyini bərpa etdiyimiz Azərbaycan daim yaşayacaq, inkişaf edəcək!

Müstəqillik Günümüz mübarək!

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclisin deputatı, professor***

# Xəyalları gerçəyə çevirən körpü

(əvvəli 1-ci səhifədə)



Türk dünyası üçün strateji əhəmiyyət kəsb edən, Şərqlə Qərbin qovşağında, Böyük İpək Yolunun üzərində yerləşən Naxçıvan uzun müddət düşmənlərin əhatəsində olub. Ötən əsrin sonlarında ölkəmiz müstəqilliyini bərpa etdiyi dönəmdə ermənilər məqsədli şəkildə Naxçıvanı blokadaya saldılar. Kənardan hay daşnak-lobbistlərin dəstəklədiyi yerli separatçılar Azərbaycanın bu qədim və əzəli torpağını ələ keçirmək üçün məkrli planlar qurmağa başladılar. Belə bir çətin dövrdə Heydər Əliyevin Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublikanı real təhlükədən qurtardı. Naxçıvanın təhlükəsizliyi və əhalinin sosial təminatı ilə bağlı problemlərin həllində dost və qardaş Türkiyənin yaxından dəstəyi böyük əhəmiyyətə malik idi.

**ARAYIŞ:** 1992-ci ilin martında Türkiyə tərəfindən Naxçıvana maliyyə, iqtisadi və texniki yardımın göstərilməsi, 100 milyon ABŞ dolları məbləğində kreditin ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasına imkan yaradılması haqqında birgə əməkdaşlıq protokolu imzalandı. Heydər Əliyevin 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfəri çərçivəsində, həmçinin Naxçıvanla Türkiyə arasında gediş-gəlişi təmin etmək məqsədilə Sədərək–Dilucu körpüsünün inşasına qərar verildi.

*

1992-ci il mayın 28-də xüsusilə əlamətdar məqama çevrilən Respublika Günündə ümummilli lider Heydər Əliyevin "xalqımızın ümid və arzular körpüsü adlandırdığı" Naxçıvanla Türkiyəni birləşdirən Ümid körpüsünün Araz çayı üzərindən açılışı oldu. Həmin dövr Azərbaycan üçün, xüsusən də Birinci Qarabağ müharibəsində blokadaya alınmış Naxçıvan üçün çox çətin dövr idi. Amma Heydər Əliyev o ağır məqamda özünün siyasi qrossmeyster gedişləri ilə həm muxtar respublikanı real fəlakətdən qurtardı, həm də Azərbaycan–Türkiyə qardaşlığının yeni tarixinin təməlini atdı.

Həmin körpünün istifadəyə verilməsi ilə Naxçıvanda blokadanın ağır fəsadlarının tədricən aradan qaldırılmasına, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına, Qərbə inteqrasiyasına start verildi. Eyni zamanda, bu, Türkiyənin şərq vilayətlərinin inkişafına təkan verdi, nəqliyyat əlaqələrinin inkişafı və beynəlxalq daşımalar üçün yeni istiqamət müəyyənləşdirdi. 1999-cu ildə Azərbaycan Prezidenti kimi, Naxçıvana səfərində Heydər Əliyev Ümid körpüsünün zəruriliyini xatırlayaraq demişdi: "Belə bir körpü tikmək bir azərbaycanlı kimi şəxsən mənim on illər boyu qəlbimdə qalan arzum idi. İndi özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüskarı oldum. Biz dostumuz Süleyman Dəmirəl və Türkiyə hökumətinin himayəsi, köməyi ilə bunu etdik. Naxçıvan Türkiyəyə açıldı".

İndi iki hadisə arasında tarixi paralelliyi diqqətinizə çatdıracağıq. 33 il əvvəlki birinci hadisədən bəhs elədik. Onun tarixi və məntiqi davamı sayıla biləcək ikinci hadisə üç ay bundan əvvəl baş verdi. Azərbaycan Prezidenti İlham Əliyevin bu il martın 5-də İğdır–Naxçıvan qaz kəmərinin açılış mərasimində etdiyi çıxışında o vaxt Naxçıvanın işğal olunmamasının səbəbləri sırasında qardaş Türkiyənin yardımlarını, Ümid körpüsünün istifadəyə verilməsini xüsusi qeyd etməsi təsadüfi deyildi. Dövlət başçımızın dediyi sözlər onun bu mövzuya böyük əhəmiyyət verməsinin təsdiqi kimi qəbul olunmalıdır: "Bu gün Türkiyəni Azərbaycanla birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu çox gözəl üstünlüklər təmin edir".

Həm ölkələrimiz və xalqlarımız, həm də liderlərimiz arasında sarsılmaz dostluğun tarixi mənzərəsi göz qabağındadır. Bunu İlham Əliyev çıxışında diplomat dəqiqliyi ilə vurğuladı: "Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyası üçün örnəkdir. Türk dünyasının birləşməsi yolunda əziz qardaşım, hörmətli Cümhurbaşqanının çox böyük rolu var. Onun liderliyi ilə həm Türkiyədə böyük uğurlar əldə edildi, həm də Türk dünyasının daha sıx birləşməsi üçün yeni imkanlar yarandı".

Bəli, həm dövlət rəhbərləri, həm də xalqlar üçün münasibətlərin qardaşlıq xarakteri səmimi olduğu qədər də vacibdir. Dünən və bu gün baş verənlərin və gələcəkdə olacaqların təməlində bizim qardaşlığımız dayanır. Bu məqamlar Türkiyə və Azərbaycanın ortaq tarixi üçün çox önəmlidir.

*

Prezident İlham Əliyev çıxışında keçmişə boylanaraq, 1920-ci ildə Sovet hakimiyyətinin Qərbi Zəngəzurun Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilməsini, Azərbaycanın tərkib hissəsi olan Naxçıvanla quru əlaqəsini kəsməyə xidmət edən qərarını yada salması, Birinci Qarabağ müharibəsində Naxçıvanın işğal təhlükəsi ilə üzləşdiyi barədə dedikləri xüsusi məna yükü daşıyırdı. Onun "Türkiyə–Azərbaycan dostluq və qardaşlıq tarixində mühüm gün" kimi xarakterizə etdiyi İğdır–Naxçıvan qaz kəmərinin açılışı ötən əsrin 90-cı illərinin əvvəllərində başlamış iki dövlət və bir millət arasında qardaşlıq münasibətlərinin ən güclü bağı kimi qiymətləndirilməlidir. 33 ilin bütün sınaqlarından üzüağ çıxmış bu bağların sarsılmayacağına kimsə şübhə etməsin.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Bir millət, iki dövlət" sözləri ilə başladığı çıxışında Azərbaycan–Türkiyə qardaşlıq münasibətlərində hər sahədə böyük irəliləyişlərin əldə edildiyinə diqqəti çəkdi: "Ölkələrimiz arasındakı münasibətlər müdafiədən ticarətə qədər çox geniş sahədə daim inkişaf edir. Şübhəsiz ki, bunların arasında bir çox layihə ilə taclandırdığımız enerji sektoru başda yer alır. Bəzilərinin xəyal hesab etdiyi Bakı–Tbilisi–Ceyhan xam neft boru kəməri kimi, "Şahdəniz" yatağının və Bakı–Tbilisi–Ərzurum təbii qaz boru kəmərinin istismara verilməsi ilə enerji əməkdaşlığımızı daha da irəliyə aparmağa nail olduq. Anadoludan keçən təbii qaz boru kəməri – TANAP vasitəsilə böyük miqdarda Azərbaycan qazının Avropaya çatdırılmasının sevincini yaşayırıq. Bu sahədə strateji və qeyri-adi layihələri həyata keçirməkdə Can Azərbaycan ilə tam uzlaşma içərisindəyik".

Bütün dünya şahidlik elədi ki, Türkiyə lideri bu mövqeyini 2020-ci ildə Vətən müharibəsi günlərində sözü və iradəsi ilə təsdiqlədi. Dünya 2023-cü ildə Türkiyənin Qəhrəmanmaraşında baş vermiş dəhşətli zəlzələ zamanı eyni mənzərəni gördü. O zaman Azərbaycan qardaş ağrısına ilk reaksiya verənlərdən oldu. Xilasedicilərimizin səyi nəticəsində 50-dən çox insan dağıntılar altından sağ çıxarıldı. Həkimlərimiz 3 mindən çox insana tibbi yardım göstərdilər. Azərbaycandan qardaş Türkiyəyə 5500 tona yaxın humanitar yardım göndərildi. Artıq yaralarını sağaltmış Qəhrəmanmaraşda "Azərbaycan" məhəlləsi salınıb, Heydər Əliyevin adını daşıyan məktəb fəaliyyət göstərir.

*

Türkiyə liderinin Azərbaycan Prezidentinin səsləndirdiyi fikirlərlə vəhdət təşkil edən açıqlamaları qloballaşan dünyamızda dünənki müttəfiqlərin barışmaz rəqibə çevrildiyi, ən güclü blokların sarsılmağa başladığı məqamda Türkiyə–Azərbaycan qardaşlığının daha sarsılmaz olduğu və inkişaf etdiyi qənaətini təsdiqləyir. Bu tandem bütün Türk dünyası üçün xüsusi əhəmiyyət kəsb edir, öz miqyası ilə xalqlarımızı birləşdirən mənəvi, tarixi və mədəni ailəni möhkəmləndirir.

Çıxışında Azərbaycanın hər zaman Türk dünyasının birləşməsinə çox böyük önəm verdiyini qeyd edən İlham Əliyev bu birliyi əbədi etmək və ortaq maraqlar və ortaq tarix üzərində qurmaq üçün səylərini əsirgəmədiyini nəzərə çatdırdı: "Bugünkü mərasim bir daha Türkiyə–Azərbaycan birliyini, dostluğunu, qardaşlığını göstərir, onun əyani təzahürüdür".

Azərbaycan–Türkiyə qardaşlıq və əməkdaşlığının sarsılmazlığından danışan Prezident Ərdoğan iki qardaş ölkənin daim sülhün, sabitliyin və rifahın tərəfində olduğunu önə çəkdi: "Bölgəmizdə ancaq sülh istəyirik, əməkdaşlıq istəyirik, hamımızın birlikdə inkişaf etməsini istəyirik. Bu məqsədlə indiyədək bir sıra addımlar atdıq, səmimiyyətimizi göstərdik. İnşallah, bundan sonra da sülh, rifah və əmin-amanlıqla bağlı layihələri birlikdə həyata keçirməkdə qərarlıyıq".

Sonda onu qeyd edək ki, ortaq tariximizin meyarları sayılan dahi şəxsiyyətlərin müəyyənləşdirdiyi yol xəritəsi 30 il düşmən əsarətində inləyən Qarabağın işğaldan qurtuluşuna apardığı kimi, bundan sonra Türk dünyasını daha böyük hədəflərə çatdıracağına əminik. Bizi həmin hədəflərə yetirəcək sağlam təməlli körpülərimiz kifayət qədərdir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycanın dövlət müstəqilliyi: Heydər Əliyev formulu

**Azərbaycan müstəqilliklə bağlı iki tarixi qeyd edən azsaylı postsovet ölkələrindən biridir: 28 May – Müstəqillik Günü (keçmiş Respublika Günü) və 18 oktyabr – Müstəqilliyin Bərpası Günü. Bu bayramlar ölkəmizin keçdiyi tarixi yolu əks etdirməklə yanaşı, həm də dövlətimizin siyasi legitimliyinin, xalqımızın milli kimliyinin ərsəyə gəlməsində mühüm rol oynayır.**



1917-ci ildə Rusiya imperiyası dağılandan bir müddət sonra, 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Xalq Cümhuriyyəti (ADR) elan edildi. Bu müsəlman dünyasında ilk dünyəvi parlamentli respublika idi. ADR mövcud olduğu 2 ildən az müddətdə dövlət quruluşunun əsaslarını və qanunverici orqan olan parlamenti yaratmağa, eyni zamanda, bütün vətəndaşlara, o cümlədən qadınlara bərabər hüquqlar tanımağa nail oldu. Lakin 1920-ci ilin aprelində "Qırmızı ordu" hissələri Azərbaycan sərhədlərini keçdilər və aprelin 28-də Bakıya daxil oldular. Həmin gün ADR ərazisində Azərbaycan Sovet Sosialist Respublikasının (Azərbaycan SSR) yaradıldığı elan edildi.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay mövcud olmasına baxmayaraq, milli dövlətçilik tarixində mühüm iz qoydu. Sonrakı illər, onilliklər isə ölkə həyatında Azərbaycan xalqının parlaq hadisələri və böyük nailiyyətləri ilə yaddaqalan əlamətdar mərhələləri təşkil edir. Məhz bütün bunlar birlikdə bugünkü müstəqil Azərbaycanın iqtisadi, intellektual və mədəni potensialını yaradıb. Amma bu potensial istər sovet dönəmində, istərsə də 1991-ci ildə müstəqillik aktı elan edildikdən sonrakı mərhələdə bir tarixi şəxsiyyətin müstəsna xidmətləri sayəsində özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu, tarixi şəxsiyyət, təbii ki, ulu öndər Heydər Əliyev idi və bu gün Azərbaycan Respublikasının müstəqilliyindən söz düşəndə ilk yada düşən də məhz bu fenomen siyasətçi olur.



Kim olursan ol, hansı dövləti idarə edirsən et, ağıl idarəçiliyin mühüm amili olaraq qalır. Siyasət də, iqtisadiyyat da, sosial strategiya da ağıl olmadan uğur qazanmayacaq. Bu mənada Heydər Əliyevdən əvvəl və ondan sonra, istər sosialist Azərbaycanının, istərsə də müstəqil Azərbaycanın idarəçiliyində bu amilin necə müstəsna rol oynadığına yetərincə dəlillər və arqumentlər göstərmək mümkündür.

Tarixçilər, hətta onun bədxahlarından olanlar belə təsdiq edirlər ki, Heydər Əliyev Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin rəhbərliyində çalışdığı vaxtlardan bu qurumu milliləşdirməklə ölkəsinin illər sonra qazanacağı müstəqilliyə töhfələr verməyə başlamışdır. 1969-1982-ci illərdə Respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəsifəsində çalışdığı illərdə isə ölkəsinin sənaye potensial, milli hərbçi mütəxəssislər hazırlığından başlayaraq ən müxtəlif sahələr üçün kadr potensialını hazırlamaqla Azərbaycanı davamlı olaraq müstəqillik arzusunun reallaşdırılmasına doğru aparmışdır.

Həmin dövrə ötəri nəzər saldıqda belə heyrət etməmək mümkün deyil. Heydər Əliyev Azərbaycana ilk rəhbərliyi dövründə nəhəng neftayırma kompleksinin, müasir səviyyəli neft donanmasının yaradılmasını, keçmiş SSRİ-də analoqu olmayan Bakı Dərin Özüllər zavodunun tikintisini həyata keçirdi. Məhz onun şəxsi təşəbbüsü və səyləri ilə Bakı Elektrik Maşınqayırma, Məişət Soyuducuları zavodu, Radiozavod, Elektron Hesablayıcı maşınları zavodu, Sumqayıt Kompressorlar zavodu, Gəncə Büllur zavodu, "Azon", "Alunit" zavodları və digər sənaye obyektləri inşa edilmişdir. Azərbaycanda elektrik enerjisi istehsalı 1,5 dəfə artmışdı. Elmi-tədqiqat institutlarında və ali məktəblərdə 265 elmlər doktoru, 3141 elmlər namizədi hazırlandı, SSRİ-nin nüfuzlu ali təhsil məktəblərinə ildə 1400 nəfər, hərbi məktəblərə isə 1000-ə qədər gənc göndərilirdi. Saydıqlarım Heydər Əliyevin gördüyü işlərin kiçik bir qismidir.

Tarix göstərdi ki, onun müstəqillik üçün uzaq illərə hesablanan ən müstəsna xidmətlərindən biri Bakıda Cəmşid Naçıvanski adına Hərbi Məktəbin açılmasına nail olması idi. Heydər Əliyev dəfələrlə çıxışlarında bunu vurğulayırdı ki, bu məktəbin açılmasına necə ciddi maneələr yaradılırdı, ermənilər necə bunun qarşısını almağa çalışırdılar. Amma Heydər Əliyevin qətiyyəti qalib gəldi və hərbi məktəb fəaliyyətə başladı. Artıq müstəqillik illərində bizə aydın oldu ki, dahi şəxsiyyət 50 il sonrakı hadisələrin axarını görürmüş.

Beləliklə, SSRİ-nin süqutundan sonra 1991-ci il oktyabrın 18-də Azərbaycan SSR Ali Soveti dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul edərək bununla da suveren dövlət statusunu bərpa etdi. Amma bu, hələ ölkənin və millətin arzusunda olduğu əbədi müstəqillik yolunda kövrək bir addım idi. Çünki Azərbaycanın müstəqilliyə yolu 1988-ci ildə başlamışdı. Qırmızı imperiyanın taxtı löngər vurmağa başlayanda və SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçovun, siyasi karyerasına həmişə həsədlə baxdığı və hakimiyyətdə özünə ən güclü rəqib hesab etdiyi Böyük Azərbaycanlı Heydər Əliyevi məcburən istefaya göndərəndən sonra Azərbaycanın ərazi bütölüyü və suverenliyi qonşu Ermənistan tərəfindən hədəfə alınmışdı. Ermənistanın bu istiqamətdə istənilən cəhdləri və addımları Mixail Qorbaçov başda olmaqla, dünyanın bir çox hegemon dövlətləri tərəfindən bütün vasitələrlə dəstəklənirdi…

Bu səbəbdən də 1993-cü ilə qədər müstəqilliyini yenicə elan etmiş Azərbaycan siyasi və hərbi süqut vəziyyətində idi. Qarabağ müharibəsi, respublikada silsilə çevrilişlər, sosial əlaqələrin pozulması və iqtisadi problemlər nəinki ölkənin müstəqilliyini, onun varlığını belə təhlükə altına alırdı. Təbii ki, bütün bunları yalnız Ermənistanın Azərbaycana təcavüzü ilə bağlamaq doğru olmazdı. Əlbəttə, bu gerçək bir fakt idi, amma daha ciddi problemlər ölkənin daxilində alovlanan hakimiyyət davası, maddi resurslara sahib olmaq uğrunda çəkişmələr və dövlət idarəçiliyinin başında naşı insanların olması idi.

Tarix dönə-dönə nümayiş etdirir ki, dövlət idarəçiliyi son dərəcə mürəkkəb sistemdə münasibətlərin tənzimlənməsi prosesidir. Bu, müxtəlif dərəcədə bütün xalqın, eyni zamanda, dövlətin maraq və ehtiyaclarını nəzərə alan qərarların qəbul edilməsinə aiddir. Bundan əlavə, verilən qərarların həyata keçirilməsinin nəticələrini qabaqcadan görə bilmək və onlara reaksiyanı proqnozlaşdırmaq vacibdir.

Müstəqillik dövrünün ilk illəri göstərdi ki, nə Ayaz Mütəllimov, nə AXC–"Müsavat" hakimiyyətinin rəhbərləri bütün bu tələblərə ağlı, siyasi düşüncəsi və iqtidarı çatan adamlar deyillər və bu səbəbdən ölkə xaos və anarxiyaya, vətəndaş müharibəsinə sürüklənirdi. Azərbaycanın əsrlərlə arzusunda olduğu müstəqilliyin belə təhlükədə olduğu bir dövrdə xalq üzünü Naxçıvana tutub Heydər Əliyevə səsləndi və öz liderini Bakıya hakimiyyətə dəvət etdi.

Beləliklə, böyük dövlət idarəçiliyi təcrübəsinə sahib olan dərin zəka sahibi ümummilli lider Heydər Əliyev təcrübə və sərt qanunçuluğun dövlətin yaşaması üçün əsas şərtlərə çevrildiyi bir vaxtda – 1993-cü ildə xalqın təkidi ilə yenidən böyük siyasətə qayıtdı.

Dövləti idarə etmək sənəti istəkləri və imkanları tarazlaşdırmaq bacarığıdır. Heydər Əliyev bunu ən parlaq şəkildə bacardığını dövlətçilik fəaliyyətinin bütün mərhələlərində göstərmişdi və bu fenomenal dövlət idarəçiliyi təcrübəsi indi Azərbaycanı əbədi müstəqilliyə aparmaq üçün son dərəcə vacib idi.

Aydın məsələdir ki, hər bir ölkənin müəyyən resursları var və Azərbaycanın 1993-cü ildəki iqtisadi, siyasi və hərbi resurslarını dəqiq hesablayan Heydər Əliyev aydın görürdü ki, ölkənin siyasi vəziyyətinin sabitləşdirilməsi, iqtisadiyyatın tənəzzüldən xilası və modernləşdirilməsi, milli dövlətçilik quruculuğu çevik vertikal icra hakimiyyətinin olmasını, Prezidentin rolunun daha da gücləndirilməsini tələb edir. Bunları reallaşdırmaq üçün, ilk növbədə qüvvələr nisbətinin Azərbaycanın xeyrinə olmadığı müharibəni dayandırmaq lazım idi. 1994-cü il mayın 11-də Beşkekdə atəşkəs haqqında saziş imzalandı və bundan sonra bütün sahələrdə zaman Azərbaycan Respublikasının xeyrinə işləməyə başladı.

Siyasət sənətinin mahir ustadı olan Heydər Əliyev bütün amillərdən ölkəsinin xeyrinə necə istifadə etməyi Qırmızı imperiyanın qılıncının hər iki üzünün kəsdiyi vaxtlarda belə yaxşı bacarmışdı. Amma indi o, müstəqil Azərbaycanın dövlət başçısı idi və zahirən parlaq ideyaları deyil, tarixi sınaqdan çıxmış, uyğun hesab etdiyi və uğuruna əmin olduğu layihələri öz ölkəsinə tətbiq etməyi inkişaf və tərəqqinin ən doğru yolu hesab edirdi. Başa düşürdü ki, real vəziyyətə təsir etməsə, axınla getmiş olsa, dövlətin qurtuluşu mümkün olmayacaq. Heydər Əliyev dövlət idarəçiliyi ustası kimi həmişə faktları toplamaq, onları təhlil etmək və faydalı olanı tətbiq etmək xəttinə üstünlük verirdi.

Bu məntiqə söykənərək Heydər Əliyev ölkədə rəqabət aparan güc mərkəzlərini aradan qaldıraraq şaquli güc strukturu qurdu, hakimiyyəti birləşdirdi və 1990-cı illərin əvvəllərindəki parlament modelindən güclü icra hakimiyyətinə malik prezident respublikasına keçdi.

Bununla paralel olaraq 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. Bütün qonşularından fərqli olaraq, Heydər Əliyev hakimiyyətə qayıdandan dərhal sonra Azərbaycanda hüquqi sistemin modernləşdirilməsinə başladı və bununla da demokratik azadlıqların daha da genişləndirilməsi üçün etibarlı bünövrə yaratdı.

ABŞ-ın Klivlend Universitetinin beynəlxalq hüquq professoru Milena Sterion strateji araşdırmalarının birində yazır: "Ərazinin müstəqillik qazanması və dövlətə çevrilməsi qüdrətli dövlətlərin belə bir istəyi dəstəkləmədiyi bir şəraitdə demək olar ki, mümkün deyil". Heydər Əliyev ölkəsinin müstəqilliyini daxili və xarici təhdidlərdən qorumaqla vəzifəsini bitmiş hesab etmədi, o həm də beynəlxalq aləmdəki siyasi nüfuzuna və dərin siyasi biliklərinə söykənərək böyük dövlətlərin yarada biləcəyi problemləri ən mükəmməl şəkildə aradan qaldıra bildi və Azərbaycan beynəlxalq aləmdə müstəqil dövlət kimi öz yerini tutmağa, dünya ölkələrinin etimadını qazanmağa nail oldu.

Bu yolda çox düşünülmüş ilk strateji addım 1994-cü ildə transmilli neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması oldu. Heydər Əliyev sovet dönəmindən bilirdi ki, Azərbaycanı dünyanın maraq obyektinə çevirən əsas amillərdən biri ölkənin karbohidrogen ehtiyatlarıdır. Bu baxımdan "Əsrin müqaviləsi dövlət müstəqilliyimizi təkcə siyasi deyil, həm də iqtisadi cəhətdən möhkəmləndirən son dərəcə vacib addım idi. Ümummilli lider həmin ərəfədə xarici mətbuata verdiyi müsahibələrin birində "Əsrin müqaviləsi"nin hansı çətin mərhələlərdən keçdiyini qısaca belə açıqlayır: "...Azərbaycanın milli maraqlarının mütəmadi nəzərə alınmadığı, təmin edilmədiyi vaxtlar var idi. Məhz ona görə mən Prezident Fərmanı imzalayaraq danışıqların ikinci mərhələsinə şəxsən nəzarət etməyi düşündüm... Biz bütün tərəflər üçün qarşılıqlı xeyirli olan bir müqavilə imzalamışıq. Nəhayət, bu son dərəcə vacib və tarixi əhəmiyyətə malik olan müqavilənin uğuru – Azərbaycanın milli maraqları ilə birbaşa bağlı olmasındadır..."

Ümummilli lider Heydər Əliyevin Azərbaycanın geoiqtisadi maraqlarından daha çox geosiyasi maraqlarına yönələn böyük strateji layihələrindən olan "Əsrin müqaviləsi" imzalandıqdan sonra ölkə həm siyasi, həm də iqtisadi baxımdan tam yeni bir inkişaf mərhələsinə qədəm qoydu və dövlət müstəqilliyinin əbədiləşdirilməsi yolunda mühüm bir amilə çevrildi. O dövrdə enerji siyasəti üzrə ekspertlərdən biri yazırdı ki, Heydər Əliyev enerji resurslarını strateji olaraq diplomatiya alətinə çevirdi. O, başa düşdü ki, mürəkkəb regionda kiçik dövlətin geoiqtisadi dəstəyə ehtiyacı var.

Böyük Britaniyanın keçmiş energetika naziri Tim Eqqarın ulu öndər Heydər Əliyevlə bağlı "Xatirə kitabına" yazdığı sözlər onun Azərbaycanın müstəqilliyindəki müstəsna rolunu belə göstərir: "Hər kəsə müstəqil dövlət qurmaq imkanı verilmir. Bunda da hər bir siyasətçi uğur qazana bilməz". Amma Heydər Əliyev ölkəsinin müstəqilliyinin memarı olaraq bu möhtəşəm və şərəfli vəzifəni uğurla həyata keçirdi.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi, sosial-iqtisadi və hərbi islahatlar onun "özü kimi inandığı" və artıq 22 ildir ölkəni çox böyük uğurla idarə edən Prezident İlham Əliyev tərəfindən bu gün də mükəmməl şəkildə davam etdirilməkdədir. Siyasi varisliyin yüksək sədaqətlə təmin edildiyini göstərən ən möhtəşəm göstərici isə 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın Tarixi Zəfər qazanması və ölkəmizin işğal olunmuş torpaqlarının azad edilməsi oldu. Bundan çox az bir müddət sonra 2023-cü il 19 sentyabr tarixli lokal antiterror tədbirləri nəticəsində Azərbaycanın əsasən Xankəndi ərazisində yuva salmış Ermənistan ordusunun tör-töküntüləri darmadağın edildi, separatçı - terrorçu dəstələr tərksilah və təslim edildi. 2023-cü il oktyabrın 15-də isə Ali Baş Komandan, Prezident İlham Əliyev Xankəndidə Azərbaycanın Dövlət Bayrağını ucaldaraq Zəfər tariximizə daha bir şanlı səhifə yazdı. Həmin gün qəhrəman Azərbaycan Ordusu qarşısında çıxışı zamanı Prezident iftixarla dedi: "Xatırlayıram, beş il bundan əvvəl - 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi".

Beləliklə, Prezident İlham Əliyev öz dərin siyasi intuisiyasına, qətiyyətinə və diplomatik cəsarətinə söykənərək uzun illər Azərbaycanın ərazi bütövlüyünü təhdid edən qondarma erməni qurumunu tarixin zibilliyinə atdı.

Artıq 5 ilə yaxındır ki, dövlət başçısının bilavasitə rəhbərliyi ilə hazırlanan Böyük Qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda şəhər və kəndlər yenidən tikilir, infrastruktur layihələri icra olunur, yollar inşa edilir, yeni istehsal müəssisələri yaradılır, yaşıllıqlar salınır, ərazilər mina və partlamamış hərbi sursatlardan təmizlənir, keçmiş məcburi köçkünlər mərhələli şəkildə yenidən doğma yurdlarında məskunlaşırlar. Bu gerçəkliklər, xalqın dövlətə, onun icra mexanizmlərinə, hüquq və azadlıqlara inamını möhkəmləndirmiş və öz lideri ətrafında birləşməyə, zamanın çağırışlarına hazır olmağa səfərbər etmişdir.

İstər Heydər Əliyev, istərsə də İlham Əliyev müstəqil Azərbaycanın siyasi-hüquqi və iqtisadi modelinin qurulmasında əsas diqqəti bazar münasibətlərinə əsaslanan və özü-özünü inkişaf etdirmək mexanizminə malik bazar iqtisadiyyatının formalaşdırılmasını təmin etməyə yönəltmişlər. Ancaq bu hansısa ölkənin getdiyi yolun kor-koranə tətbiqi olmamışdır. Azərbaycan özü öz sosial-iqtisadi strategiyasını müəyyənləşdirmiş, öz milli inkişaf modelini yaratmış, öz yolu, öz inkişaf xətti ilə müstəqillik yoluna davam etmişdir.

Azərbaycanın Müstəqillik Günü sadəcə yaddaqalan, hər il qeyd edilən tarix deyil, həm də tarixi yaddaşın, simvolik siyasətin və ideoloji möhkəmlənmənin mühüm göstəricisidir. Ölkə modernləşmə elementlərini demokratik idarəetmə ilə birləşdirərək öz yolu ilə getməkdə davam edir. Burada müstəqillik təkcə xarici təsirlərdən qurtulmaq deyil, həm də müstəqil şəkildə milli kurs formalaşdırmaqdır və bunu da bu gün Prezident İlham Əliyev çox böyük siyasi uzaqgörənliklə həyata keçirir.

Müstəqilliyin iki dövrü arasında ardıcıllıq və davamlılığı dəfələrlə vurğulayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 18 oktyabr 2021-ci ildə çıxışı zamanı bu tarixi gerçəyi çox mükəmməl şərh edərək demişdi: "Müasir Azərbaycan ADR-in layiqli davamçısıdır, lakin dövlətimiz daha çox nailiyyətlər əldə edib: biz ərazi bütövlüyümüzü bərpa etdik, ordumuzu gücləndirdik, dayanıqlı iqtisadiyyat yaratdıq".

Bugünkü postsovet Azərbaycanının əsas formulu onunla bağlıdır ki, sabitlik liberalizmdən daha vacibdir. Bu, əhalinin böyük hissəsinin hörmətini, bəzi müxalif qüvvələrin, hüquq müdafiəçilərinin tənqidini qazandı – lakin, bütövlükdə, məhz bu model Azərbaycana XXI əsrə ardıcıl və iqtisadi cəhətdən güclü dövlət kimi daxil olmağa imkan verdi. Məhz bu yol Azərbaycanı Ulu öndərin arzuladığı kimi, əbədi müstəqilliyə aparır. O müstəqilliyə ki, orada Heydər Əliyevin adı bu müstəqilliyin memarı kimi əbədi yaşayacaq.

***Məhərrəm SƏFƏRLİ,***
***Həsən bəy Zərdabi mükafatçısı,***
***Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü***

# Azərbaycan Xalq Cümhuriyyəti – milli tariximizin şanlı səhifəsi



**Bu gün XX əsrin əvvəllərində milli dövlətçilik tarixinin ən önəmli hadisəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 107-ci ili tamam olur. Azərbaycan xalqının müstəqillik arzularının həqiqətə çevrilməsinin ifadəsi olan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay mövcud olsa da, tarixdə elə bir təməl yaratdı ki, 70 il sonra bu milli-məfkurəvi özül itirilmiş dövlətçiliyimizin yenidən bərpa edilməsi üçün siyasi-hüquqi zəmin oldu. Müsəlman Şərqinin ilk demokratik cümhuriyyəti ürəklərdə elə bir məşəl alovlandırdı ki, on illər boyu totalitar kommunist rejimi bu məşəli söndürə bilmədi.**

Ulu öndər Heydər Əliyev deyirdi: “XX əsr sona çatır. Bu əsrdə xalqımız bir çox mərhələlərdən, sınaqlardan, imtahanlardan keçib və nəhayət, öz milli azadlığına, dövlət müstəqilliyinə nail olubdur. Bütün bu mərhələlərdə Azərbaycan xalqını yaşadan, irəliyə aparan, xalqımıza güc, ruh verən, Azərbaycan xalqının görkəmli şəxsiyyətləri, böyük alimləri və dahi insanları olmuşdular”.

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə ümummilli lider Heydər Əliyev qeyd etmişdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin iki illik fəaliyyətini təmin edənlərin hamısını, Məmməd Əmin Rəsulzadəni, Fətəli xan Xoyskini, Əlimərdan bəy Topçubaşovu, Nəsib bəy Usubbəyovu, Həsən bəy Ağayevi, Xalq Cümhuriyyətinin ilk Milli Şurasının bütün üzvlərini və digərlərini böyük minnətdarlıq hissi ilə yad edirik: Onlar, həqiqətən, vətəndaşlıq şücaəti, öz xalqı qarşısında böyük qəhrəmanlıq nümunələri göstəriblər. Azərbaycan Demokratik Respublikası ilk dəfə milli azadlıq, müstəqillik toxumlarını bütün Azərbaycana səpdi. Bu toxumlar uzun müddətdən sonra cücərdi, boy atdı və nəhayət 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini əldə etdi.

Rusiyada baş verən burjua-demokratik inqilabı (1917-ci il fevral) nəticəsində Çar imperiyasının süqutu onun müstəmləkə xalqlarına milli müstəqillik əldə etmək imkanı verdi. 1918-ci il fevralın 23-də yaranmış Zaqafqaziya Seymində Azərbaycanı təmsil edən deputatlar (Seymdə müsəlman partiyaları blokuna 44 deputat daxil idi), Azərbaycan Milli Şurasının üzvləri mayın 28-dən bir gün əvvəl yaratdıqları Azərbaycan Milli Şurası adından Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını elan etdilər. Bu bütün Şərq xalqlarının tarixində dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Avropanın şərqində yaranan ilk parlamentli demokratik respublika idi.

Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi “İstiqlal bəyannaməsi” yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Cəmi 23 ay fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən həyata keçirilən çox ciddi tədbirlər nəticəsində bütün dövlətçilik atributları – öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan müstəqil bir dövlətin yaradılması böyük tarixi nailiyyət və tarixi hadisə idi.

Həlli vacib olan çox mühüm vəzifələrdən biri milli özünüdərk şüurunun formalaşdırılması, milli-mənəvi dəyərlərin, milli müstəqil dövlətçiliyinin bərpası, bu müstəqilliyin qorunub saxlanması və möhkəmləndirilməsidir. Bu işdə xalqımızın çoxəsrlik tarixinin heç bir konyukturadan asılı olmadan obyektiv, hadisələri təhrif etmədən olduğu kimi qiymətləndirilməsi, yazılması çox böyük əhəmiyyətə malikdir. Ümummilli lider Heydər Əliyev bununla bağlı yazır: “Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tarixi təhrif də etmək olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da olmaz”.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinə qədərki dövrə – Azərbaycan, gürcü və ermənilərin Cənubi Qafqaz Komissarlığı və Cənubi Qafqaz Seymində göstərdikləri fəaliyyətə belə münasibət bildirmişdi: “O zaman hətta Zaqafqaziya ölkələrinin birlikdə dövlət müstəqilliyini elan etmək təklifləri də olmuşdur. Lakin Cənubi Qafqazdakı siyasi vəziyyət və aralarındakı ərazi mübahisələri Zaqafqaziya dövlətinin bir aydan artıq yaşamasına imkan verməmişdir”.

Həmin dövrün siyasi proseslərinin və hadisələrinin təhlilini verən Heydər Əliyev demişdi: “1918-ci il mayın 28-də xalqımızın qabaqcıl ziyalıları, Azərbaycanın gələcəyi haqqında düşünənlər Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında Tiflisdə qərar qəbul etmiş və bu qərarı “İstiqlal bəyannaməsi” adı altında elan etmişlər”.

Ümummilli lider Heydər Əliyev özünün “Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında” 2001-ci il yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına etdiyi müraciətdə XX əsrdə xalqımızın əldə etdiyi ən böyük nailiyyətlər sırasında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını da qeyd etmişdir: “Belə bir cümhuriyyəti yaratmaq üçün Azərbaycanın qabaqcıl insanları lazım idi. Bu gün biz məmnuniyyət hissi ilə qeyd edə bilərik ki, o zaman onlar artıq var idi, yetişmişdi”.

Azərbaycanda o dövrdə – XIX əsrin sonu və XX əsrin əvvəllərində böyük bir ziyalı dəstəsi meydana gəlmişdi. Onlar Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları idi. Onların əksəriyyəti Moskvada, Peterburqda, Avropanın bir çox şəhərlərində yüksək təhsil almış, Avropa mədəniyyəti, dünya mədəniyyəti ilə yaxından tanış olan və bunları mənimsəmiş insanlar idilər.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa edilməsi ilə bərabər millətimizin özünütəsdiq aktı idi. Çünki xalqın millət kimi formalaşmasının ən mühüm göstəricisi müstəqil milli dövlətin yaranmasıdır ki, 1918-ci il mayın 28-də Azərbaycan xalqı buna nail ola bilmişdi. Milli dövlətçilik məsələsi millətin tarixi ilə sıx bağlı olan məsələ olduğundan görkəmli dövlət xadimi, fenomen tarixi şəxsiyyət Heydər Əliyev bu məsələyə həmişə böyük diqqət göstərmişdir.

Məhz ümummilli lider Heydər Əliyev Xalq Cümhuriyyətinin Azərbaycan tarixindəki rolunu nəzərə alaraq öz siyasi kursunun həyata keçirilməsində, müstəqil Azərbaycan dövlətinin qurulmasında, demokratik milli dövlətçiliyin möhkəmləndirilməsi siyasətində Cümhuriyyətin mövcudluğu faktorundan istifadə etmiş, onun tarixinin öyrənilməsi və təbliğinə diqqət yetirmişdi. Heydər Əliyevin mövqeyi ilk dəfə xalqın arzusuna uyğun olaraq Cümhuriyyətin üçrəngli bayrağının yenidən Dövlət Bayrağı kimi qəbulunda göründü.

Ulu öndər Heydər Əliyev, eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə nəticələnən aprel işğalına da siyasi qiymət verilməsini tələb edirdi. O, tələb edirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması böyük bir inqilabi hadisə kimi qəbul edilməli və Cümhuriyyətin devrilməsi və süqutunun obyektiv və subyektiv səbəbləri də ciddi araşdırılmalıdır.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı yaranan mürəkkəbliyi, çətinlikləri xatırladan Heydər Əliyev demişdir: “Azərbaycanın ətrafında və daxilində gedən proseslər bu respublikanın, hökumətin öz normal fəaliyyətini davam etdirilməsinə imkan verməmişdir. Rusiyadakı bolşevik hökuməti keçmiş çar Rusiyasının bütün ərazisində bolşevik üsul-idarəsini qurmağa cəhd göstərərək, Azərbaycanda istilaçılıq hərəkətinə başlamışdı. Respublikanın daxilində o cəhdləri dəstəkləyən qüvvələr azərbaycanlı olmamışlar. Eyni zamanda Cümhuriyyətin hökumətində və onun yaratdığı parlamentdə də daxili ziddiyyətlər, çəkişmələr onun süqut etməsinə gətirib çıxarmışdır”.

1920-ci ilin əvvəllərində Sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyətinə qarşı təxribatlara əl atmağa başladı. Məqsədləri Azərbaycanda Cümhuriyyətin fəaliyyətinə son qoymaq və bolşevikləri hakimiyyətə gətirmək idi. Bu məqsədlə də Azərbaycanın işğalını tezləşdirmək üçün respublikada milli bolşeviklərdən – kommunistlərdən ibarət Bolşevik Partiyası (AK(b)P) təsis edildi.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun obyektiv səbəblərini Ulu öndər belə ifadə etmişdi: “Güclü xarici müdaxilələrə məruz qalan Xalq Cümhuriyyəti belə şəraitdə yaşaya bilməzdi. Xalq Cümhuriyyətinin süqutu onun rəhbərlərinin günahı deyil, Cümhuriyyətin süqutunun əsas səbəbi Sovet qırmızı ordusunun Azərbaycana daxil olması və Cənubi Qafqazı işğal etməsi idi”.

Azərbaycan 1991-ci ilin oktyabrında öz dövlət müstəqilliyini elan etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı qadağalara son qoyuldu. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri və himni bərpa olundu. Azərbaycan Xalq Cümhuriyyətinin Vətən tarixində rolu Heydər Əliyev belə dəyərləndirmişdi: “Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü – Respublika Günü elan etmişik və bu bizim milli bayramımızdır... Demokratik Respublikanın qurulmasında və fəaliyyət göstərdiyi xidmətlərə görə M.Ə.Rəsulzadəyə, Ə.Topçubaşova, F.Xoyskiyə, onların silahdaşlarına bir daha öz minnətdarlığımızı, təşəkkürümüzü bildiririk”.

Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, “XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzmimizin kökləri uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır”. Müstəqil Azərbaycan dövləti sözün tam mənasında azadlıq və demokratiya prinsipləri əsasında demokratik cəmiyyət qurur.

Dahi şəxsiyyət Heydər Əliyev qeyd edirdi ki, “Müstəqil Azərbaycan Respublikası heç vaxt öz torpaqlarını kiməsə verə bilməz. Biz torpaqlarımızı mütləq azad edəcəyik. Əgər sülh yolu ilə həll edilməsə, bizim bütün imkanlarımız, güclü ordumuz vasitəsilə bu məsələni həll edəcəyik”.

Müstəqil Azərbaycan dövlətinin qurucusu və banisi Heydər Əliyev bəyan edirdi ki, “Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir. Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir”.

Ulu öndər, həmçinin varislik prinsipini rəhbər tutaraq ordu və dövlətin müxtəlif strukturlarının yaranması tarixinin də məhz sovet dövründəki deyil, Cümhuriyyət dövründəki tarixdən götürməyi təklif etmişdi. Nəticədə həm təhlükəsizlik, həm daxili işlər, həm gömrük orqanlarının hər birinin tarixi Cümhuriyyət dövründəki tarix götürülməklə qeyd olunmağa başlandı. Heydər Əliyev qətiyyətlə bildirirdi: “Azərbaycan dövləti – Müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Xalq Cümhuriyyətinin varisidir”. “Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında” 1998-ci il 30 yanvar tarixli Sərəncamında da varislik prinsipi bir daha qeyd edildi. Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün – 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilməyə başlandı.

Təbii ki, 1993-2003-cü illərdə Heydər Əliyevin bu mövqeyi Cümhuriyyət tarixinin öyrənilməsi və tədqiqi prosesinə ciddi təsir etmişdir. Təsadüfi deyil ki, bu illər ərzində Azərbaycan tarixinin ən çox tədqiq olunan istiqamətlərindən bəlkə də birincisi Azərbaycan Xalq Cümhuriyyəti tarixi idi.

Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə nitqində qeyd etmişdir: “Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi və onu bir də o tarixdən 70 il sonra Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında ulu öndər Heydər Əliyev qaldırmışdır.”

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə keçirilən təntənəli mərasimdə dövlət başçısı İlham Əliyev bildirmişdir ki, “Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir”.

***İbrahim ZEYNALOV,***
***Bakı Dövlət Universiteti tarix fakültəsinin dekanı, professor***

# İstiqlal Muzeyi milli məfkurə saxlancıdır

*Burada hər bir sənəd və eksponat dövlətçilik yolumuza mənəvi işıq salır*

**Muzeylər xalqın keçmişini, mədəniyyətini, həyat tərzini, adət-ənənələrini və tarixi inkişaf mərhələlərini gələcək nəsillərə çatdıran zaman körpüsüdür. Onlar əcdadlarımızın həyatından və mübarizəsindən bəhs edən canlı tarix mənbələridir. Gənc nəslin tərbiyəsində, milli qürurun formalaşmasında, vətənpərvərlik hisslərinin güclənməsində də muzeylər canlı bir məktəbdir.**





Əsası 1919-cu il dekabrın 7-də qoyulmuş və bu gün geniş fəaliyyət göstərən İstiqlal Muzeyi milli dövlətçilik yolumuza işıq salır. Azərbaycan Parlamentinin işə başlamasının ildönümü münasibətilə açılmış və onun nəzdində fəaliyyət göstərmiş bu məfkurə ocağı xalqımızın ilk dövlət muzeyi kimi tarixə düşüb. Bu barədə “Azərbaycan” qəzeti 1919-cu il sentyabrın 23-də belə yazırdı: “Sənələrdən bəri bəslədiyimiz bir arzu var ki, o da vətənimiz Azərbaycanda bir milli muzey təsisidir... Sabiq Rusiya zamanında təsis edəcəyimiz muzeyin adını “milli muzey” qoymaq fikrində idiksə də, bu gün fərdimizin köksünü qabardan istiqlal şüarı olmasına görə, “İstiqlal muzesi” olmasını əhəmiyyətli görürüz”.

**Tarixçi Əmirxan Burzuyev bununla bağlı bildirdi ki, muzeydə Azərbaycanın azadlıq və istiqlal mübarizəsinə dair sənədlər və materiallar, tarixi və maddi mədəniyyət nümunələri, arxeoloji tapıntılar, silahlar, numizmatika nümunələri, rəsm əsərləri, xalçalar, bədii tikmələr, dulus və mis qablar, bəzək əşyaları toplanmışdı:** – Bundan başqa, Qurani-Kərimin nadir nüsxələri və müxtəlif əlyazmalar da nümayiş olunurdu. Muzeyin açılışına hazırlıq çərçivəsində 1919-cu il noyabrın 6-da tərtib olunmuş sənəddə (sənətşünaslar Hüseyn bəy Mirzəcamalov və Məhəmməd Ağaoğlu, habelə Azərbaycan Parlamentinin rəhbər şəxsləri – Həsən bəy Ağayev, Sultanməcid Qənizadə və başqaları tərəfindən imzalanıb) xüsusi olaraq vurğulanırdı ki, muzeyə verilən hər bir əşya milli sərvət hesab olunur və gələcəkdə heç bir ailə və ya qurum həmin əşyaları geri tələb edə bilməz.

Yada salaq ki, həmin sənədin 3-cü bəndində bu fikir açıq şəkildə ifadə olunurdu: “İstiqlal Muzeyi milli bir müəssisə olduğu üçün muzeydə mövcud bütün əşya milli mal hesab edilir. Heç kəs və heç bir müəssisə o şeylərə sahib ola bilməz.

Müsahibimiz qeyd etdi ki, muzeyin təşkili və fəaliyyəti ilə bağlı bütün xərclər Azərbaycan Parlamenti rəyasət heyəti tərəfindən qarşılanırdı. Bu fakt onun dövlət səviyyəsində nə qədər böyük əhəmiyyət daşıdığını göstərir: – 1920-ci ilin aprelində baş verən bolşevik işğalından sonra İstiqlal Muzeyinin fəaliyyəti dayandırıldı və eksponatları yeni yaradılmış Azərbaycan Dövlət Muzeyinə verildi. Təəssüf ki, bu dəyərli eksponatların bir hissəsi – o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, “İstiqlal Bəyannaməsi”nin orijinalı və Parlamentin materialları sonradan Moskvaya – İnqilab Muzeyinə aparıldı. 1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə ölkənin müstəqilliyinə son qoyuldu və bir çox milli institutlar kimi, İstiqlal Muzeyinin də fəaliyyəti dayandırıldı.

Lakin xalqımızın müstəqillik arzusu heç vaxt sönmədi. Uzun illərdən sonra, Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdikdə, İstiqlal Muzeyi də yenidən həyata döndü. Belə ki, 1991-ci il yanvarın 9-da muzey rəsmi olaraq yenidən yaradıldı. 1919-cu ildəki orijinal heç bir eksponat qorunub saxlanmamışdı. Bununla belə, yeni yaradılan muzey “İstiqlal” adını daşımaqla birinci muzeyin mənəvi varisinə çevrildi. Hazırda muzeyin əsas fondunda 18 minə yaxın maddi-mədəniyyət nümunəsi qorunur.”.

Muzeyin fəaliyyətə başlaması xalq yaddaşının və milli kimliyin də bərpası demək idi. Müstəqilliyimizlə birgə dirçələn İstiqlal Muzeyi hazırda Azərbaycanın azadlıq mübarizəsinin, tarixinin və mədəniyyətinin təbliğində mühüm rol oynayır.

**Tarixçi daha sonra bildirdi ki, muzeyin yerləşdiyi binanın (Muzey Mərkəzi) da maraqlı tarixçəsii var:** –Bina 1960-cı illərdə inşa edilib və V. Lenin Muzeyi kimi fəaliyyət göstərib. O ilk dövrlərdə 15 ekspozisiya zalından ibarət bir binada yerləşirdi. Lakin Leninin 90 illik yubileyi ərəfəsində daha geniş və müasir binanın tikilməsi qərara alındı. Layihə Azərbaycanın Əməkdar memarı Həsən Məcidova həvalə olundu. Yeni muzey binasının inşası üçün uzun axtarışlardan sonra Bakının “Petrovski” meydanı seçildi. XVIII əsrin əvvəllərindən bu ərazi anbarlar və gəmilər üçün dayaq nöqtəsi kimi istifadə olunmuş, daha sonra isə burada tribunalar yerləşdirilmişdi.

Hər bayramda Azərbaycan Yazıçılar İttifaqının istifadəsində olan bu tribunalar dövlət tədbirləri zamanı postament kimi xidmət edirdi. 1950-ci illərin sonunda bu tribunalar sökülərək, yerində muzey binasının tikintisinə başlanıldı. Binanın inşası 1960-cı ildə başa çatdı və 1961-ci ildən etibarən Moskvadakı V.İ. Lenin Muzeyinin filialı kimi fəaliyyətə başladı. Məhz tələbə vaxtı bu muzeydə dəfələrlə olmuşam.

Hazırda İstiqlal Muzeyi bu binada fəaliyyət göstərir. Muzeylə tanış olarkən öyrəndik ki, bu mənəvi saxlanc 6 salondan ibarətdir, hər biri müəyyən tarixi mərhələni əhatə edir. Azərbaycan Respublikasının Dövlət atributlarına, XVIII əsrin ikinci yarısında Azərbaycanın xanlıqlara bölünməsinə aid materiallar I zalda yer alıb. İkinci zalda isə eksponatlar XIX əsrin ikinci yarısından XX əsrin əvvəllərinədək olan dövrü əhatə edir. Zalda 1918–1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinə xüsusi yer ayrılıb. Habelə ekspozisiyada 1918-ci ildə ölkəmizdə törədilən Mart soyqırımına aid sənədlərin nümunələri, o dövrdə buraxılan poçt markaları, pul əskinazları nümayiş olunur.

Üçüncü zalda milli-azadlıq hərəkatları geniş şəkildə təqdim olunur. Burada milli-azadlıq hərəkatları, o cümlədən 1941–1945-ci illərdə Seyid Cəfər Pişəvərinin başçılığı ilə baş vermiş “21 Azər” hərəkatı haqqında qiymətli materiallar var. Cənubi Azərbaycanın müdafiə naziri Cəfər Kaviyanın oğlu Maqsud Kaviyanın muzeyə hədiyyə etdiyi qılınc və digər əşyalar da xüsusi maraq doğurur. “21 Azər” hökuməti dövründə bu qılınc Ələkbər Deraxşani tərəfindən Cəfər Kaviyaya təqdim olunub. Zalda həmçinin Cənubi Azərbaycanın tanınmış şəxsiyyətlərinin – şair, yazıçı və alimlərin portretləri də yer alır.

Dördüncü ekspozisiya zalı iki əsas hissədən ibarətdir. Birinci hissədə 1920–30-cu illərdə sovet repressiyaları zamanı məhv edilmiş görkəmli ziyalılarımızın həyat və fəaliyyətinə həsr olunmuş sənədlər diqqəti çəkir. Zalın ikinci hissəsi isə II Dünya müharibəsində (1939–1945) Azərbaycan xalqının göstərdiyi qəhrəmanlığa həsr olunub.

1988-ci ildən başlayan Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinə və bunun nəticəsində baş verən faciələrə beşinci zalda yer ayrılıb. Dağlıq Qarabağ və ətraf rayonlarımızın – Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilanın işğalı, 1 milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi bu zalda sənədli materiallar və fotolarla əks olunub.

Burada 20 Yanvar faciəsinə, Xocalı soyqırımına dair dəhşətli görüntülər, sənədlər və faktlar nümayiş olunur. Burada həm də 1989-cu il mayın 28-də saat 11-də Qız qalasının üzərində Faiq Həsənov adlı şəxs tərəfindən qaldırılan bayraq da var. Bu bayrağın hazırlanmasının maraqlı tarixi var. Belə ki, bayraq gecə saatlarında komendant saatında qaranlıq bir otaqda tikilib. Səhər baxıblar ki, bayrağın rənglərinin yeri səhv düşüb. Ancaq buna baxmayaraq, o bayraq Cümhuriyyətin yarandığı gün Qız qalası üzərində dalğalandırılıb. Bu bayraq 1995-ci ildə Faiq Həsənov tərəfindən İstiqlal Muzeyinə hədiyyə edilib.

Altıncı zal Azərbaycanın müstəqillik dövründə qazandığı nailiyyətləri əks etdirir. 1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı və həmin günün Milli Qurtuluş Günü kimi tarixə düşməsi bu zalda xüsusi vurğulanır. Burada dövlət quruculuğu, ordu formalaşması, xarici siyasət və iqtisadi inkişaf, o cümlədən 1994-cü ildə imzalanmış “Əsrin müqaviləsi” haqqında geniş məlumat verilir.

Zalda həmçinin Prezident İlham Əliyevin siyasi fəaliyyətini, beynəlxalq arenada Azərbaycanın mövqeyinin möhkəmləndirilməsini əks etdirən materiallar təqdim olunur. Bunlar onu göstərir ki, İstiqlal Muzeyi Azərbaycan tarixinin canlı güzgüsüdür.

Əmirxan Burzuyev XQ-yə verdiyi məlumatın sonunda qeyd etdi ki, bu zallar Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizəni əbədiləşdirmək və bu şərəfli yolu gələcək nəsillərə əyani şəkildə nümayiş etdirmək missiyasını yerinə yetirir: “Burada toplanmış eksponatlar milli azadlıq hərəkatının canlı şahidlərinə çevrilərək tariximizin unudulmaz səhifələrini yaşadır. Muzeydə nümayiş olunan hər bir eksponat milli kimliyimizin, dövlətçilik ənənələrimizin və xalqımızın azadlıq ruhunun ifadəsidir. Bəli, İstiqlal Muzeyi, Azərbaycan xalqının minilliklər boyu keçdiyi keşməkeşli tarixin, zəngin mədəniyyətin və azadlıq uğrunda göstərdiyi əzmkar mübarizənin güzgüsüdür. Məqsəd də bu müqəddəs yolu unudulmaz izlər və canlı eksponatlarla gələcək nəsillərə ötürməkdir. Hər eksponat, hər sənəd və hər şəkil bir yaddaşdır – o yaddaş ki, bizi biz edən dəyərləri daşıyır.

İstiqlal Muzeyi ilə əhatəli tanışlığımız göstərdi ki, yalnız keçmişimizi əks etdirən bir məkan deyil, eyni zamanda gələcək nəsillərə milli ruhu, azadlıq məfkurəsini və müstəqil dövlətçilik dəyərlərini aşılayan bir tarix məktəbidir. Burada hər bir eksponat bir ömrün, hər bir sənəd isə bir xalqın yaddaşının daşıyıcısıdır. Muzey təkcə istiqlal tariximizin nadir nümunələrinin saxlanc yeri kimi deyil, həm də tariximizin hərtərəfli şəkildə araşdırıldığı və ictimaiyyətə təqdim olunduğu elmi-mədəni mərkəz kimi çıxış edir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Bakıdan dünyaya mesaj

*Tolerantlıq, dialoq və ədalət naminə yeni impuls*



**Bakıda keçirilən “İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusundakı beynəlxalq konfrans qlobal miqyasda artmaqda olan dini və etnik ayrı-seçkiliyə qarşı mühüm bir çağırış kimi dəyərləndirilə bilər. Tədbirin əsl mahiyyəti – emosiyalara qapılmadan, sağlam və rasional düşüncə ilə cəmiyyətlərarası anlaşılmazlıqları aradan qaldırmağa yönəlmişdir. Konfransda əsas diqqət İslam dininə qarşı formalaşan qərəzli yanaşmaların təhlilinə və onların doğurduğu çoxşaxəli təhlükələrin müzakirəsinə yönəldilib. Xüsusilə, gündəliyin mərkəzində yer alan islamofobiya problemi həm sosial sabitlik, həm də beynəlxalq münasibətlər üçün strateji əhəmiyyət daşıyan çağırışlardan biri kimi təqdim olunur. Azərbaycanın bu konfransa ev sahibliyi etməsi ölkənin tolerantlıq və multikulturalizm dəyərlərinə sadiqliyinin və qlobal dialoqa töhfə vermək əzminin göstəricisidir.**

Tarix boyu cəmiyyətlərin formalaşmasında və inkişafında dini və etnik müxtəliflik mühüm rol oynayıb. Bu müxtəliflik əslində, mədəni zənginliyin və ictimai dinamizmin təməl sütunlarından biri olsa da, zaman-zaman fərqliliklər qorxu, təhdid və yadlıq hissləri ilə assosiasiya olunaraq ayrı-seçkiliyin əsasına çevrilib. Xüsusilə də, müasir dövrdə bu münasibət daha mürəkkəb və çoxşaxəli forma alır. Etnik və dini mənsubiyyətlərə əsaslanan ayrı-seçkilik təkcə fərdlərin gündəlik həyatına təsir etmir, həm də sosial sabitlik, demokratik institutların legitimliyi və beynəlxalq münasibətlərin mahiyyəti üzərində dərin izlər buraxır.

Prosesin ən təhlükəli cəhətlərindən biri ayrı-seçkiliyin açıq zorakılıqdan daha çox dolayı və sistemli formaya keçməsidir. Bəzən rəsmi qaydalarla deyil, mediada formalaşan ritorikalar, seçkilər zamanı istifadə olunan populist şüarlar və ya təhlükəsizlik narahatlıqları fonunda irəli sürülən arqumentlərlə legitimləşdirilən bu yanaşmalar cəmiyyətdə “digərləri”nə qarşı önyarğıları gücləndirir. Belə hallarda dini və ya etnik mənsubiyyətə görə fərqli münasibət göstərilməsi, bərabər imkanlardan məhrumetmə və ya siyasi qərarların məhz bu mənsubiyyətə görə yönləndirilməsi yalnız sosial ədalətsizliyə deyil, həm də dövlət – vətəndaş münasibətlərində dərin uçurumlara səbəb olur.

İslamofobiyanın bu kontekstdə xüsusi yeri var. Qloballaşan dünyada müsəlman azlıqlara qarşı olan neqativ münasibət fərdi və institusional səviyyədə də təzahür edir. Fransada hicab qadağası, Danimarkada Quranın yandırılması aksiyaları, Almaniyada məscidlərə edilən hücumlar – bütün bu nümunələr dini ayrı-seçkiliyin siyasi və hüquqi nəticələr doğuran struktur problemə çevrildiyini göstərir. Müsəlmanlar bir



çox hallarda həm dini mənsubiyyətlərinə, həm də etnik kimliklərinə görə ikili diskriminasiya ilə üz-üzə qalırlar ki, bu da onların cəmiyyətdəki rolunu, təmsilçiliyini və siyasi iştirak imkanlarını məhdudlaşdırır.

Belə vəziyyətlərdə dövlətin neytral mövqedə dayanması kifayət deyil; əksinə, onun aktiv şəkildə inklüziv siyasət yürütməsi və ayrı-seçkiliyə qarşı institusional səviyyədə tədbirlər görməsi vacibdir. Əks halda, diskriminasiya normaya çevrilir, ictimai konsensus zəifləyir və radikallaşma üçün münbit zəmin yaranır. Bütün bunlar isə təkcə daxili təhlükəsizliyi deyil, beynəlxalq münasibətlər sistemində sabitliyi də sarsıda bilər.

İslamofobiya təkcə bir dini qrupun təhqir olunması və ya cəmiyyətdə sosial damğalanması ilə məhdudlaşmır – bu, eyni zamanda, qlobal təhlükəsizlik və beynəlxalq münasibətlər sistemində balansın pozulmasına gətirib çıxaran ciddi siyasi problemdir. Xüsusilə, 11 Sentyabr hadisələrindən sonra Qərb dünyasında İslam dini getdikcə daha çox təhlükə və ekstremizmlə eyniləşdirilməyə başlanıldı.

Avropada və Şimali Amerikada müsəlman azlıqlara təzyiqlər, onlara qarşı çıxarılan qanunlar və sosial izolyasiya siyasətləri İslam dünyası ilə Qərb arasında olan qarşılıqlı etimada ciddi zərbə vurur. Belə bir mühitdə ekstremist qruplar islamofobiyanı öz radikal çağırışlarını əsaslandırmaq üçün istifadə edir, nəticədə qütbləşmə daha da dərinləşir.

Fransada hicabla məktəbə getmək qadağası yalnız fərdi azadlığın məhdudlaşdırılması deyil, eyni zamanda, dövlətin neytrallıq adı altında müəyyən dini kimliyə qarşı mövqe sərgiləməsi kimi dəyərləndirilə bilər. Digər tərəfdən, İsveç və Danimarka kimi ölkələrdə Quranın yandırılması aksiyalarının “ifadə azadlığı” adı ilə müdafiə olunması islamofobiyanı siyasi alətə çevirir və beynəlxalq platformalarda qarşıdurmaların dərinləşməsinə və diplomatik gərginliyin artmasına yol açır.

Müsəlman dünyasında isə bu hadisələr Qərbə qarşı narazılığı artırmaqla yanaşı, beynəlxalq təşkilatların səmərəliliyi və obyektivliyi ilə bağlı suallar yaradır. BMT, Aİ, AŞPA və digər qurumların bəzən bu məsələlərə susqun qalması və ya selektiv reaksiya verməsi İslam dünyasında ikili standartlarla bağlı tənqidləri gücləndirir. Belə vəziyyətdə Azərbaycan kimi tolerantlıq və dini müxtəliflik modelini qoruyan ölkələrin təşəbbüsü ilə təşkil olunan beynəlxalq konfranslar xüsusi əhəmiyyət kəsb edir.

Bakıda keçirilən beynəlxalq konfrans da məhz bu kontekstdə mühüm mesaj daşıyır: təmkinli və rasional yanaşma ilə islamofobiyanın köklərinə toxunmaq, ayrı-seçkiliyin qlobal təhlükəsini üzə çıxarmaq və qərəzli yanaşmaları ifşa etmək. Azərbaycanın multikulturalizm və dinlərarası dialoqa verdiyi önəm bu çağırışları praktik nümunələrlə nümayiş etdirmək baxımından mühüm rol oynayır.

BMT tərəfindən qəbul edilən İnsan Hüquqları Ümumi Bəyannaməsi və Vətəndaş və Siyasi Hüquqlar Haqqında Pakt kimi fundamental sənədlər din azadlığını və ayrı-seçkiliyə qarşı bərabərliyi qlobal hüquq prinsipləri səviyyəsində təsbit etsə də, bu prinsiplərin tətbiqi universal xarakter daşımır. Dini etiqada və ibadət azadlığına qarşı yönəlmiş zorakılıq və nifrət çağırışları bir çox ölkələrdə söz azadlığı adı altında müdafiə edilir və bu yanaşma hüquqi və mənəvi baxımdan ciddi mübahisələrə yol açır. Müxtəlif beynəlxalq konvensiyalar dini nifrəti xüsusi kateqoriya kimi tanısa da, bu öhdəliklərin icrası çox zaman hüquqi normadan çox siyasi münasibətin nəticəsi kimi təzahür edir.

2022-ci ildə BMT Baş Assambleyasının Pakistanın təşəbbüsü ilə 15 martı “İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü” elan etməsi beynəlxalq ictimaiyyətin bu məsələni daha ciddi qəbul etdiyini göstərsə də, bu tip simvolik addımların real nəticəyə çevrilməsi yalnız dövlətlərin daxili siyasətində praktiki tədbirlərlə mümkündür. Avropa İttifaqı və Avropa Şurası kimi qurumlar isə antisemitizmə qarşı sərgilədikləri sərt və prinsipial mövqeyi islamofobiya məsələsində eyni ardıcıllıqla ortaya qoya bilmirlər. Xüsusilə, bəzi Avropa ölkələrində Qurana qarşı təhqiramiz aktlara, yaxud İslam peyğəmbərinə (s.) yönəlmiş açıq-aşkar təhqirlərə hüquqi reaksiya verilməməsi, əksinə bunların ifadə azadlığı çərçivəsində qorunması bu qurumların obyektivlik və ədalət meyarlarına dair ciddi suallar doğurur.

İslam Əməkdaşlıq Təşkilatı isə bu reallıqları nəzərə alaraq islamofobiyanı beynəlxalq hüquqa zidd və təhlükəli tendensiya kimi qiymətləndirir və üzv ölkələr arasında koordinasiyalı mövqe formalaşdırmağa çalışır. Lakin təşkilatın çağırışları və təşəbbüsləri də çox vaxt beynəlxalq sistemin dominant gücləri tərəfindən yetərincə nəzərə alınmır və bu da qlobal hüquqi mexanizmlərin selektiv tətbiqi problemini bir daha gündəmə gətirir.

Məsələnin kökündə duran əsas problem ondan ibarətdir ki, islamofobiya ilə mübarizə hüquqi səviyyədə qəbul edilmiş prinsiplərin arxasında gizlənən siyasi selektivliklə üz-üzədir. Bəyanatlar və çağırışlar kifayət etmədiyi halda, effektiv hüquqi tədbirlər görülmür və bu, hüquqla siyasət arasında yaranan boşluğu daha da dərinləşdirir. Mövcud vəziyyət göstərir ki, dinə və inanclara qarşı nifrət yalnız cəmiyyətin daxilində deyil, beynəlxalq sistemin özündə də qoruyucu mexanizmlərin dayanıqlığını sınağa çəkir. Əgər islamofobiya ilə mübarizə beynəlxalq hüququn əsl mahiyyəti – bərabərlik, azadlıq və ədalət prinsipləri çərçivəsində aparılmırsa, bu, insan hüquqları sahəsindəki universal normativlərin gələcəyini də təhlükə altına atır.

Nəticə etibarilə, islamofobiya ilə mübarizə həm hüquqi, həm də siyasi səviyyədə ardıcıl və prinsipial yanaşma tələb edir. Qlobal miqyasda bu problemə qarşı effektiv reaksiya yalnız o halda mümkün olacaq ki, beynəlxalq təşkilatlar və dövlətlər hüquqi öhdəliklərini siyasi maraqlardan üstün tutsunlar, ikili standartlardan imtina etsinlər və insan hüquqlarının müdafiəsini universal və tərəfsiz dəyər kimi qəbul etsinlər. Əks halda, islamofobiya ilə bağlı atılan hər bir addım sadəcə rəmzi xarakter daşıyacaq və reallıqda heç nəyi dəyişməyəcək.

Tədbirin Bakıda keçirilməsi ölkənin mədəniyyətlərarası körpü rolunu bir daha möhkəmləndirdi və İslam dünyasının ümumi narahatlığının səsləndiyi bir platformaya çevrildi. Eyni zamanda, Azərbaycan dünyəvi, tolerant və birgəyaşayışa əsaslanan cəmiyyət modeli ilə beynəlxalq ictimaiyyətə alternativ yanaşma təklif etdi. Qərb cəmiyyətlərində tez-tez ifadə azadlığı adı altında baş verən dini təhqir halları fonunda Bakı konfransı ciddi diplomatik siqnal verdi: azadlıq nifrət üçün bəraət ola bilməz.

Azərbaycanın təqdim etdiyi model müxtəlif dinlərin dinc və qarşılıqlı hörmət şəraitində birgə yaşadığı bir cəmiyyətin real nümunəsidir. Ölkəmizdə dini mərasimlər sərbəst keçirilir, müxtəlif konfessiyaların nümayəndələri eyni hüquqlara malikdir və dövlət bu harmoniyanın qorunmasında aktiv rol oynayır. Azərbaycan bir daha göstərdi ki, dini müxtəliflik təhlükə deyil, zənginlikdir. Dünya isə bu çağırışı eşitmək və cavablandırmaq üçün daha məsuliyyətli olmalıdır.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# İran və “müqəddəs yer boş qalmır” prinsipi

## Yaxud “regionda sərhədlərin dəyişməzliyi”nə sözardı

**Əslində, bir çox məqamlar maraqlı olduğu qədər də qəlizdir. Bu qəlizlik fonunda ortaya çıxan bir vacib nüans var ki, o da yaşadığımız Cənubi Qafqaz regionunun önəmidir. Bu önəm isə demək olar ki, hər kəs tərəfindən vurğulanır. Elə İran rəsmiləri də məsələnin üzərində dayanırlar.**

Bəli, İran Cənubi Qafqazla sıx bağlılıq tellərinə malikdir və bu, ölkə üçün təbii maraqlar formalaşdırıb. Elə maraqlar ki, onlarla hesablaşılması lazımdır. Eyni zamanda, onu da vurğulamalıyıq ki, regionda İslam respublikasının mənafelərini nəzərə almadan hərəkət böyük təhlükəsizlik riski yaradır. Riskin ən müxtəlif tərəflərindən söz açmaq mümkündür. Amma buna ehtiyac duymuruq. Çünki mövzumuz başqadır.

İran rəsmilərinin son illər dilə gətirdiklərinin əndişədənmi, ya nədənmi qaynaqlandığı müəyyən deyil. Güman edirik, Cənub qonşumuzun malik olduğu potensial narahatlıq üçün əsas verməməlidir. Ancaq, necə deyərlər, barmağı tətikdə olmaqda fayda var. Hərçənd, bu yerdə barmağın tətikdə olması obrazlı düşüncə məhsuludur. Yəni, mütləq anlam daşımır.

Mütləq anlam daşıyan Cənubi Qafqazın İran rəsmilərinin də bildirdikləri kimi, sülh, əməkdaşlıq, inkişaf və rifah regionuna çevrilməsinin vacibliyidir. Hər halda, ölkənin Xarici işlər nazirinin müavini Səid Xətibzadənin “İrəvan dialoqu – 2025” mövzusundakı beynəlxalq konfransda dediklərindən gəldiyimiz qənaət budur.

Əvvəla, onu vurğulayaq ki, cənab Xətibzadə Cənubi Qafqaz müstəvisində son dərəcə vacib məqamlara və tendensiyalara toxundu, regiona kənar müdaxilələrin yolverilməzliyini əsaslandırdı. O, belə nəticəyə gəldi ki, geosiyasi rəqabət və mübarizə regionun xəritəsində dəyişiklik yaratmamalıdır.

Yəqin, ifadə tərzi tanış gəldi. Çünki İranın Ermənistandakı səfiri Mehdi Sobhani bütün bunları mütəmadi olaraq təkrarlamaqla məşğuldur. Ancaq Xətibzadədən fərqli olaraq, Sobhani mətləbə birbaşa gəlir. İlk baxışdan, belə təəssürat yaranır ki, o, İranı yox, Ermənistanın rəsmisidir.

Amma, prinsip etibarilə, Xətibzadə ilə Sobhaninin düşüncələri arasında elə bir fərq yoxdur. Onların dilə gətirdikləri fikirlərdəki başlıca məqamı vurğuladıq. Ancaq, gəlin görək Cənubi Qafqazda sərhədlərin dəyişməzliyi, ərazi bütövlüyünün, suverenliyin toxunulmazlığı klişesini yayan hansı tərəfdir? Cavab məlumdur: Ermənistan və onun xaricdəki havadarları. Onlar bu cəfəngiyyatı nə üçün ortaya atıblar?

Əlbəttə, bu məsələdə anti-Azərbaycan fəaliyyətin müxtəlif çalarlarından söz açmaq mümkündür. Bəli, hazırda Cənubi Qafqazda sərhədlərin dəyişməzliyi klişesinin ortaya atılması erməni avantürizmini qorumaq niyyətinə hesablanmış gedişdir. Amma yenə də deyək ki, İranın öz baxış bucağının mövcudluğunu anlayırıq. Məsələn, cənab Xətibzadə İrəvanda qədim zamanlardan bəri regiondan keçən yollardan söz açıb. Hətta, vaxtilə İranın Böyük İpək yolunun mərkəzində dayandığını vurğulayıb. Onun, müəyyən mənada, “biz var idik, siz yox idiniz” eyhamına da iradımız yoxdur. Çünki İranın regiondakı varlıq fəlsəfəsindən xəbərdarıq. Səfəvilərdən tutmuş Pəhləvilərədək, hətta İslam inqilabınadək olan mərhələdən, İran adlı reallığın meydana çıxmasından da həmçinin. Hələ daha qədim dövrü də bilirik.

Nə isə məqsədimiz tarixdən yox, müasir reallıqlardan söz açmaqdır. O reallıqlar ki, 44 günlük müharibədən sonra meydana çıxdı. Azərbaycanın tarixi Zəfəri və torpaqlarını işğaldan azad etməsi regiondakı bir sıra nizamları dəyişdi. Üstəlik, indi üzdə olan sülh egidası da məhz həmin savaşın nəticəsidir.

Sülh və sabitlik, ilk növbədə, ədalətli yanaşmadan asılıdır. İran otuz ilə yaxın davam etmiş erməni işğalına münasibətdə hansı mövqeni tutdu? Ölkədə ali səviyyədə ədaləti bərpa etmək barədə düşünənlər oldumu? Tutalım oldu, onların səsi nə dərəcədə eşidildi? Əslində, cavabına susqunluğun hakim kəsildiyi bu sayaq sualları sıralamaq mümkündür. Amma gələcəyə baxırıq. Daha doğrusu, baxmaq istəyirik.

Ona görə də 44 günlük müharibədən sonra Ermənistana sülh əlimizi uzatdıq. Əlimiz havada qaldı. 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən – ərazi bütövlüyümüz və suverenliyimiz tam



bərpa edildikdən sonra da bunu etdik, amma durum dəyişmədi. Sülh müqaviləsinin mətnini hazırladıq. Ermənistan uzun müqavimətdən sonra sənədlə razılaşdı, daha doğrusu, razılaşmaq məcburiyyətində qaldı. İranın regiona bağlı dövlət kimi prosesə hansısa töhfəsi oldumu? Xeyr!

Sözümüz heç də o deyil ki, Tehran Bakı ilə İrəvan arasında vasitəçilik etməli idi? Ancaq Azərbaycanın, guya, Ermənistanın ərazisini işğal etmək niyyətinə dair cəfəngiyyata regionda sərhədlərin dəyişməzliyinin yolverilməzliyi məntiqi ilə dəstək göstərməmək mümkün idi və indi də mümkündür. Nəhayət, Ermənistanın suverenliyin və ərazi bütövlüyünün toxunulmazlığı klişesi ilə Naxçıvana gedən yolu əngəllədiyini görmək bu qədərmi çətindir? Fikrimizcə, yox! Axı Ermənistanın öz ərazisindən Naxçıvana maneəsiz yol verməyi ölkənin işğalı kimi qiymətləndirilə bilməz.

İran regionda kənar qüvvələrin at oynatmasına razı deyil və bu, onun təbii haqqıdır. Azərbaycan dövləti də bu qənaətdədir ki, Cənubi Qafqaza tarixi və coğrafi yaxınlığı olmayan ölkələr mövcud platformada söz sahibinə çevrilməməlidirlər. Ancaq məsələyə “Müqəddəs yer boş qalmır” prinsipi ilə yanaşmaq lazımdır. İran bu yeri doldurmaq üçün nə edib? Bir qədər əvvəl ölkənin erməni işğalına göz yummaqla ədalətsizlikdə pay sahibinə çevrildiyini vurğuladıq. İllərlə Qarabağ və işğal edilmiş digər torpaqlarımız xarabazara çevrildi. Halbuki, belə olmamalıydı. Çünki bu bölgələr regional inkişafın mərkəzində dayanacaq qədər müqəddəs ərazilər idi. Hesab edirik ki, İran da məsələyə məhz bu kontekstdən yanaşaraq, regiona sahiblənmək əzmini ortaya qoysaydı, faydalı olardı. Təəssüf ki, olmadı...

44 günlük müharibədən sonra Azərbaycan Türkiyə ilə birlikdə “3+3” regional məşvərət formatı ilə çıxış edib. İran hazırda ideyaya dəstək göstərir və platformada təmsil olunur. Bu platforma regional inkişafa daha səmərəli töhfə vermək, ən başlıcası haqqında söz açdığımız müqəddəs yerə sahiblənmək əzminə, onu boş qoymamaq məramına söykənir. Bu platforma regional “Benilüks” üçün bünövrədir. Elə bir bünövrə ki, onu gerçəkləşdirmək, bölgəyə sahiblənməyin əsaslı şərtlərini müəyyənləşdirir, “Qafqaz evi” ideyasına körpü yaradır.

Odur Avropada sərhədlər yoxdur. Əlbəttə, demirik ki, hazırda yaşadığımız coğrafiyada da belə bir durum mümkündür. Ancaq hesab edirik ki, İran ənənələrə malik ölkə kimi mövcud düzəndə etimad quruculuğuna töhfə vermək üçün səy göstərə bilər. Amma Xətibzadə sərhədlərin dəyişməzliyindən danışır. Dahi Sabirin təbirincə desək, əcnəbi seyrə balonlarda gəzir, biz hələ avtomobil minməyiriz.

Görəsən, İranda regionda sərhədlərin dəyişməzliyi prinsipinin, faktiki olaraq, Ermənistana dəstək mahiyyətini dərk edənlər yoxdurmu? Axı o Ermənistandır ki, sərhədlərində Avropa İttifaqının mülki müşahidə missiyası keşik çəkir və bu təsisatın da hansı məqsədlə regionda olduğu məlumdur. Əlbəttə, Azərbaycan da Aİ ilə əməkdaşlıq edir. Ancaq ölkəmiz dünyanın bir çox qütbləri ilə fəal əlaqələr tembrinə malikdir.

Ümumən, ölkəmizin yürütdüyü xətt heç vaxt regional prinsiplərə xələl gətirməyib. İrandakı bəzi dairələrin Bakının İsraillə yaxınlığı məsələsini qabartmaları da mənasızdır və bununla bağlı iddiaların, əslində, bəhanə xarakteri daşıdığı aşkardır. Hər halda, bu cür bəhanələri kəsmək mümkündür. Ən azından ona görə ki, Azərbaycanın indiyədək keçdiyi yol, qazandığı etimad var. Təkcə bir məqamı vurğulayaq ki, ölkəmiz Qərbin illərdir davam edən anti-İran koalisiyasında yer almayıb. Görəsən, bu gün Ermənistanın Qərbpərəst xəttində anti-İran motivinin olacağını təxmin etmək bu qədərmi çətindir?

Sonda bir məqamı da vurğulayaq. Əlbəttə, dediklərimizdən heç də o nəticə çıxmamalıdır ki, biz İranın Ermənistanla durumunun pisləşməsini istəyirik. Əsla, belə niyyətimiz yoxdur. İkincisi, nə qədər yarıtmaz mövqe tutsa da, mövcud coğrafiyada, ya vəlvələdən, ya da zəlzələdən erməni amili var, ermənilər yaşayırlar və yaşayacaqlar da. Başlıca məsələ regionun mənafeyidir. Yəni, bütün tədbirlər bu mənafenin qorunması naminə olmalıdır. İran da tarixi ənənələrə malik ölkə kimi mövcud istiqamətdə çalışmalı, reallığı qiymətləndirməli və onlar çərçivəsindəki təminatların formalaşmasına çalışmalıdır. Söhbət dayanıqlı və davamlı sülhə aparan təminatlardan gedir. Regionda sərhədlərin dəyişməsinin yolverilməzliyi kimi klişelər isə hansısa təminat demək deyil.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Cənub Qaz Dəhlizi: Xəzərdən Avropaya mötəbər enerji körpüsü

## *Beynəlxalq qaz marşrutunun 7 yaşı tamam olur*

**Avropanın enerji xəritəsini zənginləşdirən Cənub Qaz Dəhlizi Azərbaycan qazını "köhnə qitə"yə çatdıran etibarlı enerji marşrutudur. Bu u nəhəng qaz ixracı marşrutu 2018-ci il mayın 29-da tam gücü ilə işə düşüb. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib.**



Cənub Qaz Dəhlizi ideyası Azərbaycanın yeni neft strategiyasının banisi, ulu öndər Heydər Əliyevə məxsusdur. Belə ki, 1999-cu il iyulun 12-də "Şahdəniz" yatağında əldə edilmiş nəticələrin təqdimat mərasimində Ümummilli liderin "Bizim üçün ən əlverişli bazar Türkiyədir" bəyanatı XXI əsrin yeni enerji dəhlizinin, bir növ, anonsu idi. Ulu öndər Heydər Əliyevin Azərbaycan qazının Türkiyəyə ixracını nəzərdə tutan boru kəməri ilə bağlı mülahizəsi sonradan Avropaya nəhəng bir enerji dəhlizinin açılmasına vəsilə oldu. Bu, Prezident İlham Əliyevin iştirakı və xeyir-duası ilə 2014-cü il sentyabrın 20-də təməli qoyulmuş Cənub Qaz Dəhlizi idi.

"Cənub Qaz Dəhlizi" layihəsinin ilk seqmenti olan "Şahdəniz-2" layihəsi Azərbaycan qazını Avropa və Türkiyəyə çatdıran nəhəng enerji layihəsidir. Sözügedən layihə "Şahdəniz" yatağının birinci işlənmə mərhələsi çərçivəsində hasil olunan illik 10 milyard kubmetrdən əlavə daha 16 milyard kubmetr qaz hasilatını nəzərdə tutur. 2006-cı ilin sonlarında istismara verilmiş "Şahdəniz" yatağının ilkin balans ehtiyatı 1 trilyon kubmetrdən artıq təbii qaz və 2 milyard bareldən artıq kondensat həcmində qiymətləndirilib. "Şahdəniz-2" layihəsi Avropa bazarlarının "mavi yanacaq"la təchizatına, bir sıra ölkələrin enerji təhlükəsizliyinə mühüm töhfələr verir.

Cənub Qaz Dəhlizi isə üç müxtəlif magistral qaz kəmərinin birləşməsindən ibarətdir. Başlanğıcını Xəzər dənizinin sahilində yerləşən Səngəçal terminalından götürən bu nəhəng enerji dəhlizi İtaliyanın cənubuna doğru Adriatik dənizinin dibindən keçməklə 3500 kilometr məsafə qət edir. Layihənin məqsədi Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağının 1-ci və 2-ci mərhələri çərçivəsində hasil edilən təbii qazın Türkiyə və Avropa bazarlarına çatdırılmasını təmin etməkdir.

Cənub Qaz Dəhlizinin ilk hissəsini Cənubi Qafqaz Boru Kəməri təşkil edir. Uzunluğu 692 kilometr olan bu kəmər "Şahdəniz" yatağından hasil edilən qazı Gürcüstan – Türkiyə sərhədinə nəql etmək məqsədilə inşa edilib. Başlanğıcını Səngəçal terminalından götürən bu boru kəməri Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda Bakı – Tbilisi – Ceyhan neft kəməri ilə eyni dəhlizdə çəkilib. Boru kəməri 2007-ci ilin əvvəllərində istismara verilib.

2011-ci ildə Avropa Komissiyası və Azərbaycan Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən Birgə Bəyanat imzalayıblar. Sözügedən sənəd TANAP və TAP-la bağlı hökumətlərarası sazişlərlə birlikdə uzunmüddətli qaz satış müqavilələri üçün zəmin yaradıb. Bir il sonra isə Azərbaycan və Türkiyənin dövlət başçıları Trans-Anadolu Qaz Boru Kəməri ilə bağlı müqaviləyə imza atıblar.

Sonrakı illərdə imzalanmış mühüm sənədlər, qəbul edilmiş bir sıra vacib qərarlar Xəzər regionunu Avropa ilə birləşdirən Cənub Qaz Dəhlizi kimi meqa layihənin ərsəyə gəlməsi ilə nəticələnib. Beləliklə, 2014-cü il sentyabrın 20-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Cənub Qaz Dəhlizinin təməli qoyulub. "Şahdəniz" qaz-kondensat yatağının tammiqyaslı işlənilməsi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri və Trans-Adriatik Boru Kəməri layihələri Cənub Qaz Dəhlizinin əsas seqmentləri sayılır.

Cənub Qaz Dəhlizinin yaradılması, ilk növbədə, 2006-cı ilin sonlarında istifadəyə verilmiş Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi zərurətini yaradıb. Bu məqsədlə marşrutun Azərbaycan ərazisindən keçən hissəsində yeni boru kəməri inşa olunub. Bununla da, illik ötürmə qabiliyyəti 7,4 milyard kubmetr təşkil edən Cənubi Qafqaz Boru Kəmərinin gücü 24 milyard kubmetrə çatdırılıb. Gələcəkdə isə lazım gəldiyi təqdirdə kəmərin illik ötürmə qabiliyyəti 34 milyard kubmetrə çatdırıla bilər.

"Şahdəniz" qazını Türkiyənin dərinliklərinə nəqlini həyata keçirən TANAP-ın təməlqoyma mərasimi 2015-ci il martın 17-də Türkiyənin Qars şəhərində keçirilib. Bununla da, boru kəmərinin inşasına start verilib. 12 iyun 2018-ci il tarixində isə Əskişəhərdə Cənub Qaz Dəhlizinin mühüm hissəsi olan Trans-Anadolu Boru Kəmərinin açılışı olub. Həmin ayın 30-da ilk kommersiya qazının bu kəmərlə Türkiyəyə nəqlinə başlanılıb. Noyabrın 30-da isə TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Uzunluğu 1850 kilometr olan TANAP-ın illik ötürmə gücü hazırda 16,2 milyard kubmetr təşkil edir. Azərbaycanın zəngin qaz ehtiyatları, eləcə də Avropada "mavi yanacağa" tələbatın artması ilə əlaqədar gələcəkdə sözügedən kəmərin illik ötürmə qabiliyyətinin 30,7 milyard kubmetrədək artırılması gözlənilir.

Cənub Qaz Dəhlizinin son seqmenti olan Trans-Adriatik Boru Kəməri Xəzər regionunun qazını Avropaya nəql etmək məqsədilə inşa edilib. Adıçəkilən kəmərin təməlqoyma mərasimi 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində keçirilib və tikinti işlərinə başlanılıb. Qeyd edək ki, uzunluğu 880,8 kilometr olan kəmərin 551,5 kilometri Yunanıstan, 215,9 kilometri Albaniya, 105 kilometri Adriatik dənizi, 8,4 kilometri isə İtaliya ərazisindən keçir. Hazırda kəmərlə il ərzində 10 milyard kubmetr qaz nəql olunur. Lakin yaxın illərdə Avropaya qaz tədarükünün artması ilə əlaqədar olaraq bu həcmin 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

TAP kəməri 2020-ci il noyabrın 15-də istismara verilib və kommersiya fəaliyyətinə başlamağa hazır vəziyyətə gətirilib. Həmin il dekabrın 31-də isə Azərbaycan kommersiya qazının TAP vasitəsilə Avropaya tədarükünə başlanılıb. Bununla da, ölkəmiz Cənub Qaz Dəhlizi kimi nəhəng enerji marşrutu vasitəsilə Avropanın mühüm qaz tədarükçülərindən birinə çevrilib.

Artıq 7 ildir ki, Azərbaycanın enerji resurslarının şaxələndirilməsinə xidmət edən Cənub Qaz Dəhlizi Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verir. Ötən müddətdə bu əvəzolunmaz layihə ölkəmizi mühüm enerji müttəfiqinə və strateji tərəfdaşa çevirib. Təsadüfi deyil ki, Azərbaycan qazını mühüm mənbə kimi səciyyələndirən Prezident İlham Əliyev Cənub Qaz Dəhlizini yeni enerji damarı, Avropanın enerji xəritəsini yenidən tərtib edən layihə adlandırıb. Dövlətimizin başçısı deyib: "Bu layihə, həqiqətən də, uğur hekayəsidir. Bu, Avrasiyada ən böyük infrastruktur layihələrindən biridir. Uzunluğu 3500 kilometr olan inteqrasiya edilmiş boru kəməri sistemi olan bu layihə enerji təhlükəsizliyi və əməkdaşlıq layihəsidir. Çünki Cənub Qaz Dəhlizinin keçdiyi marşrut boyunca yerləşən bütün ölkələr arasında əməkdaşlıq olmasa, bu layihənin həyata keçirilməsi mümkün olmazdı".

Hazırda Azərbaycan Türkiyə və Gürcüstan da daxil olmaqla 12 ölkəyə "mavi yanacaq" ixrac edir. Bunun da 10-u Avropa ölkəsidir. 2021-ci ilin əvvəlindən etibarən 2024-cü ilin sonlarınadək Cənub Qaz Dəhlizi vasitəsilə Avropa bazarlarına 44,5 milyard kubmetr "mavi yanacaq" ixrac olunub. Bununla belə "köhnə qitə"də təbii qaza ciddi ehtiyac duyulduğu indiki şəraitdə bu siyahının daha da genişlənəcəyi şəksizdir. Eyni zamanda, ölkəmizin zəngin qaz ehtiyatları fonunda yeni-yeni yataqların istismara verilməsi Cənub Qaz Dəhlizinin genişləndirilməsinə zərurət yaradır.

Göründüyü kimi, Cənubi Qafqaz Boru Kəmərindən başlayan yol sonradan Cənub Qaz Dəhlizi kimi nəhəng bir magistrala çevrilib. Onun reallaşması müstəqil Azərbaycanın nail olduğu bir uğur hekayəsi idi. Məhz bu hekayənin reallaşması istiqamətində atılan addımlar insanlarda gələcəyə inam yaradıb. Müqavilənin reallaşması müxtəlif ölkələrdən olan insanları bir araya gətirib. Onlar terminallar tikib, boru kəməri çəkib, platformalar inşa ediblər. Eyni zamanda, Xəzərin dərin qatlarındakı təbii ehtiyatları çıxarmaq üçün ölkəmizə müasir texnologiyalar gətirilib. Bununla da, Xəzər kimi qapalı bir hövzə Avropanın böyük qaz bazarları ilə birləşdirilib. Bu, təkcə enerjinin zəfəri deyildi, ölkənin qarşıdakı böyük uğurlarının başlanğıcı və ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu Azərbaycanın neft-qaz strategiyasının təntənəsi idi.

# KOBİA regionlarda biznes layihələrini fəal dəstəkləyir

**İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) regionlarda həyata keçirilmiş və icrası davam edən 18 layihəyə indiyə qədər 300 min manatdan çox qrant ayırıb. Bununla yanaşı, ötən müddətdə regionlarda fəaliyyət göstərən 40 sahibkarlıq subyektinə "Startap" şəhadətnaməsi verilib.**

KOBİA
Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

Regionlarda mövcud biznes potensialının reallaşdırılması, yeni kiçik və orta biznes subyektlərinin yaradılması və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, eləcə də iş adamlarının investisiya təşəbbüslərinin dəstəklənməsi məqsədilə KOBİA-nın geniş infrastruktur şəbəkəsi var. Agentlikdən bildiriblər ki, sahibkarlıq fəaliyyətinə başlamaq və biznesini inkişaf etdirmək istəyən iş adamları dəstək və xidmətlər üçün KOBİA-nın KOB evlərinə, 50-dən çox şəhər və rayonu əhatə edən KOB dostu şəbəkəsinə və KOB inkişaf mərkəzlərinə müraciət edə bilərlər.

Məhsul və xidmətlərinin satışına və tanıdılmasına dəstək üçün bölgələrdə 930-a yaxın biznes subyketinin iştirakı ilə 16 sərgi və yarmarka təşkil edilib. Ticarət şəbəkələrinə çıxışa dəstək mexanizmindən faydalanmış sahibkarların 15-ə yaxını regionlardandır. Bölgələrdə yeni məhsul və xidmət istehsalı üzrə sahibkarların müraciətləri və KOBİA-nın təşəbbüsü ilə 3 daxili bazar araşdırması aparılıb.

Agentlik bu günə qədər regionlarda fəaliyyət göstərən sahibkarlar və biznesə başlamaq istəyən şəxslər üçün ödənişsiz olaraq 3 mindən çox təlim, 80 min saata qədər məsləhət xidməti təşkil edib. KOBİA-nın dəstəyi ilə hazırlanmış biznes planların 700-ə yaxını da region sahibkarlarının və ya bölgələrdə icra olunacaq layihələrin payına düşür.

Bölgələrdəki sahibkarların biznes sahəsindəki yeniliklər və müasir çağırışlar, mövcud dövlət dəstəyi alətləri barədə məlumatlandırılması, qarşılaşdıqları məsələlərin, ehtiyac və təkliflərinin öyrənilərək müvafiq qurumlarla birgə həlli məqsədilə indiyədək KOBİA tərəfindən 20 mindən çox sahibkarın iştirakı ilə 580-ə yaxın sahəvi görüş və maarifləndirmə tədbiri təşkil olunub.



# İstehlakçılar bilgiləndirilir

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi Bakı şəhəri və regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün istehlakçı hüquqlarının müdafiəsi ilə bağlı keçirilən maarifləndirmə tədbirlərini davam etdirir.**

Növbəti görüş agentliyin təşəbbüsü, Bakı Şəhər İcra Hakimiyyəti və Nəsimi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə təşkil olunub. "Sahibkarlıq subyektləri ilə istehlakçı hüquqlarının müdafiəsi" mövzusunda keçirilən tədbirdə paytaxtın Nəsimi rayonunun ərazisində ticarət, ictimai iaşə, məişət və digər növ xidmət sahələri üzrə fəaliyyət göstərən sahibkarlıq subyektləri iştirak ediblər.

Toplantını giriş sözü ilə açan Nəsimi Rayon İcra Hakimiyyəti başçısının müavini Zahid Xəlilov tədbir iştirakçılarını salamlayaraq istehlakçı hüquqlarının müdafiəsi sahəsində keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətindən söhbət açıb. Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin istehlak bazarına nəzarət şöbəsinin müdiri Yusif Tapdıqlı və istehlakçı hüquqlarının müdafiəsi şöbəsinin müdiri Elşən Cəfərovun təqdimatla çıxış ediblər.

Çıxışlar zamanı ölkə iqtisadiyyatının dinamik inkişafı, əhalinin sosial rifahının daha da yaxşılaşması fonunda müxtəlif mal və xidmətlərə olan tələbatın artdığı qeyd olunub. Belə bir şəraitdə istehlakçıların öz hüquqlarının müdafiəsinə daha çox əhəmiyyət verdiyi diqqətə çatdırılıb. Eyni zamanda, ölkəmizdə istehlakçı hüquqlarının müdafiəsi üçün etibarlı və dayanıqlı mexanizmlərin formalaşdırıldığı, bu sahəni tənzimləyən bir sıra normativ-hüquqi aktların qəbul edildiyi vurğulanıb.

Görüş zamanı, həmçinin sahibkarlara istehlakçı hüquqlarının qorunması ilə bağlı hüquqi normalar izah edilib, şəffaf xidmətlərin göstərilməsi, istehlakçı etimadının qazanılması və müştəri məmnuniyyətinin artırılması istiqamətində fikir mübadiləsi aparılıb.

# Fermerlərə texnika almaq imkanı yaradılıb

## *I rübdə onlara 2,5 min maşın-mexanizm satılıb*



**Aqrar Kredit və İnkişaf Agentliyi kənd təsərrüfatı texnikası və avadanlıqlarının satışının maliyyələşdirilməsini davam etdirir. Kənd Təsərrüfatı Nazirliyinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin məlumatına görə, 2025-ci ilin birinci rübündə AKİA tərəfindən 2 min 480 kənd təsərrüfatı texnikası və avadanlıqlarının satışı maliyyələşdirilib. Satışı maliyyələşdirilən texnikalar arasında 10 taxılyığan kombayn, 613 traktor, 1857 digər texnika və avadanlıqlar var.**

Qeyd edək ki, ölkəmizdə kənd təsərrüfatı texnikasının satışı dövlət tərəfindən subsidiyalaşdırılır. Belə ki, fermerlər gömrük dəyərinin 20 faizi həcmində ilkin ödəniş etməklə kənd təsərrüfatı texnikası və avadanlıqlarına sahib olmaq imkanı qazanırlar. Texnikanın dəyərinin qalan 40 faizi AKİA tərəfindən ödənilir, digər 40 faiz isə banklar tərəfindən 60 ay müddətinə kreditləşdirilir. Kreditin əsas hissəsini fermer, ona hesablanmış faiz məbləğini isə AKİA ödəyir.

# Qeyri-neft ixracı 20 faiz artıb

**İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) məlumatına görə, cari ilin ötən 4 ayında Azərbaycanın qeyri-neft ixracının dəyəri 1 milyard 69 milyon dollar (2024-cü ilin analoji dövrü ilə müqayisədə 16 faiz çox) təşkil edib.**



Bildirilib ki, təkcə cari ilin aprel ayında ixrac olunan qeyri – neft məhsullarının dəyəri 297 milyon dollardan çox təşkil edib, bu da illik ifadədə 20 faizlik artım deməkdir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Milli istiqlalımızın bəyan edildiyi gün



**Hər il mayın 28-də Azərbaycan xalqı ən mühüm dövlət bayramlarından biri olan Azərbaycan Respublikasının Müstəqillik Gününü qeyd edir. Bu tarix 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) elan olunması – müsəlman Şərqində ilk dünyəvi demokratik dövlətin yaranması ilə əlamətdardır. Məhz həmin gün Azərbaycan dövlətçiliyinin təməli qoyulmuşdur. Bu hadisə uzun müddət İranın, sonra isə Rusiya imperiyasının tərkibində yaşamış xalqın azadlıq uğrunda mübarizəsinin nəticəsi idi.**

## Tarixi varislik

Müstəqillik Günü – yalnız bayram deyil, həm də milli kimliyimizin bəyan edildiyi tarixdir. 1918-ci il Müstəqillik Bəyannaməsində əks olunan prinsiplər müasir Azərbaycanın təməlini təşkil edir. Sovet işğalından sonra belə bu ideyalar unudulmadı – nəsildən-nəslə ötürülərək dövlətçiliyin bərpasına ümid simvolu kimi qorunub saxlanıldı.

1917-ci il inqilablarından və Rusiya imperiyasının süqutundan sonra Cənubi Qafqazda siyasi vakuum yarandı. 1918-ci ilin mayında Zaqafqaziya Seyminin dağılmasından sonra Məhəmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi müsəlman fraksiyası Azərbaycanın müstəqilliyini elan etdi. Tiflisdə qəbul edilmiş Müstəqillik Bəyannaməsi respublika idarəçiliyi formasını, xalq suverenliyini və bütün vətəndaşların – milliyyətindən, dinindən, sosial statusundan və ya cinsindən asılı olmayaraq – hüquq və azadlıqlarını təmin edirdi.

AXC-nin elan olunması beynəlxalq miqyasda mühüm hadisə idi. Azərbaycan müsəlman xalqları arasında ilk dəfə parlament demokratiyasını tətbiq etdi, qadınlara kişilərlə bərabər seçib-seçilmək hüququ verdi, vətəndaşların dini və etnik mənsubiyyətindən asılı olmayaraq bərabərliyini təmin etdi. Bu mənada Azərbaycan Qərb ölkələrindən bir çoxunu qabaqlayırdı.

1919-cu ildə AXC (bu, həm də Azərbaycan Demokratik Respublikası kimi, ADR adlanırdı) Fransada, Böyük Britaniyada və İtaliyada diplomatik nümayəndəliklərini açdı. Azərbaycan dünyada qadınlara seçki hüququ verən ilk dövlətlərdən biri oldu. Bu gün Azərbaycan Respublikasının dövlət bayrağı olan AXC bayrağı türk kimliyini (göy), islam ənənələrini (yaşıl) və müasirliyi (qırmızı) simvollaşdırır. Çətin geosiyasi vəziyyətə, sabitliyin olmamasına və xarici təhlükələrə baxmayaraq, cümhuriyyət 23 ay fəaliyyət göstərə bildi.

1920-ci ilin aprelində Sovet qoşunları tərəfindən işğal olundu və onun müstəqilliyi onilliklərlə itirildi.

## Müstəqilliyin bərpası və müasir tarix

Yalnız 1991-ci il oktyabrın 18-də, SSRİ-nin süqutu fonunda, Azərbaycan Müstəqillik haqqında Konstitusiya Aktını qəbul edərək öz dövlət müstəqilliyini bərpa etdi. 1992-ci ildən etibarən Müstəqillik Günü rəsmi bayram və qeyri-iş günü kimi qeyd olunur – təkcə ölkə daxilində deyil, həm də dünyanın müxtəlif yerlərindəki Azərbaycan icmaları tərəfindən.

## İnamdan – biliyə, ənənədən – dövlətə

Fəlsəfi fikir çoxdan sübut edib ki, milli ideya cəmiyyətin və dövlətin siyasi təcrübəsinin həyatında əsas rol oynayır. Milli ideya tarixi inkişaf istiqamətini müəyyənləşdirir, dəyərlər sistemini formalaşdırır və xalqın ideoloji birliyini təmin edir. Buna görə də hər bir millət öz milli ideyasını formalaşdırmalıdır – bu, siyasi özünüdərkin obyektiv ifadəsidir. Əks halda, həmin xalqın mövcudluğu daxili əsasını və perspektivini itirə bilər.

Milli ideya bir nəfərin fantaziyası deyil – o, kollektiv şüurun dərinliyindən yaranır, tarixi yaddaşda toplanır və dövrün konkret sosial-siyasi reallıqlarında dəstək tapır. Çoxmillətli dövlətdə milli ideya birləşdirici funksiyanı yerinə yetirmək və ərazi bütövlüyünü qorumaq üçün ölkə əhalisinin bütün maraqlarını – dilindən, etnik mənsubiyyətindən və dinindən asılı olmayaraq – nəzərə almalıdır.

Azərbaycan milli ideyası – mənəvi və siyasi müqavimətin ən güclü silahı kimi – formalaşmaq üçün uzun yol keçmişdir. Onun təşəkkülü cəmiyyətin inkişaf strategiyası və ümumi məqsədlər uğrunda mübarizə ilə müşayiət olunmuş, XIX – XX əsrin əvvəllərində azərbaycanlı nəsillərin bir çoxu bu yolda fəal iştirak etmişdir. Milli hərəkatın prioritetləri müəyyənləşdirilərkən əvvəlcə dini komponent üstünlük təşkil edirdi, lakin zamanla bu, milli özünüdərk üçün mədəni-tarixi paradiqmaya çevrildi və azərbaycançılıq ideyasının əsasını təşkil etdi.

## Dəyərlərimiz və bələdçilərimiz

Bu kontekstdə müasir İtaliyanın "atalarından" biri sayılan qraf Kamillo Kavorun sözlərini xatırlamaq yerinə düşərdi. 1861-ci ildə ölkənin uzunmüddətli birləşmə prosesinin başa çatmasından sonra o, tarixi bir ifadə səsləndirdi: "Biz artıq İtaliyanı yaratdıq, indi vəzifəmiz – italyanları yaratmaqdır". Hər bir aforizm mahiyyəti iti şəkildə ifadə etsə də, indiki Ukraynanın qarşısında oxşar vəzifənin dayandığını görməmək çətindir. Başqa tarixi-siyasi şəraitdə olsa da.

Bu barədə Ukraynanın Prezidenti Leonid Kuçma 2004-cü ildə Moskvada nəşr edilmiş "Ukrayna – Rusiya deyil" kitabında yazmışdır: "Əsas oxucu auditoriyam – Ukrayna və Rusiyadadır. Xüsusilə istərdim ki, bəzi rusiyalı siyasətçilər bu kitabı oxusunlar. Prezident vəzifəsi mənə "Ukrayna – Rusiya deyil" mövzusuna xüsusi baxış bucağından baxmaq imkanı verdi – bu baxış başqaları üçün o qədər də əlçatan deyil. Mən yaxşı başa düşürəm ki, bu həqiqəti dərk etməmək – niyyət pis olmasa da – ciddi problemlərə səbəb ola bilər. Axı bəzən xoşxassəli şiş də ölümcül ola bilir. Xoşbəxtlikdən, mən başqa halları da görmüşəm – anlayışın gəldiyini. Hələ hamıya gəlib çatmasa da, tarix davam edir".

Sonra o əlavə edirdi: "Söhbət özünü identifikasiya etməkdən və psixologiyadan gedir. Ukraynalı politoloq və sosioloqların fikrincə, Ukrayna xalqının konsolidasiyası prosesi hələ tamamlanmayıb. Biz hələ də tam olaraq kim olduğumuzu dərk etməmişik.

## Keçmişdə gələcəyin təməli var

1990-cı illərin əvvəllərində, Sovet İttifaqının dağılmasından sonra Azərbaycan parçalanmaq və vətəndaş müharibəsinə sürüklənmək təhlükəsi ilə üzləşdi. Ermənistanın Azərbaycan xalqına qarşı təcavüzü geniş vüsət aldı. İqtisadi, siyasi və digər sahələrdəki böhran böyük sınaqlara səbəb oldu. O dövrdə hakimiyyətdə olan rəhbərliyin təcrübəsizliyi və peşəkarlıq çatışmazlığı ölkəni idarəolunmaz hala salmışdı. Bu dövr Azərbaycanın taleyində həlledici idi: ya müstəqil dövlətə çevriləcəkdi, ya da daxili qarşıdurmalar və separatçı qüvvələrin dağıdıcı fəaliyyəti nəticəsində məhv olacaqdı.

Azərbaycan qarşısında "ölüm, qalım" seçimi dayanmışdı. Məhz bu kritik anda Azərbaycan xalqı, hətta Prezident Ə. Elçibəy belə, müdriklik göstərərək həmin dövrün görkəmli siyasi xadimi Heydər Əliyevə müraciət etdi. 1993-cü ilin iyun ayında Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi və bir neçə gündən sonra Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini yerinə yetirməyə başladı. Həmin ilin oktyabrında isə Azərbaycan xalqı onu rəsmi olaraq Prezident seçdi. O, 1993-cü il oktyabrın 10-da keçirilən inauqurasiya mərasimində söylədiyi sözləri hər addımı ilə təsdiqlədi: "Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Bu ağır zamanda üzərimə düşən məsuliyyətin dərəcəsini dərindən anlayıram və əmin edirəm ki, bütün fəaliyyətimlə, bütün həyatımla xalqın mənə bəslədiyi yüksək etimadı və ümidi doğrultmağa çalışacağam."

Azərbaycanın çoxetnikli təbiəti "birlikdə yaşamaq ideyasını" formalaşdırdı – bu ideya hələ Aristotel tərəfindən xalqın yetkinliyi və məsuliyyət hissi kimi izah olunurdu. Ümummilli lider Heydər Əliyevin siyasəti nəticəsində "millət" anlayışına bütün kollektiv identifikasiya formaları daxil edildi: etnik, dini, sosial-mədəni, siyasi və s. 1993-cü ilin iyun ayından etibarən milli ideya müstəqil və suveren dövlət formulunda inkişaf etdi. Bu gün çoxmillətlilik Azərbaycanın müasir dəyəri kimi yeni milli identifikasiya modelini formalaşdırır və onu "azərbaycançılıq" ideologiyası ilə eyniləşdirir – bu ideologiya dayanıqlı inkişaf və dövlət müstəqilliyinin möhkəmləndirilməsi kontekstində önəmlidir.

Azərbaycançılıq ideyası həm ideal, həm məqsəd, həm vasitə, həm də milli varlıq formulu kimi çıxış edir. Respublikanın əvvəlki rəhbərliyinin yaratdığı çətin vəziyyətdə – ölkənin taleyi həll olunan zaman – Azərbaycanın böyük oğlu xalqına sədaqətini nümayiş etdirdi. Faktiki olaraq, Heydər Əliyev 1988–1993-cü illər arasında altı rəhbər dəyişikliyinin baş verdiyi ölkəni parçalanmaqdan xilas etdi. O, iqtisadiyyatı bərpa etdi, xalqın hakimiyyət hüququnu təmin etdi və hüquqi vətəndaş cəmiyyətinin əsasını qoydu.

## Milli liderlik

Maraqlı bir hadisə yada düşür: Müəlliflərdən biri Ukrayna Prezidentinin yanında fəaliyyət göstərən Dövlət İdarəçilik Akademiyasında təhsil aldığı dövrdə bir professor ona belə demişdi: "Azərbaycan geridə qalmış, totalitar bir ölkədir, orada demokratiya yoxdur və s. ... Sənin bu fikirlərə qarşı arqumentlərin varmı?" Bir həftə sonra, o, materialları hazırlayıb həmin professora təqdim edib. Daha bir həftə sonra professor onu yanına çağırıb dedi: "Sən məni milli məsələ baxımından tərbiyə etdin. Bu materialları "Siyasət və mədəniyyət" jurnalına göndərdim, redaktora da səninlə görüşməyi tövsiyə etdim – əgər düzəlişlərin varsa, əlavə et, bu məqalə dərc olunacaq".

Həqiqətən, həmin məqalə 2000-ci ilin 5–11 sentyabr tarixlərində "Siyasət və mədəniyyət" adlı ümumukrayna həftəlik jurnalında "Millətin atası, yaxud niyə Azərbaycan xalqı Heydər Əliyevdən respublikanın xilasını xahiş etdi" sərlövhəsi ilə dərc olundu.

Məqalədə qeyd olunurdu ki, azərbaycançılığın əsas dəyərlərinə sədaqət Azərbaycan xalqını birləşdirən amilə çevrilmişdi. Bu da ictimai sabitliyi və rifahı, islahatların uğurunu və milli maraqların qlobal siyasətdə həyata keçirilməsini təmin edirdi.

## Millətin kursunu müəyyənləşdirən şəxsiyyət

Heydər Əliyevin müstəqil və sabit dövlət quruculuğu yolunda atdığı addımlar Azərbaycanın tarixi sıçrayışının əsasını qoydu. Onun rəhbərliyi altında Milli Ordu yaradıldı – bu, milli maraqların qorunmasının, dövlət iradəsinin və gücünün simvolu idi. Heydər Əliyevin qətiyyətli siyasəti nəticəsində təkcə ölkənin müstəqilliyi qorunmadı, həm də davamlı iqtisadi inkişafın möhkəm təməli qoyuldu.

Ulu öndər dəfələrlə vurğulayırdı ki, əsl müstəqillik milli sərvətlərin tam sahibinə çevrilməkdir. Məhz bu dövrdə Azərbaycan öz sərvətləri üzərində tamhüquqlu sahiblik edən suveren subyekt kimi ilk dəfə çıxış etdi. Ölkə genişmiqyaslı regional və beynəlxalq enerji layihələrində tamhüquqlu iştirakçıya çevrildi, qlobal enerji təhlükəsizliyi sisteminə inteqrasiya olundu. Bu addımlar 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbuluna zəmin yaratdı – bu sənəd dövlətin sabit inkişafı üçün hüquqi baza oldu.

## Azərbaycançılıq – milləti birləşdirən ideya

Heydər Əliyev daim vurğulayırdı ki, dil, ənənələr və mədəni dəyərlər milli birliyin ən mühüm alətləridir. O deyirdi: "Hər bir xalq doğma dili ilə yaradılır". Onun təşəbbüsü ilə hələ 1978-ci il Konstitusiyasında Azərbaycan dilinə dövlət dili statusu verildi. Bu, sovet dövründə cəsarətli addım idi. 2007-ci ildə isə ana dilinin qorunması və inkişafına verdiyi töhfəyə görə o, Atatürk adına mükafata layiq görülmüşdür (ölümündən sonra).

Heydər Əliyevin formalaşdırdığı azərbaycançılıq məfkurəsi etnik kateqoriyadan çıxaraq, Azərbaycanda yaşayan bütün xalqları və Azərbaycanı öz vətəni kimi qəbul edənləri birləşdirən inteqrasiya platformasına çevrildi. Bu ideya milli kimliyin qorunması, mənəvi köklərə hörmət və eyni zamanda, ümumbəşəri dəyərlərlə inteqrasiyaya açıq olmağı özündə cəmləyir.

## Dövlət insanı, insan isə dövləti ilə tanınır

Heydər Əliyev insanlarla elə danışmağı bacarırdı ki, hər bir vətəndaş bu müraciəti fərdi şəkildə qəbul edirdi. Liderlə cəmiyyət arasındakı bu dərin bağ ictimai etimadın, sabitliyin və həyata keçirilən islahatların uğurunun əsas amillərindən birinə çevrildi. O, dünyanın hər yerində yaşayan azərbaycanlıları həmrəyliyə, bir-birini dəstəkləməyə, milli ənənə və bayramları – harada yaşamasından asılı olmayaraq – qoruyub saxlamağa çağırırdı. Onun fikrincə, azərbaycançılıq sadəcə etnik özünütəyin deyil, həm də hər kəsi vahid tarixi-mədəni birlikdə birləşdirən mənəvi və vətəndaş məsuliyyəti idi.

## Gələcəyin yol göstəricisi

Heydər Əliyev bütün siyasi fəaliyyəti boyu Azərbaycanın müstəqilliyini qorumaq və möhkəmləndirmək prinsiplərinə sadiq qalmışdır. O yaxşı başa düşürdü ki: "Müstəqillik yolu ən çətin yoldur", – lakin ölkəni bu yolla inamla aparır, onu hüquqi, sosial, iqtisadi, mədəni və beynəlxalq sahədə möhkəmləndirirdi.

1999-cu ildə sülhə sadiqliyinə, demokratiyanın inkişafına və postsovet məkanında liderliyinə görə Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi Heydər Əliyevə "XX əsrin görkəmli şəxsiyyəti" fəxri adını verdi. Azərbaycan rəhbəri daim Vətən sevgisi, xalqına sədaqət, ədalət və humanizm axtarışı ilə əhatə olunurdu. O inanırdı: "Hər kəs həyatda özü seçir – şöhrətmi, yoxsa rüsvayçılıq, şəxsi rifah, yoxsa vətəndaşlıq borcu, mənfəət, yoxsa vicdan."

## Heydər Əliyev Fondu – böyük ideyanın davamı

Azərbaycançılıq milli ideyasının dərinliklərindən qaynaqlanan Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti, təsis edildiyi gündən etibarən Azərbaycanın mənəvi və mədəni irsinin qorunması və təbliği baxımından ən vacib institutlardan birinə çevrilmişdir. Fond ümummilli liderin vəsiyyətlərini həyata keçirərək, keçmişə hörmətlə yanaşmaqla layiqli gələcək tərbiyəsi istiqamətindəki səylərini əks etdirir.

Fondun rəhbəri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın və vitse-prezident Leyla Əliyevanın rəhbərliyi ilə müasir cəmiyyətin şüurunu formalaşdıran milli-mənəvi idealların möhkəmləndirilməsi istiqamətində geniş və hərtərəfli iş aparılır. Onların fəaliyyəti cəmiyyətdə humanist dəyərlərin, kimliyin, tarixi ardıcıllığın və mədəni bütövlüyün gücləndirilməsinə yönəlib.

Heydər Əliyev Fondunun layihələri elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın inkişafı, gənclərin dəstəklənməsi, eləcə də dünya ictimaiyyətinə Azərbaycanın həqiqətlərinin çatdırılması kimi strateji əhəmiyyətli sahələri əhatə edir. Bu təşəbbüslər birbaşa Heydər Əliyevin başladığı işin davamı, milli yaddaşın qorunması, tarixi həqiqətin və xalqın mədəni ləyaqətinin təsdiqidir.

Fondun yaradılması xalqın böyük oğluna olan sevgi və dərin ehtiramının ifadəsi oldu. Heydər Əliyev bütün həyatı boyu Azərbaycanın mədəni sərvətlərini toplayır, qoruyur və yaşadırdı. İncəsənət, ədəbiyyat, musiqi, memarlıq, tarixi abidələr – bütün bunları o, mənəvi gücün, gözəlliyin və humanizmin əbədi rəmzləri kimi dəyərləndirirdi. Azərbaycançılıq ideologiyasının formalaşmasına, diaspor hərəkatının inkişafına və milli qürur hissinin tərbiyəsinə onun verdiyi töhfəni qiymətləndirmək çətindir. "Yüksək mədəniyyətə sahib olan xalq həmişə irəli gedəcək, yaşayacaq və inkişaf edəcək," – deyirdi Heydər Əliyev.

## Kiyev – Bakı: sınaqdan çıxmış tərəfdaşlıq

Hələ sovet rəhbərliyində yüksək vəzifələrdə çalışdığı dövrdə Heydər Əliyev Ukraynanın inkişafına mühüm töhfələr vermişdi. Parlaq nümunələrdən biri – 1980-ci illərin sonlarında Dunay və Dnepr çaylarının birləşdirilməsi layihəsinin həyata keçirilməsi məsələsi qaldırıldıqda, onun qəti müdaxiləsi olmuşdur. Bu layihə təkcə Ukraynaya deyil, bütün Şərqi Avropaya ekoloji fəlakət təhlükəsi yaradırdı. Ukraynanın baş naziri Vitold Fokin Moskvada dəstək ala bilmədiyi üçün birbaşa Heydər Əliyevə müraciət etdi. Onun müdaxiləsi sayəsində layihə dayandırıldı.

Heydər Əliyevin Ukraynaya dəstəyi təkcə təhlükəsizlik məsələləri ilə məhdudlaşmırdı. Onun təşəbbüsü ilə Kiyev Milli Filarmoniyasının bərpası üçün vəsait ayrılmışdı – bu bina bu gün Ukraynanın mədəni irsinin simvoluna çevrilmişdir. Onun dəstəyi ilə "Obolon" zavodu və uşaq qida fabriki inşa olunaraq istismara verilmişdir. Kiyev metrosunun inkişafına da Heydər Əliyev kömək etmişdir – bu, Ukrayna paytaxtının nəqliyyat infrastrukturuna mühüm töhfə idi.

Ukraynada Heydər Əliyevə görkəmli siyasi xadim kimi böyük hörmət və minnətdarlıqla yanaşılırdı. O, "Yaroslav Mudrı" ordeni ilə təltif edilmiş, Kiyevin fəxri vətəndaşı və Ukrayna Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasının fəxri doktoru adına layiq görülmüşdür. Onun adı Kiyevdəki Azərbaycan Səfirliyi yaxınlığındakı parkda əbədiləşdirilmiş, Bakıda yerləşən Ukrayna Mədəniyyət Mərkəzində isə Heydər Əliyevin abidəsi ucaldılmışdır. 2004-cü il iyunun 4-də Kiyevdə dünyanın ilk Heydər Əliyev abidəsinin açılış mərasimində Ukrayna Prezidenti Leonid Kuçma demişdi: "Heydər qədim türk dilindən tərcümədə "öndə çaparaq gedən süvari" deməkdir – bu ad böyük liderin ruhunu və məqsədyönlülüyünü tam əks etdirir".

## Dövlətçiliyi möhkəmləndirən dostluq

Leonid Kuçma və Heydər Əliyev münasibətlərini qarşılıqlı etimad və hörmət üzərində qurmuşdular. Ukraynanın sabiq müdafiə naziri Valeri Şmarovun xatirələrinə görə, Azərbaycanın dağılmasının qarşısının alınmasında Ukraynanın mənəvi dəstəyi həlledici rol oynamışdır. Məhz iki prezidentin şəxsi dostluğu sayəsində həm xarici, həm daxili rəqiblərlə dialoq başlandı, xaos dayandırıldı və müstəqillik qorundu. Ukrayna və Azərbaycanın birgə səyləri öz bəhrəsini verdi: sənayenin və elmin inkişafı, Avropa ilə Asiya arasında nəqliyyat dəhlizlərinin yaradılması, qlobal enerji layihələrində iştirak… bu qəbildəndir.

Ukraynaya neft tədarükünün şərq marşrutu bağlandıqda, Azərbaycan kənarda qalmadı – sabiq baş nazir Anatoli Kinaxın yazdığı kimi, dost dövlətə vaxtında yardım edərək mənəvi borcunu yerinə yetirdi.

## Azərbaycan diplomatiyası və onun dərsləri

Azərbaycan – Ukrayna münasibətlərinin inkişafında xüsusi rol Heydər Əliyevə, daha sonra isə İlham Əliyevə məxsusdur. Onlar təkcə dövləti siyasi təlatümlər şəraitində qoruyub saxlamaqla kifayətlənməyib, həm də onu bütün region üçün davamlılıq nümunəsinə çevirdilər. Ukrayna da bu təcrübədən dəyərli dərs götürə bilər: yalnız strateji liderlik və müdrik diplomatiya vasitəsilə milli suverenliyi qorumaq mümkündür.

Müasir Azərbaycanın tarixi Heydər Əliyev şəxsiyyəti ilə ayrılmaz şəkildə bağlıdır – o, sabit və müstəqil dövlətin əsaslarını qoymuş milli liderdir. Onun siyasi irsini Prezident İlham Əliyev davam etdirir. O, xüsusilə ölkənin ərazi bütövlüyünü bərpa etməsi ilə fərqlənir. Bu isə müasir dövlətçiliyin əsas nailiyyətlərindən biridir.

## Diaspor – xalqlar arasında körpü

Ukraynada Azərbaycan diasporu hər zaman mühüm rol oynamışdır – həm milli kimliyin qorunmasında, həm də ümumbəşəri və tolerant dəyərlərin təşviqində. Ümummilli lider Heydər Əliyevin şəxsi diqqəti sayəsində XXI əsrin əvvəlində Ukraynadakı diaspor vətəndaş yetkinliyi və mədəni qarşılıqlı hörmət nümunəsinə çevrilmişdi. Zamanla diasporda müəyyən fikir ayrılıqları yaransa da, onun əksər üzvləri hələ də ziyalılıq, vətənpərvərlik və birliyə can atma nümunəsi göstərməkdədirlər.

Dünya azərbaycanlılarının IV qurultayında Prezident İlham Əliyev vurğulayırdı: "Biz bir məqsədə xidmət edirik – Azərbaycanı daha güclü etmək. Diaspor təşkilatları və səfirliklər qarşılıqlı əlaqədə olmalı, əlaqələri möhkəmləndirməli və ölkənin maraqlarını irəli aparmalıdır".

Azərbaycançılıq bir ideologiya kimi – təkcə mədəni kod deyil, həm də qlobal həmrəyliyin təməlidir. Bu ideya milyonları birləşdirib və zamanın sınağından çıxıb. Heydər Əliyev dəfələrlə deyirdi: "Böyük siyasət xırda hisslərə və maraqlara tabe etdirilə bilməz".

## Dünyada hörmət edilən dövlət

Son bir neçə onillik – ərzində Azərbaycan müstəqil beynəlxalq subyektə çevrilmiş, müstəqil xarici siyasət yürütmüş, regional sabitliyi, multikulturalizmi və iqtisadi tərəfdaşlığı möhkəmləndirmişdir. Bütün bu nailiyyətlər Heydər Əliyev fenomeni, onun uzaqgörən irsi və güclü siyasi varislik sayəsində mümkün olmuşdur.

Respublika Gününün qeyd olunması – təkcə tarixə ehtiram deyil, həm də gələcəyə yol göstəricidir. Müasir azərbaycanlılar bu gündə yalnız əcdadların qəhrəmanlığını deyil, həm də öz məsuliyyətlərini görürlər. Bu tarix artıq getdikcə daha çox maarifləndirici və vətənpərvərlik xarakteri daşıyır. Xüsusən gənclər arasında.

***Arif QULİYEV,***
***Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru,***

***Qn a HƏSƏNOV,***
***Melitopol Dövlət Pedaqoji Universitetinin aspirantı***




Replika

# Təbrik ariyası



**...Xeyr, məqsədimiz Cəfər Cabbarlının miskin qəhrəmanı ilə Bakıda məhkəməsi davam edən təqsirləndirilən şəxsi – erməni Ruben Vardanyanı müqayisə predmetinə çevirmək deyil. Onun böyük dramaturqumuzun qadın felinə uyub milli dəyərlərə arxa çevirməsinin acı aqibətini yaşayan Balaş obrazı ilə oxşarlığı, olsa-olsa, çəkdikləri fərdi əzabların ictimai məzmunu ilə yox, mənəvi-psixoloji forması ilə üst-üstə düşə bilər. Amma bu zaman "tamaşanın" məkan və zaman kimi əsas komponentləri ciddi korrektəyə məruz qalmalıdır.**

Hadisə 57 il bundan əvvəl baş verib. İndi "qəhrəmanımız" günahkar dünyamıza gəlişinin, keçən il olduğu kimi, budəfəki öldönümü də dördbucaqlı dəmir barmaqlıqların arxasında qeyd etmək "zövqünü yaşamaqdadır". Bu münasibətlə ona yaxından-uzaqdan təbrik mesajları, məktublar və teleqramlar gəlməkdə davam edir. İndi bunlardan maraqlılarından birini oxucuların diqqətinə təqdim edəcəyik.

...Parisdə "Aznavur" fondu adlı bir qurum var. Erməni əsilli fransız şansonu Şarl Aznavurun şərəfinə yaradılan bu fond özünün "X" sosial şəbəkədəki səhifəsində Nikolas və Kristina Aznavurlar adından Ruben Vardanyana ad günü münasibətilə ünvanlanmış təbrik məktubunu dərc edib. Bundan əvvəl isə Parisin 9-cu dairəsinin meri madam Delfin Burkli və Ermənistanın Fransadakı səfiri Hasmik Tolmacyanın iştirakı ilə Vardanyanın "ad günü" mərasimi keçirilib. İndi isə fondun məktubuna diqqət yetirək: "Hörmətli Ruben! Bu əlamətdar gündə bizim üçün nə qədər dəyərli olduğunuzu söyləmək istəyirik. Sizi təkcə bir dost kimi deyil, həm də Ermənistana və erməni xalqına sadiqliyi ölkəmizin müasir tarixində silinməz iz buraxmış bir insan kimi sevirik. Gələcək nəsillər üçün daha yaxşı gələcək qurmaq naminə sizin sərf etdiyiniz gücünüzə, dünyagörüşünüzün diapozonuna və aydınlığına, həvəsinizə çoxdan heyran olmuşuq. Siz heç vaxt cəsarətli addımlar atmaqdan, xoşagəlməz həqiqətləri söyləməkdən və ya üzərinizə ən çətin vəzifələri götürməkdən qorxmamısınız. Həmişə öz ölkənizə dərin məhəbbət və övlad borcu hissini rəhbər tutmuşsunuz. Bu gün həyatınızın ən çətin dövrlərindən birini yaşadığınız bir vaxtda düşüncələrimiz hər zamankından daha çox sizin və ailənizin yanındadır".

...Olduqca "səmimi", çox "təsirli" sözlərdir – deyilmi? Xüsusilə təbrikin səbəbkarının Hayastanın "müasir tarixində silinməz izlər buraxması" ilə bağlı olan hissəsi oxucunun qəlbini "riqqətə gətirir". Amma "çirkli milyarder" Rubenin həm Rusiya–Avropa, həm Avropa–Latın Amerikası, həm də Rusiya–Qarabağ marşrutlarında hansı "silinməz izləri" buraxdığını Bakı Hərbi Məhkəməsinin təcrübəli və səriştəli istintaqçıları araşdırmaqdadırlar. Bu izlərin aparıb hara çıxaracağı "ünvanlar" da tezliklə bəlli olacaq. Vardanyan isə saxlanıldığı müvəqqəti istintaq təcridxanasında qaranlıq əməllərini gün işığına çıxaracaq həmin "ünvanların" xofundan komaya düşmək həddinə çatıb. Deyəsən, son aqibətini indidən gözünün önünə gətirən Rubenə "Aznavur" fondundakı heyranlarının "bu doğum günü, hətta belə şəraitdə belə, sizə istilik anları gətirəcək – tək olmadığınızı və cəsarətinizin bir çoxumuzu ruhlandırmaqda davam etdiyini xatırladır. Sizinlə yenidən azadlıqda görüşəcəyimiz və dərindən inandığımız işi birlikdə davam etdirəcəyimiz günü səbirsizliklə gözləyirik" kimi təsəlliverici sözləri də təsir göstərmir. O, doğum gününə "təbrik ariyası"nın içində tez-tez zümzümə elədiyi hay notlarını hansı günlərə qaldığını anladan "Balaşın ariyası" ilə aranjiman etməklə məşğuldur. Onun indiki durumuna tam uyğun gələn məşğuliyyət elə budur...

**PS .** Azərbaycanın qədim şəhəri Xankəndidəki Mədəniyyət Mərkəzinin ərazisində yerləşən Ermənistan–Fransa Dostluq Parkında "Ermənistanın milli qəhrəmanı" Şarl Aznavurun büstü qoyulmuşdu. Dörd il əvvəl, təbii olaraq, adı dəyişdirilmiş təzə park köhnə yükdən də azad olunub.

**PP S .** İki gün bundan əvvəl 57 yaşı tamam olmuş təqsirləndirilən şəxs Vardanyanın ünvanına xaricdə səsləndirilən, falş hüquqi notlara köklənmiş "siyasi sonetləri" də eşidirik. Onların müəllifləri müxtəlif qitələrdən və irqlərdən olan "bəstəçilər"dir. "Musiqinin sifarişçiləri" isə, bir qayda olaraq, erməni lobbisidir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Qlobal geosiyasət və Türk Dövlətləri Təşkilatı



**IV MƏQALƏ**

### Türk Dünyası Xartiyası

Macarıstanda qəbul edilən bəyannamədə göstərilir ki, "...dövlət başçıları Türk Dünyası Xartiyasını (DTX) türk xalqlarının ortaq mədəniyyətinin, adət-ənənələrinin, dilinin və tarixinin əsas ifadəsi və onların ortaq türk kimliyinin möhkəmləndirilməsi üçün birləşdirici çərçivə kimi tanıyıblar".

Məlumdur ki, TDX 2024-cü il noyabrın 6-da Bişkekdə keçirilən 11-ci Zirvə toplantısında qəbul edilmişdir. Xartiya Naxçıvan müqaviləsi və "Türk dünyası 2040 Baxışı" sənədləri əsasında hazırlanmışdır. Əsas məqsəd türk kimliyi əsasında tarixi, mədəni, dil və ənənəvi əlaqələri möhkəmləndirməkdən, türk dövlətləri arasında çoxşaxəli əməkdaşlığın miqyasını genişləndirməkdən və beynəlxalq hüquq prinsiplərinə sadiq qalmaqdan ibarətdir.

Türk dövlətləri başçıları Ortaq Türk dünyasını qoruyub saxlamağı üstün tutmaq ideyasını qəbul etmişlər. Əsas məqamlardan biri ondan ibarətdir ki, TDT üzvləri beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq dövlətlər arasında münasibətlərin qurulmasının yeni prinsiplərini müəyyən etmişlər. Onu türk əməkdaşlığının modeli kimi təsəvvür etmək gərəkdir.

Bundan başqa, TDX-nın mühüm özəlliklərindən biri əməkdaşlıq mərhələlərini həyata keçirmək prinsipinin önə çıxarılmasıdır. O cümlədən, ortaq türk mədəni irsi, ortaq əlifba və ortaq türk dilinin formalaşması əməkdaşlıq prosesinin vacib mərhələləri kimi qəbul edilmişdir.

Vurğuladığımız məqamların prizmasında hansı səbəblərdən Xartiyanın qəbulundan heç bir il keçməmiş TDT-nin Budapeştdə ona bir daha qayıtmasının səbəbləri aydın olur. Belə görünür ki, türk dövlətləri TDT-yə qarşı aparılan informasiya, siyasi, diplomatik və ideoloji təbliğatın fərqinə ciddi surətdə varmışlar. Bir neçə istiqamətdən türk xalqlarını və dövlətləri bir-birindən uzaqlaşdırmaq xəstəliyinə tutulmuş dairələrin fəaliyyətləri getdikə genişlənir. Öncəki məqalələrdə vurğuladığımız kimi, çox təəssüf ki, TDT-yə qarşı prosesdə "sapı özümüzdən olan baltalar" da canfəşanlıq edirlər.

Belə alınır ki, TDT bundan sonra daha dərindən və geniş miqyasda təşkilatı laxlatmağa göstərilən cəhdlərə qarşı çıxacaqdır. Bu da o deməkdir ki, yaxın perspektivdə türk dövlətləri daha intensiv surətdə ideoloji və informasiya savaşının mərkəzində olacaqdır. Türk cəmiyyətləri bütövlükdə bu mübarizədə iştirakın vacibliyini və yalnız qələbəyə hesablanmış fəaliyyət göstərməli olduğunu qəbul etməlidir.

### Ortaq Türk dünyası

Bu anlayışın mədəni, etnik, coğrafi, siyasi, iqtisadi və geosiyasi aspektləri vardır. TDT onların hamısını qarşılıqlı əlaqədə özündə ehtiva edir. Buna görədir ki, Ortaq Türk dünyasının formalaşması həm mərhələli prosesdir, həm də çox sayda faktoru nəzərə almağı tələb edir. İndiki mərhələdə Ortaq Türk dünyasından ortaq türk kimliyinə keçid üstünlük təşkil edir. Eyni zamanda, Ortaq Türk dünyasının mədəni, siyasi və geosiyasi istiqamətlərdə formalaşması prosesi başa çatmamışdır. Macarıstan Sammitində bu istiqamətdə türk dövlətlərinin fəaliyyətlərini davam etdirməkdə qərarlı olduqları xüsusi vurğulanmışdır. Bununla "Ortaq Türk dünyası" anlayışının iki mühüm aspektinin uyğunlaşdırılması ön plana çıxmalıdır.

Birincisi, Ortaq Türk dünyası ortaq mədəniyyət məkanı kimi dərindən qavranılmalıdır.

İkincisi, Ortaq Türk dünyasının siyasi və geosiyasi özünütəsdiqi hüquqi kontekstdə yekunlaşmalıdır. Bu prosesin mühüm tərkib hissəsi TDT-nin Türk dünyasını təmsil edən təşkilat kimi beynəlxalq ictimaiyyət tərəfindən siyasi, hüquqi və geosiyasi qəbul edilməsindən ibarətdir. Bizcə, Macarıstan Sammitində bu aspekt ciddi yer almışdır. Onun konkret ifadəsi bir neçə bənddə əks olunmuşdur.

Məsələn: "Təşkilatın üzvləri regionda və onun hüdudlarından kənarda sülh və təhlükəsizliyə təhdid və çağırışlar yaradan terrorizm və transmilli mütəşəkkil cinayətkarlığın bütün formaları, terrorizmin maliyyələşdirilməsi və kibercinayətkarlıqla mübarizədə birgə səyləri davam etdirməyə sadiqliklərini bir daha təsdiqləyirlər"; "TDT-nin müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlığının gücləndirilməsini təşviq etmək, mümkün olduqda bir-birinin namizədliklərini, qətnamələrini, bəyanatlarını və beynəlxalq təşkilatlar çərçivəsində ortaq maraqlara əsaslanan digər təşəbbüsləri daha güclü qarşılıqlı əlaqələndirmək və dəstəkləmək"; "İrqçiliyin, ayrı-seçkiliyin, ksenofobiyanın, İslama qarşı nifrətin və dezinformasiyanın bütün formaları ilə mübarizədə əməkdaşlığı davam etdirmək məqsədilə beynəlxalq platformalarda səyləri əlaqələndirilmək"; "Qlobal miqyasda mədəniyyətlərarası dialoqun təşviqində qabaqcıl təşəbbüs kimi "Bakı prosesi"nin uğuru yüksək qiymətləndirilir və Azərbaycan bu istiqamətdə davamlı liderliyinə görə təqdir edilir" və s.

### Qərbin TDT-yə münasibəti

Qərbin Türk Dövlətləri Təşkilatına münasibətinə Azərbaycanın II Qarabağ müharibəsində zəfəri ciddi təsir etmişdir. Lazur Sahili Universitetinin ictimai hüquq professoru Kristian Vallar bununla bağlı 2025-ci ilin yanvar ayında keçirilən tədbirdə demişdir ki, "2020-ci ilə qədər Bakı və Paris arasında münasibətlər dinamik və məhsuldar şəkildə inkişaf edib. 2017-ci ildə ilk səfərim zamanı Bakıda fransız diplomatları ilə görüşdüm və onlar iki ölkə arasında ticari-iqtisadi əlaqələrin inkişaf perspektivlərini qeyd etdilər. Lakin 2020-ci ildən sonra bütün uğurlu proseslər dayandı. Azərbaycan Cənubi Qafqaz regionunda mühüm yer tutur".

Bu onu ifadə edir ki, Fransa da daxil olmaqla, Aİ-nin böyük dövlətləri Azərbaycanın qələbəsini adekvat dərk edə bilməmişlər və bu da bütövlükdə Qərbdə ənənə halını almış bir yanlış təsəvvürün hələ də qaldığını göstərir. Qərbli analitiklər və alimlər onu qısa belə ifadə edirlər: "Avropa Türk birliyini özlərinə təhdid kimi qəbul edirlər". K.Vallar da daxil olmaqla avropalı intellektuallar bu yanlış yanaşmanın dəyişdirilməsi vaxtının çatdığını xüsusi qeyd edirlər. Proseslər də göstərir ki, Vaşinqton və Londonun da müsbət təsirləri nəticəsində Qərb siyasi şüurunda TDT-nin yeri və rolu tədricən müsbətə doğru yeniləşir. Bu proses əsas olaraq Azərbaycan və Türkiyənin fəaliyyəti sayəsində baş verir. Onun artıq iki mühüm əlamətini vurğulaya bilərik.

Birincisi, Azərbaycan ən yüksək səviyyədə Avropanın enerji və milli təhlükəsizliyinin təminatçılarından biri kimi qəbul edilir. Bunun fonunda Aİ-nin TDT siyasəti yeni məzmun alır. Yəni artıq TDT Aİ üçün (həm də digər böyük güclər üçün) adi bir təşkilat deyildir – onun fəal üzvü Azərbaycan Uzaq Şərqdən Avropaya qədər geniş bir geosiyasi məkanda aktiv fəaliyyət göstərir və çox sayda dövlətə öz müsbət töhfəsini verir.

İkincisi, Türkiyə geniş bir geosiyasi məkanda əsas söz sahiblərindən biri kimi özünü təsdiq edir. Onun əlaməti olaraq ABŞ-ın Türkiyənin xeyrinə bir sıra regionlardan çəkilməyə başlamasını və Rusiyanın Türkiyə faktoruna qlobal dünya düzəni kontekstində getdikcə daha çox önəm verməsini göstərə bilərik.

### TDT yeni mərhələdə

Yuxarıda vurğuladığımız faktlar və proseslər fonunda Macarıstan sammitindən TDT üçün yeni mərhələnin başladığı nəticəsini çıxara bilərik. Bu mərhələdə başlıca hədəf "Ortaq Türk dünyası" ideyasının TDT timsalında siyasi, geosiyasi və hüquqi statusunun tamamlanmasından ibarətdir. Həmin prosesin iki aparıcı gücü vardır – Azərbaycan və Türkiyə!

Bu mərhələnin əsas əlaməti geosiyasi aspektdə TDT-nin yeni güc olmasının özünütəsdiq etməsi olacaqdır. "Yeni güc" dedikdə TDT-nin başqa regional və beynəlxalq təşkilatlardan fərqli olaraq yalnız ədalətlilik, hüquqilik və qarşılıqlı faydalı əməkdaşlıq kriteriyaları əsasında yeni dünya düzəni yaratmaq istiqamətində fəaliyyət göstərəcəyi nəzərdə tutulur. Bununla TDT-nin bir təşkilat kimi qlobal geosiyasi düzəndə əsas qüvvələrdən biri olması reallaşacaq.

Bu ümumi tezisin semantikasında TDT-nin bir təşkilat kimi müasir özəlliyi vardır.

### İttifaq dövləti, yaxud dövlətlərin ittifaqı?

Siyasi-hüquqi ədəbiyyatda "ittifaq dövləti" ilə "dövlətlərin ittifaqı" arasında ciddi semantik və funksional fərqlərin olduğu vurğulanır. İttifaq dövlətində hakimiyyət üzv dövlətlərin "üstündədir" – ona tabeçilik vahid Konstitusiya ilə müəyyən edilir. "Dövlətlər ittifaqı"nda isə ittifaq hakimiyyəti üzv dövlətlərdən asılı olur. Yəni üzvlərin hər birinin suverenliyi və müstəqilliyi tam təmin edilir. Dövlətlərin ittifaqı millətlərüstü vahid hakimiyyət formalaşdırmır (İ.Q.Blyünçli, Q.Ellinek, N.M.Korkunov və başqaları). Burada Avropa İttifaqı istisnadır, lakin onun üzləşdiyi problemlər dünyaya məlumdur. Bəs TDT vurğulanan birlik növlərindən hansına aid edilə bilər?

Türk Dövlətləri Təşkilatının fərqi onun bazasını Ortaq Türk dünyası məkanının təşkil etməsi ilə bağlıdır. Çünki "Ortaq Türk dünyası" hüquqi statusu olan təşkilatın yaranması üçün öncədən mədəni, mənəvi, tarixi, siyasi, iqtisadi və geosiyasi təməl formalaşdırır. Bu da konkret təşkilatın mahiyyəti və məqsədində mədəniyyət, humanitarlıq, əməkdaşlıq və təhlükəsizliyi ön sıraya çıxarmaqla yanaşı, üzv dövlətlərin suverenliyi və müstəqilliyinin tam təminatı mexanizminin qurulmasını şərtləndirir.

Bu anlamda TDT güclü potensialı olan yeni növ regional təşkilatdır! Təşkilat türk dövlətlərinin ortaq maraqları istiqamətində əməkdaşlığı gücləndirəcək imkanlara və planlara malikdir. Bununla TDT regional və qlobal miqyasda Türk dünyasının səsi olacaq . Türklərin sülh, barış, əməkdaşlıq, ədalətlilik, təhlükəsizlik və humanitarlıq səsi! Bu keyfiyyətdə TDT yeni dünya düzəninin əsas geosiyasi güclərindən biri statusuna mütləq surətdə yüksələcək!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Baş Prokurorluq Qəbələdə regional konfrans keçirib

**Mayın 27-də Qəbələdə Baş Prokurorluğun təşkilatçılığı ilə "Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun rolu" mövzusunda regional konfrans keçirilib.**



Tədbirdə 12 regionun prokurorluq orqanlarının media ilə işləməyə məsul əməkdaşları, dövlət və qeyri-hökumət təşkilatları, media qurumları, təhsil müəssisələri və hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak ediblər.

Baş Prokurorluğun Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq və əməliyyat-axtarış fəaliyyətində qanunlara nəzarət idarəsinin rəisi Mahir Abbasov milli suverenliyin hüquqi əsasları və təminat mexanizmləri barədə geniş məlumat verib.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova, Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi Elşad Hacıyev, Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə əlaqələr idarəsinin rəisi - mətbuat katibi Anar Eyvazov, Baş Prokurorluğun mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, mətbuat Şurasının icraçı katibinin müavini Fəridə Ağazadə, Qəbələ Rayon Ağsaqqallar Şurasının üzvü Telman Abdulxalıqov çıxış edərək milli suverenliyin hüquqi əsaslarının möhkəmləndirilməsində hüquq-mühafizə orqanlarının funksional rolundan, Ordumuzun formalaşması və müasir silahlı qüvvələrin yaradılmasının milli maraqların təminatında həlledici faydasından, dövlət orqanlarının fəaliyyətinə inamın gücləndirilməsi və milli suverenliyin dayanıqlı şəkildə qorunması üçün hüquqi informasiyanın düzgün və vaxtında çatdırılmasının vacibliyindən danışıblar.

*XQ*

# QMİ-də islamofobiya müzakirəsi

**Mayın 27-də Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadənin Bakıda keçirilən "İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda beynəlxalq konfransın iştirakçıları ilə görüşü olub.**



Toplantıda çıxış edən şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə keçirilən "İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda beynəlxalq konfransın İslam dininə qarşı qlobal səviyyədə formalaşan yanlış təsəvvürlərin aradan qaldırılması, dini dözümlülüyün və multikultural dəyərlərin təşviqi, habelə İslamın sülhsevər mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

O, Azərbaycanın İslam həmrəyliyi, multikulturalizm və dini tolerantlıq prinsiplərinə sadiqliyini, dövlətimizin başçısı İlham Əliyevin bu istiqamətdəki prinsipial mövqeyini diqqətə çatdırıb.

Ölkəmizdə rəsmi səfərdə olan Misir Ərəb Respublikası Senatının sədri Abdel Vahab Abdel Razeq çıxış edərək dünyada, xüsusilə Qərb ölkələrində İslama və müsəlmanlara qarşı artmaqda olan ayrı-seçkilikdən və qərəzli münasibətdən narahatlıq bəhs edib.

*XQ*

# Vyetnamda Azərbaycanın Müstəqillik Günü mərasimi




**Vyetnamın ən mötəbər tədbir məkanı və tarixi səhnəsi hesab olunan Hanoy Opera Binasında 28 May – Müstəqillik Günü və Azərbaycan–Vyetnam strateji tərəfdaşlığının qurulmasına həsr edilmiş rəsmi qəbul, daha sonra isə "Azərbaycan klassik musiqisinin inciləri" adlı təntənəli konsert proqramı keçirilib.**

Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lam və həyat yoldaşı xanım No Fon Li konsert proqramını izləyiblər. Bu, Vyetnamın tarixində Baş katibin xarici ölkələrin milli günləri münasibətilə təşkil olunan tədbirlərdə ilk belə iştirakıdır.

Tədbirlərdə Vyetnamın dövlət və hökumət nümayəndələri, diplomatik missiya təmsilçiləri, mədəniyyət və ictimaiyyət xadimləri, iş adamları, Vyetnam–Azərbaycan Dostluq Assosiasiyasının üzvləri, əvvəllər Azərbaycanda təhsil almış vyetnamlı məzunlar, media nümayəndələri, həmvətənlərimiz, ümumilikdə təxminən 600 nəfər iştirak edib.

Hər iki ölkənin Dövlət himnləri səsləndirildikdən sonra Azərbaycanın Vyetnamdakı səfiri Şövqi Mehdizadə 107 il bundan əvvəl müsəlman Şərqində qurulan ilk demokratik parlament respublikası – Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil, demokratik dövlət quruculuğu sahəsində həyata keçirdiyi mütərəqqi işlər barədə danışıb.

Prezident Ho Şi Minin 1959-cu ildə Azərbaycana və ulu öndər Heydər Əliyevin 1983-cü ildə Vyetnama səfəri ilə xalqlarımız arasında dostluq münasibətlərinin qurulduğu qeyd olunaraq hazırda bu tarixi əlaqələrin bütün sahələr üzrə uğurla inkişaf etdiyi diqqətə çatdırılıb.

Vyetnam xarici işlər nazirinin müavini Le Anh Tuan 28 Mayın Azərbaycan xalqı və dövləti üçün xüsusi önəm daşıdığını bildirərək 107 illik dövlət quruculuğu və inkişaf yolunda əldə edilmiş nailiyyətlər münasibətilə Azərbaycan xalqını təbrik edib.

Sonra Xalq artisti, professor Fəxrəddin Kərimovun dirijorluğu və Hanoy Filarmoniya Orkestrinin müşayiəti əsasında dahi bəstəkarımız Üzeyir Hacıbəylinin "Koroğlu" operasından uvertüra ilə konsert proqramına start verilib. Xalq artisti Fidan Hacıyevanın ifasında Azərbaycan klassik musiqisinin ecazkar nümunələri təqdim olunub. Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Müslüm Maqomayev və Niyazi kimi böyük sənətkarların əsərlərinin yer aldığı konsert proqramı Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi, eləcə də bütün qonaqlar tərəfindən böyük hərarətlə qarşılanıb.

Müslüm Maqomayevin məşhur "Azərbaycan" mahnısı Fidan Hacıyeva və vyetnamlı ifaçı Nguyen Khac Hoa tərəfindən, "Salam, Vyetnam" mahnısı isə Fidan Hacıyeva və Vyetnamda yaşayan soydaşımız Sevinc Orucovanın ifasında Azərbaycan və Vyetnam dillərində səsləndirilib.

Konsertdən sonra Baş katib To Lam səfir Şövqi Mehdizadə ilə söhbət zamanı xalqımızı Müstəqillik Günü münasibətilə təbrik edərək Azərbaycan Prezidentinə onun salamlarını çatdırmağı xahiş edib. To Lam, həmçinin ölkəmizə səfərini yada salaraq, səfərin yaxın gələcəkdə müsbət nəticələrinin olacağına əminliyini ifadə edib.

*XQ*

# Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının Tədqiqat Mərkəzi açılıb



**Mayın 27-də Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) Tədqiqat Mərkəzinin rəsmi açılış mərasimi keçirilib.**

Tədbirdə Azərbaycan xarici işlər nazirinin müavini və COP29-un baş danışıqçısı Yalçın Rəfiyev QHGT Tədqiqat Mərkəzinin gənclərin prioritet və perspektivlərini ön planda saxlayaraq onların qlobal problemlərin həllində mənalı iştirakına mühüm töhfələr verəcəyini qeyd edib.

Sonra BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Vladanka Andreeva çıxış edərək dayanıqlı inkişaf sahəsində gənclərin iştirakına yönəlmiş bilik və təcrübə mübadiləsinin önəmindən bəhs edib.

Ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq əhəmiyyətli COP29 tədbirinin davamı olaraq, QHGT-nin Tədqiqat Mərkəzi cari ildə ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi və su resurslarının səmərəli idarə olunması sahələrində innovativ yanaşmaları və onların tətbiqi imkanlarını araşdırır. Tədbir çərçivəsində mərkəzin gələcək fəaliyyət istiqamətləri, planlaşdırılan elmi tədqiqatların prioritet sahələri və əməkdaşlıq imkanları da müzakirə olunub. Qonaqlara QHGT-nin nəzdində fəaliyyət göstərən Tədqiqat Mərkəzinin kitabxanası və müxtəlif resursları ilə bağlı məlumat verilib.

Tədbir zamanı, həmçinin Qoşulmama Hərəkatı Gənclər Təşkilatının rəsmi internet səhifəsinin təqdimatı keçirilib.

**Xuntaçıların məhkəməsi**

# Ruben Vardanyan zərərçəkmişlərin ittihamını təkzib edə bilmir

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi mayın 27-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxsin hüquqi varisi **Tahir Əliyev** övladı Səbuhi Əliyevin Ağdərədə Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən öldürüldüyünü bildirib.

Zərərçəkmiş şəxs **Seymur Teymurov** dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında bildirib ki, Ağdərədə Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan "Kornet" tipli raket mərmisinin onun idarə etdiyi avtomobilə düşməsi nəticəsində iki nəfər həlak olub, özü isə yaralanıb.

Digər zərərçəkmiş şəxs **Rafiq Əhmədov** Ağdam rayonunda düşmən tərəfindən basdırılmış minaya düşməsi nəticəsində xəsarət aldığını bildirib.

Zərərçəkmiş **Ramil Ələkbərov** Xankəndidə düşmən tərəfindən basdırılmış minanın partlaması nəticəsində yaralandığını söyləyib.

**Mehman Quliyev** Kəlbəcərdə düşmən tərəfindən ağır artilleriya atəşinin açılması zamanı qəlpə dəyməsi nəticəsində sağ gözünü itirdiyini deyib.

**Rəşad Abdullayev** Ağdam rayonunda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən tank əleyhinə raketin atılması nəticəsində xəsarət aldığını bildirib.

Digər zərərçəkmiş şəxslər - **Elsevər Nəzərov** Ağdərədə, **Faqan Haqverdiyev** Ağdam rayonunda, **Sirac Niftalıyev** Xocalı rayonunda, **Nadir Balayev**, **Rauf Yusifov** və **Orxan Fərzəliyev** isə Xocavənd rayonunda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılan atəşlər nəticəsində xəsarət aldıqlarını bildiriblər.

**Mirsaleh Heydərzadə** dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında Şuşada düşmən tərəfinin atəşi nəticəsində yaralandığını söyləyib. O deyib ki, avtomobillə gedərkən Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən meşəlik istiqamətindən açılan atəş nəticəsində özü və avtomobildə olan digər şəxs yaralanıb.

Zərərçəkmiş şəxs **Rahim İbrahimov** Ağdərədə düşmən tərəfindən açılan atəş nəticəsində yaralandığını bildirib.

**Aqil İspərzadə** Xocavənd rayonu ərazisində düşmən tərəfindən mərmi atılması nəticəsində xəsarət alıb. Hadisə zamanı iki nəfər həlak olub, daha üç nəfər xəsarət alıb.

Zərərçəkmiş **Ramil Xankişiyev** bildirib ki, Ağdərədə kolların arasında düşmənin basdırdığı minanın partlaması nəticəsində özü və Xası Verdiyev yaralanıb. Hadisə zamanı Mirmusa Mehdizadə həlak olub.

Digər zərərçəkmiş şəxs **Nemət Rüstəmov** Xocavənddə düşmənin açdığı snayper atəşi və atdığı minaatan mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını söyləyib.

**Ərzulla Tağıyev** Xocavənd rayonunda ermənilər tərəfindən minaatandan açılan atəş nəticəsində yaralandığını deyib.

Zərərçəkmiş şəxs **Abdulla Əsgərzadə** dövlət ittihamçısı Fuad Musayevin suallarına cavabında bildirib ki, Xocavənddə tibb xidməti avtomobili ilə gedərkən Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan minaatan mərmisinin düşərək partlaması nəticəsində özü və Ərzulla Tağıyev yaralanıb. "Həmin vaxt avtomobilin üzərində tibb xidməti maşını olmasını bildirən nişanın olmasına baxmayaraq, onlar bizi atəşə tutdular", - deyə o qeyd edib.

Zərərçəkmiş digər şəxs **Vaqif Xeyrullayev** bildirib ki, Laçın rayonunda düşmənin açdığı atəş nəticəsində yaralanıb. Həmin vaxt onunla birlikdə olan Mirtalıb Ağayev həlak olub, Oruc Rzayev və adını xatırlamadığı bir neçə nəfər xəsarətlər alıb.

**Mirhüseyn Dostuyev** Xocavənddə düşmən tərəfindən açılmış snayper atəşi nəticəsində sağ ayağından güllə yarası aldığını deyib.

Zərərçəkmiş şəxslər - **Pərviz İskəndərli** və **Samir Fərzəliyev** Xocalı rayonunda yaralandıqlarını söyləyiblər.

**Samiq Əliyev** Şuşa şəhəri yaxınlığında düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində xəsarət aldığını vurğulayıb.

**Emil Cəfərov** Xocavənddə Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılan atəş nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş şəxs **Tural Dadaşov** Kəlbəcərdə Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan minaatan mərmisinin partlaması nəticəsində xəsarət aldığını deyib. O qeyd edib ki, həmin vaxt adını xatırlamadığı bir neçə nəfər həlak olub.

**Nüsrət Kərimov** Ağdam rayonunda düşmən tərəfinin atəşi nəticəsində xəsarət alıb. Zərərçəkmiş şəxs onunla birlikdə yaralanan şəxslərdən birinin hələ də xəstəxanada müalicəsinin davam etdiyini bildirib.

**Aslan Əzizov** isə diqqətə çatdırıb ki, Ağdam rayonunda düşmən tərəfindən açılan atəş nəticəsində özü, Namiq Zöhrabov və Nüsrət Kərimov müxtəlif növ bədən xəsarətləri alıblar.

**Məhəmməd Qəyyumlu** və **Murad Hüseynov** Ağdam rayonunda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılan atəş nəticəsində yaralandıqlarını söyləyib.

Məhkəmə prosesində, həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası iyunun 3-nə təyin olunub.

# Milli mətbuatın yubileyinə həsr olunmuş kitab sərgisi

**Milli mətbuatın 150 illiyi ilə əlaqədar Sumqayıt Dövlət Universiteti (SDU) və "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyinin (ANAİB) təşkil etdikləri kitab sərgisinin açılışı olub. Sərgidən əvvəl universitetin kiçik akt zalında "Mətbuatın şərəfli yolu" adlı panel müzakirələri aparıldı. "Əkinçi" ilə başlanan yeni era" mövzusunda videoçarx göstərildikdən sonra ali təhsil ocağının rektor əvəzi Əminağa Sadıqov deputatları, naşirləri, media mənsublarını salamladı və tədbirin məramını açıqladı. O, hazırkı informasiya bolluğunda, süni intellekt şəraitində ənənəvi medianın rolu, ixtisaslaşmanın, dürüst məlumatlar yaymağın vacibliyi barədə danışdı və mətbuatla bağlı olan hər kəsə uğurlar dilədi.**



Yaradıcı fəaliyyəti media ilə sıx bağlı olan Xalq şairi Sabir Rüstəmxanlı 150 yaşlı "Əkinçi"nin işığında anadilli mətbuatımızın yüksəlişini yüksək dəyərləndirdi. Hələ universitetin 4-cü kurs tələbəsi olduğu vaxtlardan "Ədəbiyyat" qəzetində müxbirliyə başlamış, sonralar "Yazıçı" nəşriyyatının baş redaktoru olmuş, xalq azadlıq hərəkatı zamanı əl-əl gəzən ilk müstəqil "Azərbaycan" qəzetini biraxmış, mətbuat və informasiya naziri işləmiş, daim mətbuatın və söz sənətinin dünyaya çıxışı yolunda fəal çalışmaları ilə fərqlənmiş Sabir Rüstəmxanlı "Müstəqillik dövründə mətbuatımızın azadlığı və inkişafı" mövzusunda danışdı. Bugünkü Azərbaycan özəlliklərinin bir səbəbinin də Həsən bəy Zərdabi kimi milli ruh daşıyıcıları, böyük fikir adamları olduğunu vurğuladı. Hazırkı dövrdə jurnalist peşəkarlığının vacibliyini önə çəkən Xalq şairi ana dilimizin saflığı uğrunda jurnalist səylərinin xüsusilə vacib olduğunu diqqətə çatdırdı.

Milli Məclisin deputatı, Əməkdar jurnalist Hikmət Məmmədov "Cəmiyyətin inkişafında medianın rolu" ilə bağlı düşüncələrini bölüşdü. Media savadlılığı və intellektual millətçilik, cümhuriyyətçilik, müstəqillik aspektlərinə diqqəti cəlb etdi. Konstitusiyada təsbit edilmiş düşüncə və əqidə azadlığı hüquqlarının mətbuat vasitəsilə çəmiyyətə transformasiya olunduğunu faktlarla əsaslandırdı.

Paneldə iştirak edən digər deputatlar – "Ədəbiyyat" qəzetinin şöbə müdiri, filologiya elmləri doktoru Elnarə Akimova və "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə çıxışlarında Vətən müharibəsi və mətbuat, media savadlılığı kimi məsələləri incələdilər. Ali Baş Komandanımız İlham Əliyevin siyasi, hərbi sahələrdəki uğurları qeyd edildi, eyni zamanda, 44 günlük Vətən savaşı zamanı Azərbaycan rəhbərinin xarici mediaya 30-dan artıq müsahibə verməsi mətbuat tariximizin şərəfli səhifəsi kimi dəyərləndirildi. Natiqlər bu gün də davam edən informasiya savaşında jurnalistlərin müstəsna rolundan danışdılar. Görmək, yazmaq, düşünmək və düşündürmək, maarifləndirmək, milli məfkurəni uca tutmaq, cəmiyyəti daha da saflaşdırmaq missiyasının məhz medianın çiyinlərinə düşdüyü bildirildi.

Kitabxana-informasiya mərkəzi ilə tanışlıqdan sonra SDU-nun qarşısında 4-cü Sumqayıt kitab sərgisinin açılışı oldu. Milli mətbuatımızın görkəmli nümayəndələri Həsən bəy Zərdabi ("Əkinçi" qəzeti), Əlimərdan bəy Topçubaşov ("Kaspi" qəzeti), Əli bəy Hüseynzadə ("Füyuzat" jurnalı), Əhməd bəy Ağaoğlu ("Həyat" qəzeti), Cəlil Məmmədquluzadə ("Molla Nəsrəddin" jurnalı), Xədicə Əlibəyova ("İşıq" qəzeti) və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin teatrlaşdırılmış obrazları kitabsevərləri bədii dillə salamladılar. Musiqili çıxışlar mərasimə xüsusi rəng qatdı. Qonaqlar ANAİB üzvü olan kitab istehsalçılarının sərgisi ilə



tanış oldular, bəyəndikləri nəşrləri aldılar. Sərgi çərçivəsində yazıçı Varis, naşir Şəmil Sadıq, hərbi jurnalist Surxay Məmməd, psixoloq Elbrus Kəlbiyev və başqaları ilə yaddaqalan görüşlər də keçirildi. Bu gün isə seminarlar, oxu marafonu, imza mərasimləri, ustad dərsləri olacaq. Proqrama 28 May Müstəqillik Gününə həsr olumuş bayram konserti ilə yekun vurulacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

# Mingəçevirdə bayram şənliyi



**"Nur şəhəri"ndəki Gənclər evində 28 May Müstəqillik Günü münasibətilə icra hakimiyyəti və YAP yerli təşkilatının "Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir" mövzusunda birgə konfransı keçirilib. İştirakçılar ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək ehtiramlarını ifadə etdikdən sonra dövlət müstəqilliyimizlə bağlı sərgiyə baxış keçirilib. Ardınca sənədli film nümayiş etdirildi.**

Konfransı açan Mingəçevir Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov geniş məruzə ilə çıxış edərək bildirdi ki, çoxəsrlik tariximizin dövlətçilik salnaməsində özünəməxsus yeri olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması XX əsrin əvvəllərində dünyada gedən ictimai-siyasi proseslərin bir hissəsi idi. Bu dövrdə Azərbaycan xalqı yeni bir formada dövlətçilik qurmaqla Şərqlə Qərbin sivilizasiyasına yeni bir dövlət modeli vermiş, ilk qərarı ilə milliyyətindən, dinindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq yerinə yetirməyə başlayıb. Bu, Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması demək idi. Ulu öndərin apardığı ardıcıl, dönməz siyasət nəticəsində dövlətçiliyin təməl prinsipləri yaradılaraq möhkəmləndirildi, müstəqil Azərbaycan dünya birliyinin tam hüquqlu üzvünə çevrildi.

Azərbaycan Respublikasının Milli Məclisi 1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsi ilə Azərbaycan Respublikası dövlət müstəqilliyinin elan olunmasını nəzərə alaraq 2021-ci il oktyabr ayının 15-də may ayının 28-nin Müstəqillik Günü



ölkəmizin bütün vətəndaşlarına bərabər hüquqlar verən Xalq Cümhuriyyətinin yaranmasını elan etmişdir. Az müddət mövcud olmasına baxmayaraq, AXC çox işlər görmüşdür. Təəssüf ki, 1920-ci ildə Sovet Rusiyasının beynəlxalq hüquq normalarını tapdalayan hərbi müdaxiləsi nəticəsində müstəqil Azərbaycan Respublikası süqut etmişdir.

Məruzəçi qeyd etdi ki, 1991-ci il oktyabr ayının 18-də qəbul edilmiş Azərbaycan Respublikasının müstəqilliyi haqqında Konstitusiya Aktı Azərbaycan Respublikasının Xalq Cümhuriyyətinin varisi olduğunu bəyan edərək öz dövlət müstəqilliyini dünyaya bəyan edib. Bununla da Azərbaycan xalqı müstəqilliyini bərpa etdi, cümhuriyyətin dövlətçilik ənənələrini davam etdirərək bu tarixi varislik üzərində öz dövlətini yaradıb. Ulu öndər Heydər Əliyevin dediyi kimi: "Əsrin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi olaraq Üzeyir Hacıbəylinin və Əhməd Cavadın yaratdıqları dövlət himnini, Xalq Cümhuriyyətinin üç rəngli bayrağını və gerbini bərpa etdi. Bu dövlətçilik atributları bu gün də hər bir Azərbaycan vətəndaşı üçün olduqca əzizdir. Bu dövlət, bu quruluş 1918-ci ildə yaranmış ilk Xalq Cümhuriyyətinin varisidir. Bütün dövlət onun varisidir, bütün respublika, onun varisidir, bütün xalq onun varisidir".

Amma müstəqilliyimizin bərpası xalqımıza heç də asan başa gəlməyib. Hakimiyyət uğrunda çəkişmələr, xaos, anarxiya, Ermənistanın torpaqlarımıza təcavüzü, cəbhədəki uğursuzluqlar, daxildə separatçılıq meyillərinin güclənməsi, dövlətçiliyin məhvinə doğru gedən prosesi sürətləndirib. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev xilaskarlıq missiyasını müdrikliklə, qətiyyət və uzaqgörənliklə

elan olunması haqqında qanun qəbul etmişdir. Bu gün Prezident İlham Əliyev siyasi varislik ənənələrini layiqincə davam etdirir. 44 günlük Vətən müharibəsindən sonra biz dünyada qalib xalq kimi tanınırıq. Ölkəmiz sürətlə inkişaf edir, yeni zirvələrə doğru inamla irəliləyir. İşğaldan azad olunmuş ərazilərdə vaxtilə yaşayan soydaşlarımızın həmin ərazilərə qaytarılması üçün işlər gedir.

Konfransda YAP şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev "Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı xalqımıza müstəqil Azərbaycanı bəxş etmişdir", Mingəçevir Dövlət Universitetinin dosenti, iqtisadiyyat üzrə fəlsəfə doktoru Vüqar Məmmədli "Müasir Azərbaycanın inkişaf modeli Heydər Əliyev dühasının bəhrəsidir", Mingəçevir Tibb Kollecinin ictimai fənnlər müəllimi Kəmalə Hüseynova "Ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi müasir ideologiyamızın əsasıdır", Mingəçevir Bələdiyyəsinin sədri Anar İsmayılov "Heydər Əliyev ideyalarına əsaslanan Prezident – Xalq - Ordu birliyi zəfərlərimizin təminatçısıdır" mövzularında məruzələrlə çıxış etdilər.

Bildirildi ki, dəyişməz siyasi kursla irəliləyən Prezident İlham Əliyev xalqımızın şərəfli tarixi keçmişinin öyrənilməsi kimi məsələləri daim diqqət mərkəzində saxlayır. Ulu öndər Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasını məhz müstəqil Azərbaycanın özü qədər əbədi olan ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi xətt təşkil edir. Ötən il Prezident tərəfindən sərəncamla təsbit edilən 2025-ci il "Konstitusiya və Suverenlik ili" müstəqilliyimizin dönməz və əbədi olmasında mühüm mərhələdir.



***İlqar HƏSƏNOV,***
***"XQ"nin bölgə müxbiri***

# Şuşa sevgisinə bürünmüş poeziya məclisi





**Şuşa Dövlət Musiqili Dram Teatrının qarşısında qələbəlik idi. Paytaxtda məskunlaşan şuşalılar dilçi alim, türkoloq, filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü, ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, AYB-nin üzvü, Türk Dünyası Alim Qadınlar Şurasının sədri, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, nəğməkar şairə Mahirə Nağıqızı Hüseynova ilə görüşə toplaşmışdılar.**

Şuşa Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən toplantıda filoloq şairənin yaradıcılığının pərəstişkarları ilə yanaşı, ictimai-siyasi xadimlər, tanınmış elm və mədəniyyət adamları da iştirak edirdilər. Görüşü Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva açaraq müasir poeziyamızda incə ruhlu şairə kimi tanınan Mahirə Nağıqızının yaradıcılıq yolundan, dilçi alim kimi elmi araşdırmalarından və ictimai-siyasi xadim kimi Vətən qarşısında xidmətlərindən söz açdı. Natiq qeyd etdi ki, Mahirə Hüseynova dilçilik elmində fonetika, morfologiya, sintaksis və leksikologiya üzrə tədqiqatlar aparmış qiymətli monoqrafiyalar müəllifi kimi tanınmaqla yanaşı, sözə Vətən, torpaq, xalq sevgisinin tərənnümünün incisi kimi nizam verən zərif duyğulu şairə kimi də oxucu sevgisi qazanmışdır.

Yaradıcılıq məclisində Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri Məlahət İbrahimqızı, fəlsəfə elmləri doktoru, AYB-nin üzvü, Beynəlxalq Professorlar Akademiyasinın üzvü, professor Rafiq Əliyev, Bakı Slavyan Univesitetinin rektoru, siyasi elmlər üzrə fəlsəfə doktoru Anar Nağıyev və görüşün sair qonaqları çıxış edərək Mahirə Hüseynovanın elmi və ədəbi yaradıcılığının mövzu, ideya və sənətkarlıq xüsusiyyətlərindən, Azərbaycan dilinin tədqiqi və zənginləşməsi yolunda yorulmaz fəaliyyətindən bəhs etdilər.

Görüşün ədəbi-bədii hissəsində Şuşa Dövlət Musiqili Dram Teatrının aktyorları şairənin "Qarabağım", "Vətən", "Şəhid anasına məktub", "Məbəd ürəyin", "Tələsmə hələ həkim" və digər şeirlərini səsləndirdilər, musiqiçilər şairənin şeirlərinə bəstələnmiş mahnıları ifa etdilər.

Məclisin davamında Mahirə Hüseynova xoş sözlərə görə minnətdarlığını bildirdi, yeni yaradıcılıq planlarından söz açdı. Şairə Şuşa ilə bağlı duyğu-düşüncələrini bölüşərkən vurğuladı ki, son illərdə onu ən çox sevindirən və qürurlandıran müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun xalqımızın mədəniyyət və mənəviyyat paytaxtı olan Şuşanın erməni faşizmindən azad edilməsi, torpaqlarımız uğrunda haqq savaşında 44 günlük Zəfərimiz və dövlət başçısının Xankəndidə Azərbaycan bayrağının qaldırması olub: " Biz artıq bir millət və xalq olaraq qalib xalq kimi başımızı dik tutub gəzə bilirik. Bundan sonra biz ədəbiyyat və incəsənət adamlarının üzərinə düşən ən müqəddəs vəzifə bu Zəfəri gənc nəsillərə çatdırmaq üçün ona layiq əsərlər yazıb yaratmaqdır".

Ədəbi-bədii görüşün sonunda Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov Mahirə xanımın ana dilimizin tədqiqi sahəsində xidmətlərinin və yurd sevgisi ilə aşılanmış şeirlərinin gənc nəslin vətənpərvərlik tərbiyəsinə önəmli töhfə olduğunu söylədi, şairəyə Şuşa sevgisinə, şuşalılara dostluq münasibətinə görə təşəkkür etdi. Başçı rəhbəri olduğu şəhərin rəmzi olan Şuşa qalasının rəsmini şairəyə hədiyyə etdi.

***İlqar RÜSTƏMOV***
***XQ***

# "Bərdə Broyler "ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə hesabatı

(manatla)

| AKTİVLƏR | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | | |
| Torpaq, tikili və avadanlıqlar | 657,152.91 | 684,534.28 |
| | **657,152.91** | **684,534.28** |
| *Qısamüddətli aktivlər* | | |
| Qısamüddətli debitor borcları | 27,709.03 | 27,708.96 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 25,003.23 | 43,102.60 |
| Dovlət büdcəsindən vergilər üzrə | 0.00 | 0.15 |
| | **52,712.27** | **70,811.71** |
| **CƏMİ AKTİVLƏR** | **709,865.17** | **755,345.99** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **KAPİTAL** | | |
| Ödənilmiş nizamnamə kapitalı | 247,456.00 | 247,456.00 |
| Bölüşdürülməmiş mənfəət / (ödənilməmiş zərər) | 152,711.04 | 115,614.20 |
| **CƏMİ KAPİTAL** | **400,167.04** | **363,070.20** |
| **ÖHDƏLİKLƏR** | | |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Uzunmüddətli borclar | 308,475.47 | 388,475.47 |
| | **308,475.47** | **388,475.47** |
| *Qısamüddətli öhdəliklər* | | |
| Qısamüddətli kreditor borcları | 705.20 | 457.74 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 517.45 | 3342.58 |
| Digər öhdəliklər | - | - |
| | **1,222.65** | **3,800.32** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **309,698.12** | **392,275.79** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **709,865.17** | **755,345.99** |

### Mənfəət və ya zərər haqqında hesabat

| | | |
|---|---|---|
| **GƏLİRLƏR** | **102,508.56** | **102,508.56** |
| **XƏRCLƏR** | | |
| Əmək haqqı | 13,576.94 | 13,494.30 |
| DSMF | 2,608.54 | 2,652.20 |
| İcarə haqqı | 12,800.00 | 12,800.00 |
| Amortizasiya | 27,381.37 | 28,522.26 |
| Audit xərcləri | 1,000.00 | 1,000.00 |
| Bank xidmətləri üzrə xərclər | 335.18 | 350.49 |
| Torpaq vergisi | 6,200.00 | 6,200.00 |
| Sığorta xərcləri | 298.91 | 579.22 |
| Rabitə xərci | 0.00 | 35.00 |
| Poçt xidməti | 0.00 | 187.00 |
| Notarius xərci | 8.00 | 8.00 |
| Sair cərimə və rüsumlar | - | - |
| Sair xərclər | 838.46 | 780.58 |
| | **65,047.40** | **66,609.05** |
| **MƏNFƏƏT** | **37,461.16** | **35,899.51** |
| Gəlirdən çıxılmayan xərclər | 8.00 | 260.00 |
| **VERGİYƏ CƏLB OLUNAN MƏNFƏƏT** | **37,469.16** | **36,159.51** |
| Mənfəət vergisi | 1,873.46 | 1,807.98 |
| **XALİS MƏNFƏƏT / (ZƏRƏR)** | **35,595.70** | **34,351.53** |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət / (ödənilməmiş zərər) |
|---|---|---|
| **2024 -cü il yanvarın 1-nə qalıq** | **247,456.00** | **115,614.20** |
| Xalis mənfəət / (zərər) | | 37,096.84 |
| **2024-cü il dekabrın 31-nə qalıq** | **247,456.00** | **152,711.04** |
| **2023-cü il yanvarın 1-nə qalıq** | **247,456.00** | **79,848.91** |
| Xalis mənfəət / (zərər) | | 35,765.29 |
| **2023-cü il dekabrın 31-nə qalıq** | **247,456.00** | **115,614.20** |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | | |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | |
| Digər gəlirlərdən daxilolmalar | 120,960.00 | 130,130.00 |
| Mallar və xidmətlərə görə xaricolmalar | (42,334.54) | (39,827.15) |
| İşçilərin mükafatlandırılması üzrə ödənişlər | (16,724.83) | (16,966.87) |
| Vergilərə və sair məcburi ödəmələrə görə xaricolmalar | | |
| Digər ödənişlərə görə xaricolmalar | | |
| | **61,900.63** | **73,335.98** |
| ***İNVESTİSİYA FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | |
| ***MALİYYƏ FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Borc şəklində alınmış vəsaitlər | (80,000.00) | (40,000.00) |
| Borc şəklində alınmış vəsaitlərin geri ödənilməsi | **(80,000.00)** | **(40,000.00)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **(18,099.37)** | **33,335.98** |
| **Dövrün əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **43,102.60** | **9,766.62** |
| **Dövrün sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **25,003.23** | **43,102.60** |

### MÜSTƏQİL AUDİTORUN RƏYİ

**Biz, "BƏRDƏ BROYLER" ASC-nin** 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Kommersiya Təşkilatları Üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz ,maliyyə hesabatlarının auditinə aid etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Əsas audit məsələləri

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə hesabat dövrünün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlərə aid ayrılıqda rəy vermirik.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik, maliyyə hesabatlarının Kommersiya Təşkilatları Üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə ,rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

**"Audit Consulting 17" MMC-nin direktoru Nazim Suxənvər oğlu Cəfərov,**
**AT/140 06.09.2017, Bakı, 23 may 2025-ci il**

# "Cəlilabad Broyler "ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə hesabatı

(manatla)

| AKTİVLƏR | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | | |
| Torpaq, tikili və avadanlıqlar | 2.326.574,42 | 2.584.461,14 |
| Qeyri -maddi aktivlər | 138.510,00 | 153.900,00 |
| Kapitallaşdırma üçün aktivlər | 3.985.173,31 | 2.510.000,00 |
| Digər aktivlər | - | - |
| | **6.450.257,73** | **5.248.361,14** |
| *Qısamüddətli aktivlər* | | |
| Qısamüddətli debitor borcları | 56.315,45 | 18.880,00 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 427.226,13 | 2.109,62 |
| Dovlət büdcəsindən vergilər üzrə | 123.392,33 | 0,00 |
| Ehtiyatlar | - | - |
| | **606.933,91** | **20.989,62** |
| **CƏMİ AKTİVLƏR** | | |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **KAPİTAL** | | |
| Ödənilmiş nizamnamə kapitalı | 849,238.00 | 849,238.00 |
| Bölüşdürülməmiş mənfəət / (ödənilməmiş zərər) | - | - |
| Kapital ehtiyatları | 4.053.941,10 | 4.287.930,66 |
| **CƏMİ KAPİTAL** | **4.903.179,10** | **5.137.168,66** |
| **ÖHDƏLİKLƏR** | | |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Uzunmüddətli borclar | 1.920.913,62 | - |
| Bank kreditləri | - | - |
| Gələcək dövrün gəlirləri | - | - |
| | **1.920.913,62** | **-** |
| *Qısamüddətli öhdəliklər* | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 49.641,74 | 131.639,35 |
| Sair qısamüddətli kreditor borcları | 183.457,17 | - |
| Digər öhdəliklər | - | 542,75 |
| | **233.098,91** | **132.182,10** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **2.154.012,53** | **132.182,10** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **7.057.191,63** | **5.269.350,76** |

### Mənfəət və ya zərər haqqında hesabat

| | | |
|---|---|---|
| **GƏLİRLƏR** | **177.488,38** | **116.000,00** |
| **XƏRCLƏR** | | |
| Əmək haqqı | 16.564,07 | 2.450,00 |
| DSMF | 3.200,57 | 449,75 |
| İcarə haqqı | - | 12.900,00 |
| Amortizasiya | 272.838,77 | 317.227,77 |
| Audit xərcləri | 1.000,00 | - |
| Bank xidmətləri üzrə xərclər | 1.830,42 | 152,02 |
| Torpaq vergisi | 5.592,52 | 5.592,52 |
| Əmlak vergisi | 21.878,82 | 24.821,28 |
| Sığorta xərcləri | 352,83 | 59,80 |
| Təqdim edilmiş əsas vəsaitlərin dəyəri | 7.457,95 | - |
| Sair xərclər | 6.200,81 | 387,72 |
| | **336.916,77** | **364.040,86** |
| **ZƏRƏR/MƏNFƏƏT** | **(159.428,38)** | **(248.040,86)** |
| Gəlirdən çıxılmayan xərclər | - | - |
| **VERGİYƏ CƏLB OLUNAN MƏNFƏƏT** | - | - |
| Mənfəət vergisi | - | - |
| **XALİS MƏNFƏƏT / (ZƏRƏR)** | **(159.428,38)** | **(248.040,86)** |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət / (ödənilməmiş zərər) | Kapital ehtiyatları |
|---|---|---|---|
| **2024-cü il yanvarın 1-nə qalıq** | **849,238.00** | - | **4.287.930,66** |
| Xalis mənfəət / (zərər) | | - | **(233.989,56)** |
| **2024-cü il dekabrın 31-nə qalıq** | **849,238.00** | - | **4.053.941,10** |
| **2023-cü il yanvarın 1-nə qalıq** | **849,238.00** | - | **1.434.099,00** |
| Xalis mənfəət / (zərər) | | - | **2.853.831,66** |
| **2023-cü il dekabrın 31-nə qalıq** | **849,238.00** | - | **4.287.930,66** |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | | |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | |
| Digər gəlirlərdən daxilolmalar | 175.080,85 | 118.000,00 |
| Mallar və xidmətlərə görə xaricolmalar | (22.173,81) | - |
| İşçilərin mükafatlandırılması üzrə ödənişlər | (20.951,80) | (1.675,61) |
| Vergilərə və sair məcburi ödəmələrə görə xaricolmalar | (88.460,48) | (114.214,77) |
| Digər ödənişlərə görə xaricolmalar | | |
| | **43.494,76** | **2.109,62** |
| ***İNVESTİSİYA FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | (1.539.291,87) | - |
| | **(1.539.291,87)** | - |
| ***MALİYYƏ FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Borc şəklində alınmış vəsaitlər | 1.920.913,62 | - |
| Borc şəklində alınmış vəsaitlərin geri ödənilməsi | - | - |
| | **1.920.913,62** | **-** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **425.116,51** | **2.109,62** |
| **Dövrün əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **2.109,62** | **-** |
| **Dövrün sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **427.226,13** | **2.109,62** |

### MÜSTƏQİL AUDİTORUN RƏYİ

**Biz, "CƏLİLABAD BROYLER" ASC -nin** 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2024-cü il dekabrın 31 -nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Kommersiya Təşkilatları Üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy** üçün əsaslar

Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz ,maliyyə hesabatlarının auditinə aid etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Əsas **audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə hesabat dövrünün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik ,maliyyə hesabatlarının Kommersiya Təşkilatları Üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə , rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik ,əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhriflər mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda ,yaxud məcmu olaraq, istifadəçilərin təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab olunur

**"Audit Consulting 17" MMC-nin direktoru Nazim Suxənvər oğlu Cəfərov**
**AT/140 06.09.2017 Bakı, 23 may 2025-ci il**

## Ağdamın Kəngərli kəndi 206 övladını da qəbul edib



**Dünən Böyük Qayıdış proqramı çərçivəsində doğma yurduna yola salınan köç karvanı Ağdamın Kəngərli kəndinə çatıb. Bu mərhələdə köçürülən 206 nəfərdən ibarət 48 ailəyə yeni tikilmiş fərdi yaşayış evlərinin açarları təqdim edilib.**

Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 43 mindən çox insan yaşayır.

***XQ***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

***ASCO-nun tabeliyindəki idarələrə tələb olunan laminat təbəqələrin satın alınması məqsədilə***

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il iyunun 3-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1263.**

**Ünvan – Bakı, Mikayıl Useynov küçəsi 2.**

## "Azərelektrikşəbəkətikinti" ASC səhmdarlarının nəzərinə!

4 iyul 2025-ci il saat 14.00-da "Azərelektrikşəbəkətikinti"ASC səhmdarlarının yenidən ümumi yığıncağı keçiriləcəkdir.

***Yığıncağın gündəliyi:***

1.Cəmiyyətin 2024-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına aid idarə heyətinin hesabatı.

2. Cəmiyyətin ləğv olunması.

3. Cəmiyyətin ləğv olunması ilə əlaqədar ləğvetmə komissiyasının (təsviyəçinin) təyin edilməsi və ona müvafiq səlahiyyətlərin verilməsi.

4. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

Yığıncaqda iştirak etmək üçün gələn şəxslərin qeydiyyatı saat 12.00- dan 14.00-a kimi aparılacaqdır.

Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiqləyən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq olunmuş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

**Ünvan – Bakı şəhəri, Nəsimi rayonu, Rövşən Cəfərov küçəsi 17.**

***İdarə heyəti***

## "Finex Kredit" BOKT ASC səhmdarlarının nəzərinə!

1 iyul 2025-ci il saat 11.00-da Bakı şəhəri, S.Rüstəm küçəsi 11 nömrəli ünvanda "Finex Kredit" BOKT ASC səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.

***Gündəlikdəki məsələlər:***

**1.** Nizamnaməyə dəyişiklik edilməsi barədə müzakirə.

**2.** Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə veriləmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin çərşənbə axşamı günləri saat 12.00-dək tanış ola bilərlər.

**Əlaqə telefonu – (+994 12) 440-56-15.**
**E-mail – info@finexkredit.az**
**Ünvan – Bakı şəhəri, S.Rüstəm küçəsi 11.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 110 (30804) 28 may 2025-ci il, çərşənbə

# Əmanətlərin Sığortalanması Fondu qanvermə aksiyası keçirib












**Mayın 26-da Əmanətlərin Sığortalanması Fondunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi "Hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara qayğı" Dövlət Proqramına dəstək çərçivəsində talassemiya, hemofiliya, leykoz və digər qan xəstəliklərindən əziyyət çəkən insanlar üçün növbəti qanvermə aksiyası baş tutmuşdur.**

Aksiyada könüllü donor kimi Fondun və ləğv prosesində olan bankların 100-dən çox əməkdaşı iştirak etmişdir. Fond tərəfindən həyata keçirilən sayca üçüncü qanvermə aksiyasının əsas məqsədi hemofiliya və talassemiya, eləcə də digər qan xəstəliklərindən əziyyət çəkən insanlara, ələlxüsus da uşaqlara könüllü və təmənnasız yardım etmək, habelə onlar üçün tədarük olunan qan ehtiyatını artırmaqdır.

Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibb briqadasının həkim-hematoloqları ilk öncə hər bir donordan qanın ümumi analizini götürmüş, ardınca isə digər tibbi müayinələri keçirmişdir. Qeyd edək ki, toplanan qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkənlər üçün istifadə olunacaqdır.

Hər il qan xəstəliklərindən əziyyət çəkən yüzlərlə insan qan çatışmazlığından həyatını itirir və ya sağlamlıq durumu kəskin şəkildə pisləşir. Bunu nəzərə alaraq kütləvi qanvermə aksiyalarının keçirilməsi sözügedən insanların xilas edilməsi baxımından cəmiyyət üçün başlıca məna kəsb edir.

**İdman**

## III MDB Oyunlarına hazırlıq



**Gənclər və idman naziri Fərid Qayıbov idman federasiyalarının nümayəndələri ilə 20-ci görüşünü keçirib.**

Azərbaycan İdman Akademiyasında baş tutan görüşdə nazir son dövrdə görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat verib.

Tədbirdə 2025-ci ildə Azərbaycanda keçiriləcək III MDB Oyunlarına hazırlıq məsələləri müzakirə olunub. Oyunların rəsmi saytı barədə məlumat verildikdən sonra ISF U15 Gimnaziada İdman Oyunlarının və idman veteranlarının təqdimatı olub. Həmçinin Azərbaycan İdman Akademiyasında tədris proqramları, federasiyaların qiymətləndirilməsi modeli, nümunəvi nizamnamə və strukturla bağlı məsələlər müzakirə olunub. Eyni zamanda, 2026-cı ilin təqvim planı haqqında məlumat verilib. Sonda "tedbirvar.az" platforması təqdim olunub, federasiyaların sosial media fəaliyyəti və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Rusiyada 2 mükafat



**Azərbaycan idmançıları Rusiyanın Krasnodar şəhərində batut gimnastikası üzrə keçirilmiş beynəlxalq turnirdə uğurla çıxış edərək 2 medal qazanıblar.**

Yeniyetmələr yaş kateqoriyasında mübarizə aparan Ömər Qasımlı və Fərhad Mustafayev sinxron proqramda 42.850 xalla gümüş medalın sahibi olublar.

Böyüklər yaş kateqoriyasında çıxış edən Selcan Mahsudova və Maqsud Mahsudov isə sinxron proqramda 49.300 xal toplayaraq bürünc medala yiyəleniblər.

*LQ URBANOVA*
*XQ*

# Buzlaqlar süni intellekt aynasında

**Planetin buzlaqlarının həcminin dəqiq qiymətləndirilməsi iqlim və ətraf mühit sahələrində çalışanlar üçün ən çətin elmi problemlərdən biridir. Çünki bu prosesdə yalnız buzlaqları modelləşdirmək tələb olunmur. Qiymətləndirmə dəniz səviyyəsinin qalxması, şirin suyun mövcudluğu və iqlim böhranının iqtisadi təsiri ilə bağlı proqnozlara təsir edir. İtaliyada alimlər buzun xəritəsini dəqiqləşdirmək üçün süni intellektdən istifadə edirlər.**



Hazırda dəniz səviyyəsinin qalxmasının təxminən 25-30 faizini buzlaqlar təşkil edir. Qlobal istiləşmənin təsiri altında artım sürəti yüksəlir. Xüsusilə And dağları, Himalay və Qarakoram dağ silsilələri kimi quraq bölgələrdəki buzlaq kütləsi milyardlarla insanın sağ qalması üçün çox vacibdir. Bu buzlaqlar təbii su anbarlarıdır. Qrenlandiya və Antarktida kənarlarında yerləşən nəhəng buz təbəqələri də mühüm rol oynayır: onlar böyük miqdarda şirin su ehtiva edir və qütb buzlaqlarının sabitliyinə (və ya qeyri-sabitliyinə) töhfə verən okeanlarla birbaşa qarşılıqlı əlaqədədirlər.

*XQ*

**HAVA**

## Abşeronda yağmursuz, bölgələrdə yağış, duman və külək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 28-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Gecə 17-19°, gündüz 23-28° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz əksər rayonlarda yağıntılar kəsiləcək. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 28-33°, dağlarda gecə 5-10°, gündüz 15-20° isti olacaq.

*QQ ASIMOV,*
*XQ*


# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU)

## *2025-2026-cı tədris ili üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul elan edir*

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar. Müraciət edəcək şəxslər Elm və Təhsil Nazirliyinin www.portal.edu.az saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçərək təlimatlara uyğun qeydiyyatdan keçməlidirlər.

Plan yerləri:

Doktoranturaya sənəd qəbuluna dair ən çox verilən suallarla aşağıdakı linkə daxil olub tanış ola bilərsiniz: https://edu.gov.az/uploads/Ali-tehsil/2025/dokturantura-qebul-telimat.pdf

Elektron sənəd qəbulu üzrə video təlimat: https://www.youtube.com/watch?v=duWnTdCTukU

Sənəd qəbulu 2025 -ci il mayın 13-dən iyunun 2-nə qədərdir.

Qəbul qaydaları haqqında əlavə məlumat almaq istəyənlər ADMİU-nun elm və doktorantura şöbəsinə müraciət edə bilərlər.

**Əlaqə nömrəsi – (+994 12) 599-00-54.**

**Doktoranturaya qəbul qaydaları haqqında daha ətraflı: https://e-qanun.az/framework/19800 email ünvanından almaq olar.**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 may 2025-ci il tarixli 275s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2025-ci il üçün doktorant hazırlığı üzrə qəbul planları"ndan çıxarış**

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | Ödənişli əsaslarla hazırlıq üzrə illik haqlarının məbləği (manatla) | Elmlər doktoru proqramı üzrə | | | Ödənişli əsaslarla hazırlıq üzrə illik haqlarının məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorantura | | | | Doktorantura | | | |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən | | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən | | |
| | | | əyani | qiyabi | | | əyani | qiyabi | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** | | | | | | | | | |
| 6203.01 | İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi | 1 | | 1 | 1500 | | | | |
| 6212.01 | Teatr sənəti | 1 | | 1 | 1500 | | | | |
| 6213.01 | Musiqi sənəti | 1 | | 1 | 1500 | | | | |
| 6214.01 | Kino, tele və digər ekran sənətləri | 1 | | 1 | 1500 | | | | |
| 6215.01 | Təsviri sənət | 1 | | 1 | 1500 | | | | |
| 6218.01 | Dekorativ tətbiqi sənət | 1 | | 1 | 1500 | | | | |
| | Cəmi: | 6 | | 6 | | | | | |


**Bakı Mühəndislik Universitetində (BMU) xarici dillər kafedrasının təşkilatçılığı ilə ingilis bölmələrində təhsil alan tələbələrin ifasında dünya ədəbiyyatının görkəmli klassiklərindən Ceyn Ostinin "Qürur və qərəz" tamaşası nümayiş etdirilib.**

# "Qürur və qərəz" ali məktəb səhnəsində



Universitetdən mətbuata bildirilib ki, əvvəlcə kafedranın müdiri Nərminə Əliyeva layihənin tələbələrin ingilis dili biliklərinin təkmilləşdirilməsinə, yaradıcılıq qabiliyyətinin inkişafına, eləcə də bədii-estetik zövqünün formalaşmasına, ədəbiyyata, teatra marağının artırılmasına xidmət etdiyini söyləyib. O, tələbələrin belə bir əsərdə rol almasına məmnunluqla yanaşdıqlarını vurğulayaraq tədbir iştirakçılarının tamaşadan zövq alacağına əminliyini bildirib.

Sonra tələbələrin ifasında əsərdən ingilis dilində müxtəlif epizodik səhnələr nümayiş etdirilib. Hər bir səhnə əsərin əsas ideyasını, obrazların daxili aləmini, personajlar arasındakı münasibətləri və dövrün ictimai-mədəni mənzərəsini əks etdirməyə yönəlib.

Tamaşa tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb və tələbələrin səhnə mədəniyyəti yüksək qiymətləndirilib.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 1085
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00